Prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı MSK-nın verdiyi məlumat:

# İLHAM ƏLİYEV - 86%

Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 81 (7808) CÜMƏ AXŞAMI, 12 aprel 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Müstəqil siyasətə, əsaslı islahatlar kursuna, tarixin ən möhtəşəm Azərbaycanına «HƏ» deyən

# Xalq İlham Əliyevə növbəti etimad mandatı verdi

# Daha güclü Azərbaycan quracağıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib:**



- Əziz həmvətənlər.

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

*AZƏRTAC*

## Möhtəşəm etimad, halal qələbə

*Prezidentliyə namizədlər qalib alternativlərini - İlham Əliyevi böyük seçki zəfəri münasibətilə təbrik etdilər*

**Zahid ORUC:**
*"İlham Əliyevin qələbəsi Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyinə ən böyük töhfədir"*

**Araz ƏLİZADƏ:**
*"Yalnız İlham Əliyev azərbaycançılıq ideyasına sədaqət nümayiş etdirir"*

**Qüdrət HƏSƏNQULİYEV:**
*"Bu seçki daha güclü, demokratik Azərbaycana, Qarabağın azad olunmasına yol açan siyasi xətti dəstəklədi"*

**Razi NURULLAYEV:**
*"İlham Əliyevin qələbəsi böyükdür, ədalətlidir"*

Bax: səh. 2

## İlham Əliyev qalibdir

*Seçki məntəqələrinin 92 faizindən alınmış məlumatlara əsasən namizədlərin topladığı səslər:*

**İlham Əliyev - 86 faiz**
Zahid Oruc - 3,11 faiz
Qüdrət Həsənquliyev - 3,04 faiz
Sərdar Məmmədov - 3,02 faiz
Hafiz Hacıyev - 1,51 faiz
Araz Əlizadə - 1,39 faiz
Fərəc Quliyev - 1,18 faiz
Razi Nurullayev - 0,75 faiz

**"İlkin nəticələrə görə, seçicilərin 86 faizinin səsini qazanan İlham Heydər oğlu Əliyev seçki birincisidir" - bu rəsmi məlumat dünənlə bu günü biri-birinə bağlayan gecənin həyəcanına milyonların sevincini qatdı...**

**Azərbaycan xalqı Prezidentinə olan inamını növbəti dəfə rəsmiləşdirdi, ona qarşıdakı 7 il üçün ümummilli etimadın yeni mandatını verdi!**

### İstiqlalımızın bayraqdarına ümummilli dəstək

Xalqın yüksək fəallığı, mütləq dəstəyi ilə baş tutan Prezident seçkisi artıq tarixə qovuşdu. Və eyni zamanda, tariximizin növbəti şanlı səhifəsinin ilk sətirlərinə, dövlət quruculuğunun yeni inkişaf, nailiyyət salnaməsinin başlanğıcına çevrildi.

Ötən günkü səsvermə sıradan bir siyasi aksiya deyildi. Onun mahiyyətində dövlətin və millətin sabahı ilə bağlı olan əlahiddə məqamlar, ilk addımlarını atdığımız yeni intibah yolunun aydın məramları, ən əsası isə məhz Azərbaycanın özü, taleyi, müstəqilliyi dayanırdı.

Əslində, Azərbaycan vətəndaşı 11 aprel seçkisinə təkcə Prezident seçkisi kimi yanaşmırdı!

Bu, həm də müəyyən mənada ümumxalq referendumu idi!

Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyev missiyasına xalqın növbəti etimad səsverməsi idi!

Eyni zamanda, xalqın öz Prezidentinə və iqtidarına inamını, güvənini bir daha rəsmi şəkildə müəyyənləşdirən seçki idi!

Növbəti islahatlar kursunu bəyan edən və gələcəyə daha çevik, modern, səmərəli idarəçilik modeli ilə addımlayan İlham Əliyevin siyasətinə xalqın güvən səviyyəsini dəqiqləşdirən rəy sorğusu idi!

Bu, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda İlham Əliyevin fəaliyyəti sayəsində normal yaşayış, güzəran quran, daha xoş sabahına əmin olan, özünə və dövlətinə güvənən milyonların öz xilaskarlarına minnətdarlıq, inam aksiyası idi!

Bu, özünü siyasi səhnədə hərdən büruzə verən xaos, böhran kabusuna və onun daşıyıcılarına xalqın sonuncu qətiyyətli "yox"u idi!

❖ ❖ ❖

11 aprel Azərbaycanın yeni tarixinin ən məsuliyyətli seçim anı, xalqın isə müdriklik sınağı idi. Azərbaycan bu seçimdən də, bu sınaqdan da məsuliyyətlə, müdrikliklə, şərəflə çıxdı və dünyanı öz nailiyyətləri ilə heyran qoyan məmləkətin bəşəriyyəti öz bacarığı, qabiliyyəti ilə həmişə heyrətləndirəcək bir millət olduğunu nümayiş etdirdi.

Seçkilərdən iki gün öncə Prezidentin səsləndirdiyi fikirlər - *"Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir. Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Biz düzgün yoldayıq"* - sözləri əslində, İlham Əliyevin 15 illik fəaliyyətinin ümumi icmalı, qısa hesabatı idi.

Və xalq da düzgün yolla irəliləyən liderinə, istiqlalımızın bayraqdarına, tarixin ən möhtəşəm Azərbaycanını yaradan İlham Əliyevə qarşıdakı 7 il üçün xeyir-duasını, dəstəyini verdi...

### İlham Əliyevin Azərbaycanı - güclü, mətin, daim qalib...

İndiki dövrdə bu geniş ümummilli etimadın olduqca böyük əhəmiyyəti var. Çünki Azərbaycan yeni yol ayrıcındadır...

Ətrafımızda fövqəlgüclərin qarşısında müqavimətdən imtina edərək müstəqilliklərindən könüllü imtina edən, yaxud onu nominal simvola çevirən dövlətlərin sayı artır. Kənar müdaxilələr nəticəsində qosqocaman dövlətçiliklərini itirərək vətəndaş müharibəsinə və səfalətə sürüklənən, yaxud qaçqına çevrilən əhalisinin yarısı dənizlərdə batan, yarısı isə Avropa küçələrində Allahın ümidinə buraxılan ölkələrin sırasına daim yeniləri qoşulur. Qeyri-islami qüvvələrin marionetinə çevrilən "islamçı" qruplaşmaların terrorizmi müsəlman dövlətlərini qana boyayır, hər gün yüzlərlə müsəlmanın qətlini artıq adi hadisə kimi qarşılayırıq. Dünya məqsədli şəkildə hazırlanan "qlobal böhran ssenarisi"nə təslim olur, milli iqtisadiyyatlar çökür...

Azərbaycana qarşı da bütün bu planlar tətbiq olunur. Məmləkətimizi də iflas həddinə çatdırmaq, vətəndaş müharibəsinin məngənəsinə salmaq, terrorizm mərkəzinə çevirmək, əhalimizi İran, Rusiya, Avropa çöllərinə miqrant kimi göndərmək kimi məkrli təsirlər dayanmadan üzərimizə gəlir. Amma Afrikadan Asiyayadək böyük bir coğrafi arealda savaş və terror püskürən dalğa Azərbaycan hüdudlarında dirənişlə üzləşir.

Bu yönümdə nələr baş verdiyini hər gün canlı müşahidə edirik. Azərbaycana qarşı beynəlxalq miqyasda qərəzli kampaniyalar, dünya erməniliyinin maliyyələşdirdiyi antiazərbaycançı layihələr və belə rəzilliklərə buyruq qulu olan "beşinci kolon"...Elə son aylarda Azərbaycana yönəlik təxribatların artması da, sosial şəbəkələrdə şərəfsiz "müharibənin" tüğyan etməsi də təsadüfi deyil. Hansı mərkəzlər tərəfindən hazırlandığı və hansı məqsədlərə hesablandığı sirr olmayan bu cəhdlər həmişəki kimi uğursuzluğa məhkum olduğundan antiazərbaycançı şəbəkə ard-arda yeni kampaniyalara start verir.

Hədəfdə Azərbaycandır, dövlətçilikdir, müstəqillikdir və bunların dönməzliyini təmin edən Liderdir!

Amma onların qarşısı İlham Əliyev və onun komandası tərəfindən mərdliklə, qətiyyətlə alınır...

İlham Əliyevin bu "ssenarilərə" - Azərbaycanı İraqa, Suriyaya çevirmək istəyən təsirlərə qarşı təşkil etdiyi güclü müqavimət barədə yenidən bəhs etməyə lüzum yoxdur, bunu bilməyən varmı?

Tarixin ən möhtəşəm Azərbaycanını - məmləkətimizin mövcud nailiyyətlərini yaratmaq, sonra isə onu dörd bir yandan gələn təsirlərdən qorumaq həqiqətən də ən ali liderlik örnəyidir.

Heydər Əliyevin Azərbaycan xalqının milli sərvəti elan etdiyi dövlət müstəqilliyini qorumağı İlham Əliyev özünə şərəf borcu qəbul edib!

Dünənki seçkinin möhtəşəm nəticəsi həm də antiazərbaycançı şəbəkəyə xalqın sərt şilləsidir!

Bu, Azərbaycanın fövqəlgüclər qarşısında mətin mübarizəsinin, müstəqil siyasətinin yeni zəfəridir!

### Möhtəşəm seçki zəfərinə Mehriban Əliyevanın mühüm töhfəsi

Dünən İlham Əliyev seçicilərin maksimum etimadını qazandı. Onu da etiraf edək ki, İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olmasını təmin edən amillərdən biri də onun xeyirxahlıq, himayədarlıq siyasətində əsas yardımçısı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyətidir. "Birinci şəxs-birinci xanım" tandemi Azərbaycanda mərhəmətin və xeyirxahlığın ən ali səviyyəsini, xalqın inam və etimad ünvanını təşkil edir.

Dünənki möhtəşəm seçki zəfərində istisnasız olaraq, Mehriban xanım Əliyevanın da mühüm töhfəsi, əlahiddə iştirakı vardı!

Bu gündən Azərbaycanda dövlət quruculuğunun keyfiyyətcə yeni mərhələsi başlayır. Bu mərhələni də uğurla gedəcəyimizə, Azərbaycanı daha qüdrətli, müstəqilliyimizi daha dönməz edəcəyimizə əsla şübhə yoxdur.

Çünki dövlətimizin təminatçısı, istiqlalımızın bayraqdarı İlham Əliyev artıq dünya gündəminə daha güclü ümummilli dəstəklə, daha böyük etimadla qədəm qoyur!..

**Prezident İlham Əliyevin qazandığı qələbə əslində, hər birimizin qələbəsidir!**

**Bu zəfər bizim qarşıdakı nailiyyətlərimizin müjdəçisi, daha xoşbəxt gələcəyin, güclü və qüdrətli Azərbaycanın rəhnidir!**

**Prezident İlham Əliyev 15 il ərzində Azərbaycana sədaqətlə xidmət etdi və qarşıdakı yeddi ildə ölkəyə rəhbərlik etmək haqqını da halallıqla qazandı!**

**Demək, bu missiyaya, bu siyasətə, bu kursa zaval yoxdur!..**

**Seçimin mübarək, Azərbaycan!..**

*İxtiyar HÜSEYNLİ, "Azərbaycan"*

# Azərbaycan tarixində yeni inkişaf mərhələsi başlayır

## İlham Əliyev və ailə üzvləri prezident seçkilərində səs verdilər






Aprelin 11-i müasir müstəqil Azərbaycanın tarixində növbəti prezident seçkiləri günüdür.

AZƏRTAC xəbər verir ki, səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.









# Möhtəşəm etimad, halal qələbə

## Prezidentliyə namizədlər qalib alternativlərini - İlham Əliyevi böyük seçki zəfəri münasibətilə təbrik etdilər

**Dünən günün sonunda Mərkəzi Seçki Komissiyası Prezident seçkilərinin ilkin nəticələrini elan etdi. İlham Əliyevin seçki zəfərinin rəsmən bəyan olunması ilə paytaxtda və bölgələrdə vətəndaşlar kütləvi tədbirlər təşkil edərək sevinclərini bölüşdülər.**

**Seçkilərin ilkin nəticələri ilə bağlı əməkdaşlarımız Prezidentliyə namizədlərlə də əlaqə saxlayıblar. Onlar dünənədək siyasi rəqibləri, bu gün isə artıq yenidən Prezident seçilmiş İlham Əliyevi qəzetimiz vasitəsilə təbrik etdilər.**






### Zahid ORUC:
### "İlham Əliyevin qələbəsi Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyinə ən böyük töhfədir"

"Möhtərəm cənab Prezidenti 11 aprel 2018-ci il tarixində keçirilən prezident seçkilərində inamlı qələbəsi münasibəti ilə ürəkdən təbrik edir və ali şəxsiyyətinə ən xoş arzularımı bildirirəm" - deyən prezidentliyə namizəd Zahid Orucun fikrincə, səsvermənin nəticələri cənab İlham Əliyevin millətimiz qarşısında göstərdiyi misilsiz xidmətlərin insanlarımız tərəfindən dərin ehtiram və qədirbilənliklə qarşılandığını, milyonlarla vətəndaşımızın xeyir-duasına və inamlı səsinə çevrildiyini bir daha sübut etdi: "Prezidentin ölkəmizin hərtərəfli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi və beynəlxalq nüfuzunun artırılması sahəsindəki çoxşaxəli fəaliyyəti təkcə bir partiyanın, yaxud hakimiyyətin deyil, əqidəsindən asılı olmayaraq, hər bir kəsin maraq və mənafelərinin qorunmasını təmin edir. Ona görə də 11 aprel seçkilərinin nəticələri hamımızın qələbəsidir. Burada məğlub olan yoxdur".

Prezidentliyə namizəd Zahid Oruc xüsusi vurğuladı ki, ulu öndər Heydər Əliyevin siyasi memarlığı və qoruyucu ruhu hər zaman vətənimizin başı üzərindədir. Milyonlarla qardaş və bacılarımız 11 aprel 2018-ci il tarixində bir daha milli liderinin irsinə sədaqətini və dönməzliyini nümayiş etdirdi: "Müasir dünyada mürəkkəb beynəlxalq hadisələrin cərəyan etdiyi bir şəraitdə respublikamızda əmin-amanlıq və vətəndaş sülhü hökm sürür. Cənab Prezidentin rəhbərliyi altında əhalinin sosial rifahının yüksəldilməsinə yönələn hər bir addım iqtisadi inkişafın yeni səhifələrini açır. Eyni zamanda, son illər idarəçilik sistemində daha böyük miqyas alan siyasi və struktur islahatları xalqımıza xidmət yolunda daha böyük əhəmiyyətə malikdir və tarixi dəyişikliklər kimi xarakterizə olunur. Ona görə də insanların inam və etimadı məhz İlham Əliyevin üzərindədir.

Möhtərəm Prezidentin böyük səs çoxluğu ilə qələbə qazanması ondan xəbər verir ki, xalq onun rəhbərliyi altında sabitliyə və təhlükəsizliyə, həyat səviyyəsinin yüksəldilməsinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına dərin inam bəsləyir. Bir sözlə, İlham Əliyevin qələbəsi Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyinə ən böyük töhfədir".

Zahid Oruc sonda Prezident İlham Əliyevə cansağlığı və güclü Azərbaycan naminə yorulmaz fəaliyyətində uğurlar arzuladı: "Liderlik missiyanızda Allah hər zaman yardımçınız olsun!"

### Qüdrət HƏSƏNQULİYEV:
### "Bu seçki daha güclü, demokratik Azərbaycana, Qarabağın azad olunmasına yol açan siyasi xətti dəstəklədi"

"Bu seçki daha güclü, demokratik Azərbaycana, Qarabağın azad olunmasına yol açan siyasi xətti dəstəklədi. İnşallah, biz Qarabağı azad edəcəyik. Daha güclü, demokratik Azərbaycan quracağıq. Xeyirli, uğurlu olsun!"

Prezidentliyə namizəd Qüdrət Həsənquliyev seçkilərin nəticələrinə münasibət bildirərkən belə deyib. Seçkilərin demokratik qaydada keçirildiyini söyləyən prezidentliyə namizəd vurğulayıb ki, Seçki Məcəlləsinin hər hansı normasının pozulması müşahidə olunmayıb.

Q.Həsənquliyev seçkilərdə böyük səs çoxluğu ilə qalib gələn cənab İlham Əliyevi təbrik edib: "Prezident seçkiləri ilə bağlı keçirilən "exit-poll"arın nəticələrindən və Mərkəzi Seçki Komissiyasının açıqladığı ilkin nəticələrdən bəlli olur ki, İlham Əliyev prezident seçkilərində qalib gəlib. Mən cənab İlham Əliyevi təbrik edirəm, ölkəmizdə yaşanan bəzi problemlərin həllində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında ona uğurlar arzulayıram".

Prezidentliyə namizəd ümid edir ki, cənab İlham Əliyev və onun komandası digər namizədlərin seçki marafonu zamanı ölkədəki bəzi problemlərin həllinə dair səsləndirdikləri təklifləri diqqətlə araşdıracaq.

### Araz ƏLİZADƏ:
### "Yalnız İlham Əliyev azərbaycançılıq ideyasına sədaqət nümayiş etdirir"

İlham Əliyevi təbrik edən prezidentliyə namizəd Araz Əlizadə bu qələbəni möhtəşəm və gözlənilən hesab edir: "İlham Əliyevi şəksiz qələbəsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Ona cansağlığı və həmişə xalqına xidmət etməyi arzu edirəm".

Cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasəti nümunəvi siyasət adlandıran Araz Əlizadə vurğulayıb ki, sosial demokratlar bu xarici siyasəti bəyənir və tam müdafiə edirlər: "Çünki Azərbaycan sizin rəhbərliyiniz altında özünə böyük qardaş axtarmır, bərabərhüquqlu dost axtarır".

Prezidentliyə namizədin sözlərinə görə, Azərbaycan Sosial Demokrat Partiyası bu seçkilərə "Azərbaycançılıq dövlətin və xalqın nicatıdır" şüarı ilə qatılıb. Lakin prezidentliyə namizədlərdən yalnız cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin irəli sürdüyü və müdafiə etdiyi azərbaycançılıq ideyasına sədaqət nümayiş etdirir.

"Gün o gün olsun ki, qələbə bayrağımız Şuşada dalğalansın", - deyən Araz Əlizadə cənab Prezidentə fəaliyyətində uğurlar, ailəsinə isə səadət arzulayıb.

### Razi NURULLAYEV:
### "İlham Əliyevin qələbəsi böyükdür, ədalətlidir"

"Səsvermənin nəticələrinə görə hazırkı dövlət başçısı İlham Əliyev qalibdir. İlham Əliyevin qələbəsi böyükdür, ədalətlidir. Mən cənab İlham Əliyevi birincilik münasibətilə təbrik edir, həmçinin Azərbaycanın siyasi və iqtisadi inkişafında yeni səhifə açmasını istəyirəm". Bu fikirləri isə prezidentliyə namizəd Razi Nurullayev söyləyib.

Prezidentliyə namizədin fikrincə, bu gün ölkəmizin hər bir vətəndaşının daha layiqli, daha xöşbəxt yaşaması üçün resurslar var, bunun üçün aparılan siyasi və iqtisadi islahatlar daha da dərinləşdirilməlidir: "Biz 30 illik barışmazlığın, radikallığın ziyanını çəkmişik. Onun üçün də seçdiyimiz yol danışıqlar yolu ilə Azərbaycanda siyasi islahatları dərinləşdirmək, müxalifətin də ölkənin taleyüklü məsələlərində iqtidarla bərabər iştirakına nail olmaqdır", - deyən Razi Nurullayev vurğulayıb ki, hələ seçki kampaniyası zamanı ölkədə siyasi mədəniyyətə söykənən mübarizənin, o cümlədən sivil iqtidar-müxalifət münasibətlərinin tərəfdarı olduğunu bəyan edib: "Biz bu yöndə səylərimizi davam etdirəcəyik. Siyasi partiya olaraq ölkəmizdə təkamül yolu ilə tam demokratik inkişafın tərəfdarıyıq".

Prezidentliyə namizədin sözlərinə görə, seçkiyə qatılarkən müxtəlif proqramlar hazırlayıblar və qeyd ediblər ki, bu layihələri özləri həyata keçirə bilməyəcəkləri təqdirdə, o zaman onu qalib namizədə təqdim edəcəklər: "Əsas məsələ ölkə əhalisinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində proqramların həyata keçirilməsidir. Biz də bu sahədə kömək göstərməyə hazırıq".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İlk təbrik Ərdoğandan gəldi



Prezidentin mətbuat xidmətinin məlumatına görə, aprelin 11-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

## Binəli YILDIRIM: “Azərbaycanın sabitlik, əmin-amanlıq və rifah içində yaşayan ölkə olaraq inkişaf etməsində liderliyinizin rolu böyükdür”

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Əziz Dostum!

Aprelin 11-də Azərbaycanda keçirilən seçkilərdə prezident vəzifəsinə yenidən seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Dost və qardaş Azərbaycan xalqının iradəsini əks etdirən bu seçkilərin şəffaflıq və etimad şəraitində keçirilməsindən məmnunluq duyuruq.

Qardaş Azərbaycanın sabitlik, əmin-amanlıq və rifah içində yaşayan ölkə olaraq inkişaf etməsində liderliyinizin rolu şübhəsiz ki, böyükdür.

Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda dərinləşərək irəliləməsindəki liderlik rolunuzun davam edəcəyinə və qarşılıqlı münasibətlərimizin qardaş xalqlarımızın xeyrinə olaraq daha da yüksək səviyyəyə çatacağına inamım qətidir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləklərimi, qardaş Azərbaycanın rifahı və sabitliyi naminə ən səmimi arzularımı çatdırıram.

*Hörmətlə,*
*Binəli YILDIRIM,*
*Türkiyə Respublikasının Baş naziri*

# Yeni Azərbaycan Partiyasının liderinin qələbəsi bütün xalqın qələbəsidir

**Aprelin 11-də axşam saatlarında Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov prezident seçkilərinin başa çatması münasibətilə mətbuat konfransı keçirdi.**




Seçkilərin baş tutması münasibətilə hər kəsi təbrik edən Əli Əhmədov bildirdi ki, Mərkəzi Seçki Komissiyasının məlumatına görə, seçkilərdə 3,9 milyondan çox seçici iştirak edib ki, bu da Azərbaycan seçicilərinin 74,5 faizini təşkil edir: “Bu o deməkdir ki, Azərbaycanda növbəti prezident seçkiləri baş tutub. Eyni zamanda, bir neçə təşkilat tərəfindən keçirilən “exit-poll”arın nəticələrinə dair məlumatlar açıqlanıb. Bu məlumatların hər birində qeyd olunur ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyev seçicilərin 80 faizindən çoxunun səsini qazanıb. Bu, ondan xəbər verir ki, partiyamızın sədri, fəaliyyətdə olan dövlət başçısı İlham Əliyev bu seçkilərdə inamlı qələbə qazanıb. Yəqin ki, yaxın saatlarda MSK seçkilərin ilkin nəticələrini açıqlayacaq və bu nəticələrlə “exit-poll”arın nəticələrinin arasında böyük fərq olmayacaq”.

Əli Əhmədov bildirdi ki, Azərbaycan xalqı həmişə olduğu kimi, bu dəfə də doğru, müdrik seçim etdi: “Bu seçim cənab İlham Əliyevdir. Azərbaycanın bugünkü inkişafı Prezident İlham Əliyevin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük inkişaf mərhələsi keçib, Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənib, dövlətimiz güclənib, onun qüdrəti artıb, iqtisadiyyatımız bir neçə dəfə yüksəlib, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi güclənib. Eyni zamanda, ordumuz xeyli güclənib. Mən bunu ona görə xüsusi vurğulayıram ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması, torpaqlarımızın hələ də işğal altında qalması Azərbaycanı öz ordusunu gücləndirməyə vadar edir”.

Seçkilərin nəticələrinin ciddi əsaslarının olduğunu söyləyən Əli Əhmədov daha sonra dedi ki, Prezident İlham Əliyevin xidmətlərinin qarşısında Azərbaycan xalqının doğru və müdrik seçim etməsi tamamilə məntiqəuyğundur: “Prezident İlham Əliyev Azərbaycan üçün çox böyük xidmətlər göstərib. Vətəndaşlarımız İlham Əliyevin Azərbaycan üçün, ölkəmizin bundan sonrakı inkişafı və gələcəyi üçün böyük bir şans olduğunu dəyərləndirir və buna görə də öz səsini böyük faizlə İlham Əliyevə verib. Bununla da Azərbaycan vətəndaşları ölkəmizin cənab İlham Əliyevin rəhbərliyi ilə gələcək 7 il ərzində daha böyük inkişafına, Azərbaycandakı sabitliyə, əmin-amanlığa səs verdilər. Hesab edirəm ki, növbəti 7 il Azərbaycanda inkişafın yeni mərhələsi illəri olacaq. Bu illər ərzində Azərbaycanda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi geniş strategiya əsasında iqtisadiyyat daha da güclənəcək, şaxələnəcək, hökumət insanların rifahının daha da yüksəlməsi üçün proqramlar işləyib hazırlayacaq. Eyni zamanda, ölkəmizin dünya birliyinə inteqrasiyası güclənəcək, Avropanın enerji təhlükəsizliyində rolu artacaq və bütövlükdə Azərbaycanın dünya birliyindəki mövqeləri daha da güclənəcəkdir. Qəti əminəm ki, qarşıdakı 7 ilin hər bir ilində inkişaf Azərbaycanı müşayiət edəcək.

Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edən Əli Əhmədov qeyd etdi ki, seçkilərdə Yeni Azərbaycan Partiyasının liderinin qələbəsi bütün xalqımızın qələbəsidir: “Bu, cənab İlham Əliyevin dövlətimizin inkişafı naminə göstərdiyi xidmətlərə Azərbaycan xalqının verdiyi çox layiqli qiymətdir”.

Əli Əhmədov onu da qeyd etdi ki, bu qələbənin əldə olunmasında YAP böyük xidmətlər göstərib, təşviqat kampaniyası çərçivəsində partiya üzvləri ölkənin hər yerində insanlarla çoxsaylı görüşlər keçiriblər. Seçkilərin təbliğat-təşviqat kampaniyasında cənab İlham Əliyevin siyasətinin uğurları ilə bağlı insanlar arasında geniş izahat işləri aparılıb, seçicilərlə keçirilən görüşlərdə qarşıdakı 7 il ərzində görüləcək işlər haqqında məlumatlar verilib: “Hər bir seçicinin diqqətinə çatdırmağa çalışmışıq ki, Azərbaycanın bu günü kimi gələcəyi də İlham Əliyevlə bağlıdır, İlham Əliyevin siyasəti ilə bilavasitə əlaqədardır. Prezident İlham Əliyevin öz xidmətlərinə verilən cavabla yanaşı, eyni zamanda partiyamızın apardığı genişmiqyaslı təbliğat işləri də bizim hər birimizin inamla gözlədiyi böyük və möhtəşəm qələbənin əldə olunmasına böyük töhfə verdi. Beləliklə, Azərbaycan növbəti 7 illik inkişaf mərhələsinə başlayır”.

*Rəşad CƏFƏRLİ,*
*“Azərbaycan”*

# Möhtəşəm zəfərin böyük təntənəsi










**Aprelin 11-də keçirilən prezident seçkiləri Yeni Azərbaycan Partiyasının namizədi, respublikamızın son 15 ildəki bütün uğurlarının müəllifi olan cənab İlham Əliyevin qələbəsi ilə başa çatdı. Bu münasibətlə dünən axşam saatlarından başlayaraq YAP üzvləri və bütövlükdə cənab İlham Əliyevi seçkilərdə dəstəkləyən vətəndaşlar bu möhtəşəm qələbəni böyük coşqu və təntənə ilə qeyd etməyə başladılar.**

























Bakıda bu məqsədlə YAP-ın rayon təşkilatlarının qərargahlarının qarşısına toplaşan insanlar partiyanın mərkəzi qərargahına doğru və Sahil bağında keçiriləcək “İlhamla irəli” bayram konsertində iştirak etmək üçün yürüş hazırlıqlarına başladılar.

Səsvermə başa çatdıqdan sonra YAP Xətai rayon təşkilatının Azərbaycanın və YAP-ın bayraqlarına bürünmüş inzibati binasının qarşısında təşkil olunan şənlikdə böyük izdiham vardı. Cənab İlham Əliyevin və YAP-ın qələbəsini böyük sevinclə qarşılayan minlərlə insan bura toplaşmışdı. Şənlikdə rayon ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Milli Məclisin deputatları da iştirak edirdilər. Tədbir iştirakçıları bir-birindən gözəl musiqi sədaları altında rəqs etdilər, yallı getdilər.

YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov sevincini bizimlə bölüşərək dedi: “Azərbaycan xalqı bu siyasi kampaniyanı uğurla başa vurdu və ən düzgün seçimini etdi. Artıq MSK-nın və “exit-poll”ların ilkin nəticələrinə əsasən, qalib cənab İlham Əliyevdir. İlham Əliyevin qələbəsi bütün xalqımızın, ölkəmizin gələcəyini və inkişafını düşünən hər bir vətəndaşın qələbəsidir. Mən bu münasibətlə partiyamızın bütün üzvlərini və təəssübkeşlərini ürəkdən təbrik edirəm. Möhtərəm İlham Əliyevin qələbəsi göstərir ki, xalqımız ölkədə həyata keçirilən siyasətə alternativ görmür. Bu qələbə bir daha təsdiq edir ki, xalqımız Heydər Əliyev yolunun ən layiqli davamçısı İlham Əliyevin son 15 ildəki fəaliyyətini yüksək qiymətləndirir və əldə olunan nailiyyətlərin davamlı olmasını arzulayır”.

Qərargahın önündə əsl bayram ab-havası hökm sürürdü. İncəsənət ustalarının şən və oynaq ifaları altında hər kəs rəqs edirdi. Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputat Cavanşir Paşazadə də bayram iştirakçıları arasında idi. Seçkilərlə bağlı onun da mövqeyini öyrəndik. Cavanşir Paşazadə dedi: “Xalqımız əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də öz müdrik seçimini etdi. Bu seçim ilk növbədə onu göstərdi ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır. Digər tərəfdən, bu seçim ötən 15 ilin uğurlarına söykənir. Məhz Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan ötən 15 ildə qərinələrə bərabər inkişaf yolu keçib. Bu illərdə ölkəmizin bütün bölgələri sürətli inkişaf yolu keçib, insanların sosial rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Bu dövrdə bütün şəhər və rayonlarımızın siması dəyişib, infrastruktur əhəmiyyətli dərəcədə yenilənib. Ölkəmizin turizm potensialı güclənib. Kənd təsərrüfatı inkişaf etdirilib, ərzaq təhlükəsizliyimiz təmin edilib. Dünyada qısa müddətdə Azərbaycan qədər inkişaf yolu keçən dövlət tapmaq mümkün deyil. Bütün bunlar məhz Prezident İlham Əliyevin xalqımıza layiqli xidmətinin ayrı-ayrı nümunələridir. Bu uğurları xalqımız görür və təbii olaraq davamlı olmasını istəyir. Əminəm ki, qarşıdakı illərdə ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda daha böyük hədəflərə çatacaq”.

Milli Məclisin deputatı Bəxtiyar Əliyev də YAP Xətai rayon təşkilatının inzibati binasının qarşısındadır. Onun sözlərinə görə, cənab İlham Əliyevin növbəti prezidentlik müddəti Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində daha möhtəşəm uğurlarla əlamətdar olacaq: “Prezident İlham Əliyevi insanlara sevdirən cəhətlər dövlətimizin başçısının daim xalqın yanında olması, verdiyi bütün vədləri vaxtından da tez yerinə yetirməsidir. Yaxşı yadımdadır ki, göstərilən vaxtdan da tez bütün çadır şəhərcikləri ləğv edildi. Cənab Prezident mükəmməl iqtisadi konsepsiyası ilə qısa müddətdə ölkəni inkişaf etdirdi. Neft gəlirlərindən düzgün istifadə nəticəsində qeyri-neft sektorunun inkişafı təmin olundu. Ən əsası neft kapitalını “insan kapitalı”na çevirdi. Reallıq ondan ibarətdir ki, ölkə rəhbəri elm və təhsilimizin inkişafı naminə nə mümkündürsə onu da edib.

Yeganə problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Prezident İlham Əliyevin bəyan etdiyi kimi Azərbaycan Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Torpaqlarının azad edilməsi üçün Azərbaycan bütün imkanlardan istifadə edir, o cümlədən ordusunu gücləndirir. Hesab edirəm ki, məhz ordumuzda baş verən keyfiyyət dəyişiklikləri Prezident İlham Əliyevin əsl vətənpərvər dövlət başçısı olmasından xəbər verir. Mən də hamı kimi xalqımızı, YAP üzvlərini və seçicilərimi bu qələbə münasibətilə təbrik edir, gözaydınlığı verirəm. Biz bu qələbənin dövlətin və insanların həyatına təsir edəcək uğurlu nəticələrini növbəti 7 ilin hər ilində müşahidə edəcəyik”.

Daha sonra YAP Xətai rayon təşkilatının önündən avtomobillərlə yürüş başladı. Avtomobil karvanı şəhərin mərkəzi küçələri ilə irəliləyərək YAP-ın mərkəzi qərargahının önünə çatdı. Tədricən buraya Bakının digər rayonlarından gələn avtomobil karvanları da çatdılar. Buradan isə yürüş iştirakçıları əllərində Azərbaycanın və YAP-ın bayraqları ilə Sahil bağında keçirilən “İlhamla irəli” bayram konsertinə doğru irəlilədilər.

Sahil bağında quraşdırılmış böyük monitorlu səhnənin qarşısına qısa müddətdə minlərlə YAP üzvü və təəssübkeşi toplaşdı. Konsertdən əvvəl çıxış edən Yeni Azərbaycan Partiyasının sədr müavini, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə prezident seçkiləri gününü Azərbaycan üçün əlamətdar və tarixi gün adlandırdı. Qeyd olundu ki, bu qələbə Azərbaycan dövlətini və cəmiyyətini intellektin və mənəvi dəyərlərin işığında gələcəyə apara biləcək ən layiqli insanın İlham Əliyev olduğunu sübut edir.

Sonra konsert proqramı başladı. Respublikamızın tanınmış incəsənət xadimləri öz ifaları ilə xalqımızın qələbə sevincini daha da rövnəqləndirdilər.

Mərkəzi Seçki Komissiyası tərəfindən ilkin məlumat açıqlandıqdan sonra Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov çıxış etdi. Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçildiyini bəyan edən Əli Əhmədov dedi: “Qələbən mübarək hörmətli Prezidentim, qələbən mübarək Yeni Azərbaycan Partiyası, qələbən mübarək Azərbaycan xalqı! Bu qələbə İlham Əliyevin möhtəşəm qələbəsidir. Bu qələbə eyni zamanda, bütün Azərbaycan xalqının qələbəsidir. Ona görə ki, İlham Əliyevin Azərbaycanın Prezidenti vəzifəsinə yenidən seçilməsi Azərbaycanın inkişafı, tərəqqisi, yüksəlişi deməkdir. Yenidən Azərbaycandakı sabitliyin, əmin-amanlığın qorunması, saxlanması deməkdir, hər bir Azərbaycan vətəndaşının öz gələcəyinə ümidlə baxması deməkdir. Buna görə də bütün Azərbaycan xalqı bu qələbəni bayram edir. Azərbaycanın hər bir guşəsindəki şənlik bu bayramla, bu qələbə ilə əlaqədardır. Azərbaycan xalqı bu qələbəni qeyd etməyi özünün vəzifəsi və borcu sayır”.

Əli Əhmədovun sözlərinə görə, Azərbaycanın Prezidenti olmaq İlham Əliyevin taleyidir, alın yazısıdır: “Azərbaycanın bu günü və gələcəyi də İlham Əliyevlə bağlıdır. Bu mənada, İlham Əliyev Azərbaycanın şansıdır. Bu, növbəti 7 ildə Azərbaycanın inkişafı demək olacaqdır. 7 ildə 15 il ərzində başlanılmış işlərin davam etdirilməsi, Azərbaycanın nailiyyətlərinin daha da artırılması demək olacaqdır. Hesab edirəm ki, bu qələbənin əldə olunmasında ən əsası Azərbaycan xalqının İlham Əliyevə olan dərin etimadı, inamıdır. Xalq öz rəhbərinə inandı və ona səs verdi”.

Əli Əhmədov qeyd etdi ki, bu qələbənin əldə olunmasında Yeni Azərbaycan Partiyasının üzvlərinin böyük əməyi, zəhməti var: “Hər kəs İlham Əliyevin qələbəsinin gözəlliyini təmin etmək üçün əlindən gələni etdil, öz töhfəsini verdi, fədakarlıq göstərdi. Partiyamızın üzvləri vətəndaşlarımızla görüşlər, mitinqlər keçirdilər, hər bir qapıya gedib insanlarımıza “İlham Əliyev Azərbaycanın, deməli, sənin özünün gələcəyindir” fikrini bir daha aşıladılar. Mən bu fədakarlığa görə sizin hər birinizə minnətdarlıq edirəm. Bu qələbənin gözəlliyini təmin edən Azərbaycan xalqının İlham Əliyevə inamı, Yeni Azərbaycan Partiyasının hər bir üzvünün öz sədrinə olan etimadının, öz sədrinin yolunda fədakarlıq göstərmək istəyinin nəticəsidir. Əziz dostlarımız, biz inamlı, İlhamlı yolla 7 il daha irəliləyəcəyik. 7 il Azərbaycana İlham Əliyevin rəhbərliyi altında fədakarcasına xidmət edəcəyik. 7 il bu millətin güzəranını daha da yaxşılaşdırmaq üçün, bu millətin gücünü, qüdrətini daha da artırmaq üçün hər bir fədakarlığı Prezidentimizin tapşırığı və rəhbərliyi altında edəcəyik. Amma 7 illə iş bitməyəcəkdir, ondan sonra da Azərbaycan xalqı yenə də düzgün, müdrik seçimini edəcəkdir. Heydər Əliyev siyasətinə səs verəcəkdir, Heydər Əliyev siyasətini üstün tutacaqdır, Heydər Əliyev siyasətinə sığınacaqdır.

Əli Əhmədov daha sonra dedi: “Mən bir daha ilk növbədə bu qələbənin sahibini, Prezident İlham Əliyevi hamınızın adından təbrik etmək istəyirəm. Ona möhkəm cansağlığı arzu edirəm. Azərbaycanın inkişafı, rifahı, tərəqqisi naminə yeni-yeni nailiyyətlər diləyirəm. Eyni zamanda bir daha Azərbaycan xalqını təbrik edirəm. Bir daha sizin hər birinizə minnətdarlığımı bildirmək istəyirəm ki, bu yolda böyük fədakarlıq göstərdiniz. Sağ olun, həmişə bir yerdə olun, həmişə Prezidentimizin ətrafında olun, həmişə Heydər Əliyev yolunda olun. Bu yol bizi hər zaman işıqlı sabaha aparacaqdır”.

Bayram konserti tanınmış incəsənət xadimlərinin ifaları ilə davam etdi.

*R.CƏFƏRLİ,*
*“Azərbaycan”*

# Baş nazir Artur Rasi-zadə 29 saylı seçki məntəqəsində səs verib



Aprelin 11-də prezident seçkilərinin başlandığı səhər saatlarından Bakı şəhərinin 16 saylı Yasamal ikinci seçki dairəsinin 29 saylı seçki məntəqəsində canlanma hiss olunurdu.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1385 seçici qeydiyyata alınıb.



# Milli Məclisin Sədri Oqtay Əsədov 22 saylı seçki məntəqəsində səs verib

Prezident seçkilərinin başlandığı səhər saatlarından 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 22 saylı seçki məntəqəsində də fəallıq müşahidə olunurdu.

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1203 seçici qeydiyyata alınıb. Səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

**AZƏRTAC**

*Ramiz MEHDİYEV:*

# "Bu seçkilər tarixdə mühüm hadisə kimi qalacaq"

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev Bakının 29 saylı Səbail seçki dairəsinin 7 saylı seçki məntəqəsində səs verib.

Məntəqədə səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

Jurnalistlərin suallarını cavablandıran akademik Ramiz Mehdiyev seçicilərin fəallığını yüksək dəyərləndirib. Prezident Administrasiyasının rəhbəri saat 17-dək ölkə üzrə artıq 70 faiz seçicinin səs verdiyini, heç bir insidentin baş vermədiyini bildirib.

Akademik Ramiz Mehdiyev seçicilərin sərbəst şəkildə istədikləri namizədə səs verdiklərini vurğulayaraq deyib: "İnanıram ki, bu seçkilər doğrudan da, tarixdə mühüm bir hadisə kimi qalacaq. Çünki Azərbaycan 15 ildə çox irəli gedib, böyük nailiyyətlər əldə edib, dünyada tanınır, öz yerini tutub, iqtisadiyyat sahəsində, sosial məsələlərin həllində çox işlər görülüb. Ona görə də seçicilərin seçkilərdə yüksək səviyyədə iştirakı təbiidir".



Jurnalistlərin bəzi şəxslərin xaricdən Azərbaycana qarayaxma ilə məşğul olmalarına dair sualına cavabında Prezident Administrasiyasının rəhbəri bunu çox pis qiymətləndirdiyini vurğulayaraq deyib: "Mən hesab edirəm ki, normal insan bu yola düşməməlidir. Çünki biri var daxildə müxalifət, biri də var gedib xaricdə Azərbaycana qara yaxmaq, onu hörmətdən salmaq. Bu, yaxşı hal deyil. Təəssüflər olsun ki, bəzi insanlar burada böyük cinayətlər törədib və sonra da qaçıb xaricə gediblər. Xaricdə də başlayıblar Azərbaycanı pisləməyə. Bu, əlbəttə ki, yaxşı hal deyil. Hər halda bu, Azərbaycan xalqına xas olan bir xüsusiyyət deyil. Görünür ki, mədəniyyətləri, tərbiyələri yerində olmadığına görə belə əməllərə əl atırlar".

# İlham Əliyev seçicilərin 86 faizinin səsini qazanıb





**Aprelin 11-də Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı mətbuat konfransı keçirib.**

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov 5641 seçki məntəqəsində prezident seçkiləri ilə əlaqədar səsvermə keçirildiyini bildirib. O deyib ki, seçki məntəqələrinin 92 faizindən çoxundan - 5201-dən səsvermənin nəticələrinə dair məlumatlar Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzinə daxil olub. Həmin məlumatlar araşdırılarkən 3 milyon 712 min 120 səs etibarlı sayılıb. Bu səslər namizədlər arasında aşağıdakı kimi bölünüb:

**Əliyev İlham Heydər oğlu - 3 milyon 192 min 522 səs (86 faiz);**

**Əlizadə Araz Məmməd-Mübariz oğlu - 51 min 738 səs (1,39 faiz);**

**Hacıyev Hafiz Ələmdar oğlu - 56 min 153 səs (1,51 faiz);**

**Həsənquliyev Qüdrət Müzəffər oğlu - 112 min 915 səs (3,04 faiz);**

**Quliyev Fərəc İbrahim oğlu - 43 min 546 səs (1,18 faiz);**

**Məmmədov Sərdar Cəlal oğlu - 112 min 78 səs (3,02 faiz);**

**Nurullayev Razi Qulaməli oğlu - 27 min 706 səs (0,75 faiz);**

**Oruc Zahid Məhərrəm oğlu - 115 min 462 səs (3,11 faiz)**

Beləliklə, etibarlı səslərin 86 faizini qazanan İlham Heydər oğlu Əliyev prezident seçkilərində böyük üstünlüklə liderlik edir.

MSK sədri deyib ki, hələlik çox az məntəqədən məlumatlar alınmayıb. Bunlar əsasən ölkəmizin hüdudlarından kənarda fəaliyyət göstərən məntəqələrdir. Ölkə daxilində bəzi köçkün seçiciləri əhatə edən məntəqələrdən məlumatların seçki dairələrinə çatdırılması ilə bağlı müəyyən problem yarandığına görə həmin məlumatlar gecikir. Səhər saatlarında məntəqələrin 100 faizindən alınan nəticələr ictimaiyyətə çatdırılacaq.

Səsvermənin çox sakit, Azərbaycan seçicilərinin konstitusion hüquqlarını reallaşdırmaq üçün bütün standartlara cavab verən şəraitdə keçirildiyini bildirən Məzahir Pənahov qeyd edib ki, səsvermə zamanı heç bir xoşagəlməz hala yol verilmədi. Bu, Azərbaycan ictimaiyyətinin seçki mədəniyyətinin kifayət qədər yüksək olmasının göstəricisidir. Baxmayaraq ki, seçkilərdə 6 siyasi partiyanın namizədləri, ümumilikdə 8 namizəd mübarizə aparırdı, bütün proseslər qanunvericiliyin tələbinə uyğun həyata keçdi. Məntəqə, dairə seçki komissiyaları öz vəzifələrinin öhdəsindən çox yüksək səviyyədə gəldilər. Gün ərzində təhlükəsizliyin təmin edilməsi baxımından da heç bir problem yaşanmadı. Azərbaycan polisi öz fəaliyyətini Seçki Məcəlləsinin tələbinə uyğun qurduğu üçün bununla bağlı Mərkəzi Seçki Komissiyasına heç bir narazılıq daxil olmadı.

Müvafiq dövlət qurumlarının seçkilərin hazırlanmasında Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlığını qeyd edən Məzahir Pənahov onlara minnətdarlığını bildirib. O, həmçinin deyib ki, həm komissiyalar, həm çoxsaylı müşahidəçilər, həm də namizədlərin səlahiyyətli nümayəndələri qanunvericiliyin tələbinə riayət etdilər. Kütləvi informasiya vasitələri də öz növbəsində gün ərzində ölkənin bütün bölgələrindən seçki prosesi ilə bağlı ətraflı, operativ məlumatlar yaydılar.

Sonra MSK sədri jurnalistlərin suallarını cavablandırıb.

# "Exit-poll"un nəticələri MSK-nın nəticələri ilə üst-üstə düşür

## Bu, prezident seçkilərinin demokratik tələblərə uyğun keçirildiyini göstərir

**Ölkəmizdə daha bir tarixi hadisə yaşandı. Yüksək seçki mədəniyyətinin formalaşdığı Azərbaycanda növbəti prezident seçkiləri demokratik, şəffaf və seçicilərin fəallığı şəraitində baş tutdu. "Exit-poll"ların nəticələri də Mərkəzi Seçki Komissiyasının (MSK) informasiyaları ilə demək olar ki, üst-üstə düşür və bu da bir daha prezident seçkilərinin demokratik tələblərə uyğun keçirildiyini aydın şəkildə nümayiş etdirir.**

Dünyada demokratik idarəetmə sisteminin əsas atributlarından sayılan seçkilərin şəffaflığını təmin etmək, ictimai rəyin sözügedən prosesə münasibətini öyrənmək üçün "exit-poll" adlandırılan tədqiqat növündən istifadə edilir. "Exit-poll" Mərkəzi Seçki Komissiyasının nəticələri rəsmən elan etməsindən əvvəl ilkin nəticələri əldə etmək imkanını yaradır, səsvermənin nəticələrinə ictimai nəzarəti həyata keçirir.



"Exit-poll" Naxçıvan Muxtar Respublikası istisna olmaqla, digər bütün bölgələri əhatə edib.

### "Opinion Way": İlham Əliyev - 86,53 faiz

Vətəndaş Cəmiyyəti uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi Fransanın "Opinion Way" təşkilatı ilə birlikdə prezident seçkilərində keçirdiyi "exit-poll"un ilkin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, İlham Əliyev 86,53 faiz, Qüdrət Həsənquliyev 3,10 faiz, Zahid Oruc 2,92 faiz, Sərdar Cəlaloğlu 2,81 faiz, Hafiz Hacıyev 1,73 faiz, Araz Əlizadə 1,21 faiz, Fərəc Quliyev 1, 03 faiz, Razi Nurullayev isə 0, 67 faiz səs qazanıb.

### "Artur J.Finkelstein and Associates": İlham Əliyev- 85,57 faiz

ABŞ-ın "Artur J.Finkelstein and Associates" (AJF) təşkilatı Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ilə birlikdə Azərbaycandakı prezident seçkilərində keçirdiyi "exit-poll"un nəticəsini açıqlayıb. Təşkilatın rəhbəri Corc Birnbaum deyib ki, nəticələrə əsasən, İlham Əliyev 85,57 faiz, Qüdrət Həsənquliyev 2,96 faiz, Zahid Oruc 2,92 faiz, Sərdar Cəlaloğlu 2,48 faiz, Hafiz Hacıyev 1,76 faiz, Araz Əlizadə 1,42 faiz, Fərəc Quliyev 1,52 faiz, Razi Nurullayev 1,37 faiz səs qazanıb. "Exit-poll" 40 seçki dairəsində 200 seçki məntəqəsində keçirilib.

### "ELS": İlham Əliyev - 82,71 faiz

"ELS" Müstəqil Araşdırmalar Mərkəzinin prezident seçkiləri ilə bağlı apardığı "exit-poll"un nəticələri isə belədir: İlham Əliyev - 82,71 faiz; Qüdrət Həsənquliyev - 4,23 faiz; Sərdar Cəlaloğlu - 3,56 faiz; Zahid Oruc - 3,37 faiz; Hafiz Hacıyev - 2,1 faiz; Araz Əlizadə - 1,87 faiz; Fərəc Quliyev - 1,33 faiz; Razi Nurullayev - 0,92 faiz.

### "Rəy": İlham Əliyev - 84,49 faiz

"Rəy" Monitorinq Mərkəzi Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı "exit-poll"un nəticələrini açıqlayıb. Nəticələrə əsasən, İlham Əliyev 84,49 faiz, Qüdrət Həsənquliyev 3,72 faiz, Zahid Oruc 3,21 faiz, Sərdar Cəlaloğlu 3,04 faiz, Araz Əlizadə 1,65 faiz, Hafiz Hacıyev 1,57 faiz, Fərəc Quliyev 1,46 faiz, Razi Nurullayev 0,86 faiz səs qazanıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası prezidentliyinə namizədlər səs veriblər

Azərbaycan Respublikası prezidentliyinə namizədlər də aprelin 11-də səsvermə hüququndan istifadə ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Sosial-Demokrat Partiyasından olan prezidentliyə namizəd Araz Əlizadə 17 saylı üçüncü Yasamal seçki dairəsinin 23 saylı məntəqəsində səs verib. Jurnalistlərə müsahibə verən A.Əlizadə bildirib ki, səsvermə prosesi şəffaf keçirilib, hər hansı qanun pozuntusu ilə rastlaşmayıb.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasından olan prezidentliyə namizəd Qüdrət Həsənquliyev 29 saylı Səbail seçki dairəsinin 28 saylı seçki məntəqəsində səs verib. Prezidentliyə namizəd seçkilərin gedişatından razı qaldığını bildirib.

Müasir Müsavat Partiyasından prezidentliyə namizəd Hafiz Hacıyev 8 saylı Binəqədi seçki dairəsinin 31 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib. Prezidentliyə namizəd bildirib ki, seçkilərdə yüksək fəallıq müşahidə olunub.

Milli Dirçəliş Hərəkatı Partiyasından prezidentliyə namizəd Fərəc Quliyev 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 25 saylı seçki məntəqəsində səs verib. Fərəc Quliyev jurnalistlərə açıqlamasında səsvermə zamanı bütün seçicilərə bərabər şəraitin yaradılmasının şahidi olduğunu deyib.

Azərbaycan Demokrat Partiyasından olan prezidentliyə namizəd Sərdar Cəlaloğlu isə 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 21 saylı məntəqəsində səs verib. O, seçkilərin xalqımız və dövlətimiz üçün xeyirli olmasını arzulayıb.

Cəbhəçilərin Təşəbbüs Qrupunun prezidentliyə namizədi Razi Nurullayev Binəqədi 1-ci seçki dairəsinin 233 nömrəli orta məktəbdə yerləşən 15 saylı məntəqəsində ailə üzvləri ilə birlikdə səsvermədə iştirak edib. O, səsvermənin gedişində hər hansı bir problemin olmadığını, seçkilərin təşkilindən razılığını bildirib.

Öz təşəbbüsü ilə prezidentliyə namizəd Zahid Oruc da səsvermə hüququndan istifadə edib. O, ailə üzvləri ilə birlikdə 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 18 saylı məntəqəsində səs verib. Zahid Oruc jurnalistlərə açıqlamasında seçki prosesinin ədalətli keçirildiyini bildirib.

# *"Sivil dialoq":* Seçki prosesi qanunauyğun şəkildə keçdi, bütün qaydalara riayət olundu

"Sivil dialoq" beynəlxalq müşahidə missiyasının birinci qrupu Azərbaycanda prezident seçkiləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, İtaliya parlamentinin sabiq üzvü, İtaliya xarici əlaqələr komitəsinin hazırkı üzvü Antonio Radze bildirib ki, bu gün müxtəlif seçki məntəqələrində müşahidə aparılıb və heç bir qanun pozuntusu qeydə alınmayıb.

"Seçki prosesi demokratik və şəffaf olub. Barmaq izinin skan olunması çox innovativ bir sistemdir, bununla heç vaxt rastlaşmamışdım. Bu gün xalqın İlham Əliyevin yüksək səs toplaması ilə əlaqədar bayram etdiyini gördüm. Azərbaycanın gələcəkdə daha da inkişaf etməsini arzu edirəm".

İtaliya parlamentinin üzvü Cakomo Bedze isə bildirib ki, çox yüksək seçici fəallığı müşahidə edib. O, seçki prosesinin mükəmməl təşkil olunduğunu vurğulayıb.

Finlandiya Senatının fəxri üzvü, belçikalı Frank Kriyerman seçkilərin Avropa standartlarına uyğun keçirildiyini bildirib. O deyib: "Bakı İslam və Qərb mədəniyyətinin birləşdiyi məkandır. Məhz "Bakı Prosesi" İslam və Qərb dünyasının bir-birini daha yaxşı anlaması baxımından böyük rola malikdir. İlham Əliyevin bunda rolu çox böyükdür. Güman ki, İlham Əliyev qalib gələcək. Çünki ölkəni dünya standartlarına uyğun formada idarə edir. Azərbaycan xalqına uğurlar arzu edirəm".

Argentina parlamentinin üzvü, Cənubi Amerika Parlamentlərarası Birliyinin vitse-prezidenti Daniel Ramundo Azərbaycanın açıq ölkə olduğunu deyib. Demokratiya bu ölkədə artıq tam bərqərar olub. Demokratik mühitdə keçirilən hər seçki Azərbaycanın Avropa ailəsinin üzvü olmasına doğru atılan bir addımdır".

"Sivil dialoq" beynəlxalq müşahidə missiyasının ikinci qrupu da seçkilərlə bağlı bəyanat yayıb.

Bolqarıstan parlamentinin üzvü, Sosialist Partiyasının təmsilçisi Penço Milkov bildirib ki, Azərbaycanda prezident seçkilərini böyük məmnuniyyətlə izləyib. Seçki prosesi qanunauyğun şəkildə keçdi, bütün qaydalara riayət olundu.

Polşa parlamentinin üzvü Yerji Pişisla deyib ki, Azərbaycandakı seçkiləri Avropa ölkələrindəki seçkilərlə müqayisə etsək, burada bütün prosesin daha sakit formada keçdiyini deyə bilərik.

Almaniya Bundestaqının üzvü Stefan Kuiter Azərbaycanda seçkilərin azad şəkildə, demokratik prinsiplərə uyğun keçirildiyini bildirib.

Yunanıstan parlamentinin üzvü Ioannis Kefalogiannis də seçkilərin şəffaf və beynəlxalq normalara uyğun keçirildiyini vurğulayıb.

# Seçicilər "exit-poll"un sorğularında fəallıq nümayiş etdirdilər





**Dünən ölkə üzrə 5641 seçki məntəqəsində səsvermə prosesi keçirildi və bu prosesi 59 minə yaxın yerli, 894 beynəlxalq müşahidəçi izlədi. Dörd təşkilat isə seçkilərdə "exit-poll" keçirdi.**

Ümumiyyətlə, "exit-poll" seçkilərin keçirilməsi zamanı şəffaflığın və ədalətliliyin təmin olunması baxımından əhəmiyyətli tədqiqat növü hesab olunur. Dünyanın demək olar ki, bütün sivil ölkələrində bu tədqiqat növündən geniş istifadə edilir və vətəndaş cəmiyyəti sektorunun bu prosesə cəlb edilməsi seçkinin ədalətli nəticələri, bu nəticələrin qəbul edilməsi üçün çox böyük əhəmiyyət daşıyır.

"Exit-poll" kimin qalib gəldiyini operativ və obyektiv şəkildə müəyyənləşdirməyə və bununla da seçki kampaniyasına nəzarət etməyə imkan verir. Azərbaycanda ilk dəfə "exit-poll" 2004-cü ilin dekabrında bələdiyyə seçkilərində həyata keçirilib. Bu iş sonradan 2005-ci və 2010-cu illərdə parlament, 2008-ci və 2013-cü il prezident seçkilərində, habelə 2009-cu il və 2016-cı il keçirilmiş referendumlarda daha da təkmilləşdirilib.

Prezident seçkilərində 4 təşkilatın - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ("AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə), "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ("Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutu (Fransa) ilə birgə), "ELS" Müstəqil Araşdırmalar Mərkəzi və "Rəy" Monitorinq Mərkəzinin keçirdiyi "exit-poll"arın nəticələri də demək olar ki, MSK-nın nəticələri ilə üst-üstə düşdü.

Gün ərzində Səbail rayonunda yerləşən müxtəlif seçki məntəqələri qarşısında həyata keçirilən "exit-poll" proseslərini müşahidə etdik. Seçicilər könüllü şəkildə bu prosesdə də fəal iştirak edirdilər. "Exit-poll" aparan "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin nümayəndəsi Anar Bəydəmirov bildirdi ki, əvvəlki seçki proseslərində məntəqədən çıxan seçicilər əksər hallarda onlara yaxınlaşmırdılar. Ancaq indi vətəndaşlar "exit-poll"da fəal və mütəşəkkil iştirak edirlər. Çünki artıq seçicilər bilirlər ki, bu prosesdə şəffaflıq, seçicilərin hüquqları və məxfilik tam təmin olunub.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının ("AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə) nümayəndəsi Orxan Allahverdiyev öz vətəndaşlıq borcunu yerinə yetirən hər kəsə mehribanlıqla yanaşır, "exit-poll"un sorğu vərəqəsini doldurmağı, beləliklə, məntəqədə gəldikləri qənaəti bir daha təsdiqləməyi xahiş edirdi.

Müşahidələrimiz zamanı seçici Ayan Məmmədova "exit-poll" təmsilçisinin təklifini böyük məmnunluqla qəbul etdi. Seçkilərin şəffaf və demokratik keçirilməsində "exit-poll"un rolunu yüksək qiymətləndirən A.Məmmədova dedi ki, bu cür rəy sorğusu respondentlərin fikirlərinə hörmətin bariz ifadəsidir və seçicilərin öz mövqeyini rahat, qəti şəkildə bildirməsinə əla şərait yaradır. Eyni zamanda, Azərbaycanda seçki proseduru çox yaxşı vəziyyətdədir. Seçicinin səsverməsi üçün heç bir çətinlik yoxdur, onlar heç bir problemlə qarşılaşmadan səsvermədə iştirak edirlər. Seçkilərin tam şəffaf keçirilməsi üçün bütün şərait yaradılıb.

Beləliklə, dünən "exit-poll" prosesini həyata keçirən təşkilatların fəaliyyəti, seçicilərin bu prosesdə fəal iştirakı onu deməyə əsas verir ki, Azərbaycan seçiciləri bu prosesə alışır və cəmiyyətdə gedən demokratik islahatların uğurlu nəticələr verəcəyinə dərindən inanırlar.

*Səbinə MƏMMƏDOVA,*
*"Azərbaycan"*

# Azad səsverməyə şəffaf nəzarət

**Bundan əvvəlki seçkilərdən uğurla çıxan Mərkəzi Seçki Komissiyasının (MSK) Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin qarşısında bu dəfə növbəti məsuliyyətli proses - prezident seçkiləri dayanırdı. Seçkilərdə tətbiq olunan yeniliklər və digər məsələlər barədə məlumat öyrənmək üçün İnformasiya Mərkəzində olduq.**




Mərkəzi Seçki Komissiyasında olarkən MSK Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin rəhbəri Fərid Orucov saat 10:00-dək olan seçici fəallığını açıqlayırdı. Qeyd etdi ki, həmin vaxta qədər 994 min 196 nəfər, yəni, 18,71 faiz seçici səs verib. MSK Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin konfrans zalında quraşdırılan monitor Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminə qoşulmaqla səsvermənin gedişi və nəticələri haqqında məlumatları vaxtaşırı çatdırırdı.

Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin 3 sentyabr 2000-ci il tarixli "Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin yaradılması haqqında" sərəncamına əsasən, ölkəmizdə seçki sisteminin təkmilləşdirilməsi, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulması və seçki prosesində aşkarlığın, şəffaflığın təmin olunması məqsədilə Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sistemi yaradılıb. Sərəncamın 2-ci bəndində isə Mərkəzi Seçki Komissiyasına təklif edilib ki, sistemin fəaliyyətini təşkil etmək üçün öz nəzdində İnformasiya Mərkəzi yaratsın. 2000-ci il noyabrın 2-də Seçkilər İnformasiya Mərkəzinin rəsmi açılışı oldu.



Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) funksiyalarını Seçki Məcəlləsinə uyğun olaraq MSK müəyyənləşdirir. DAİS-in texniki baxımdan iş icraçılığını isə MSK Katibliyinin İnformasiya Mərkəzi yerinə yetirir. Seçki dövrü olmadığı müddətlərdə də mərkəz fəaliyyət göstərir. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, hər il seçici siyahıları tərtib olunur. Bu siyahılar tərtib edilərkən Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemindən istifadə edilir. Seçkilərlə bağlı bütün məlumatlar Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzində toplanılır, təhlil olunur və ictimailəşdirilir.

Mərkəzdə seçki prosesini izləmək üçün jurnalistlər üçün də hər cür şəraitin yaradıldığının şahidi olduq. Eyni anda 60-dan çox jurnalist seçkilərin nəticələrini, eləcə də dairə, məntəqə seçki komissiyalarının işi, seçici sayı və s. barədə istənilən məlumatı onlayn şəkildə öyrənə bilərlər. Bunun üçün informasiya zalında internetə çıxışı olan xüsusi kompüterlər və böyük ölçülü monitor quraşdırılıb. Seçkinin nəticələri və digər zəruri məlumatlar anbaan həmin monitorda onlayn şəkildə əks etdirilir.

Seçki günü beş dəfə - saat 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da ictimaiyyətə məlumat verilirdi. İlk olaraq seçici fəallığı barədə məlumatlar seçki dairələri tərəfindən onlayn rejimdə sistemə daxil edilirdi. Hesabat saatı başa çatdığı andan saniyələr ərzində məlumatlar tərtib olunaraq hesabat saatına uyğun olaraq ictimaiyyətə ötürülürdü. O cümlədən, seçkilər başa çatdıqdan və protokolların ilkin variantları təsdiq olunduqdan sonra məlumatlar elektron formada sistemə daxil edilir və sistem vasitəsilə ümumiləşdirilərək ilkin nəticələr ictimaiyyətə çatdırılırdı.

MSK Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin rəhbəri Fərid Orucov hesabat saatlarında seçici fəallığı barədə statistikanı açıqladı.

Məlumat üçün bildirək ki, ölkə üzrə 1000 seçki məntəqəsində təchiz olunan veb-kameralar vasitəsilə hər bir kəs Mərkəzi Seçki Komissiyasının, İnformasiya Mərkəzinin və "Elektron-hökumət" portalının internet saytlarına daxil olmaqla istədikləri seçki məntəqəsində seçkiləri canlı şəkildə izləyə bilirdi. Hər üç sayta elektron xəritələr də əlavə olunmuşdu. Səs verənlər elektron xəritə vasitəsilə seçki dairə və məntəqələrinin yerini, ünvanını müəyyənləşdirə, hətta oraya necə getmək marşrutunu, məsafəni öyrənə bilirdilər. Bundan başqa, mobil qurğular vasitəsilə də hər üç saytda olan informasiyaları əldə etmək və elektron xidmətlərdən istifadə etmək olurdu. Bu da imkan verirdi ki, seçici istənilən nöqtədən MSK-nın müvafiq məlumatları ilə tanış olsun və ya öz məlumatlarını çatdıra bilsin.

***Elçin CƏFƏROV,***
***Fərman BAĞIROV (foto)***
***"Azərbaycan"***

# "Veb-kamera"lar sınaqdan bu dəfə də uğurla çıxdı










**Azərbaycan seçkilər zamanı müxtəlif aşkarlıq institutlarının, yerli və beynəlxalq müşahidəçilərin, həmçinin kütləvi informasiya vasitələri nümayəndələrinin sərbəst fəaliyyət göstərməsi üçün yaradılan geniş və hərtərəfli imkanlar baxımından nümunədir. Təsadüfi deyil ki, indiyədək ölkəmizdə keçirilən bütün seçkilər və referendumlar zamanı aşkarlığın daha çox təmin edilməsi üçün hər bir şərait yaradılıb.**

Seçkilər zamanı şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyalarının tətbiqi də mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə keçirilən seçkilər şəffaflığın beynəlxalq standartlara uyğun, yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarından da geniş istifadə olunur ki, bu da prosesləri əvvəldən axıradək fasiləsiz izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa, beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Bu mənada ilk dəfə 2008-ci ildə prezident seçkiləri zamanı səsvermə məntəqələrinə quraşdırılan veb-kameralar ölkəmizdə seçkilərin şəffaflığının daha dolğun təmin edilməsi istiqamətində aparılan işlərin mühüm tərkib hissəsidir. Sonralar bütün seçkilərdə və referendumlarda veb-kameralar sınaqdan uğurla çıxıb.

Ölkəmizin həyatında mühüm siyasi hadisə olan prezident seçkilərinin hazırlanıb keçirilməsində də şəffaflıq ən mühüm prinsiplərdən biri idi. Odur ki, əvvəllər seçkilərdə uğurla tətbiq olunan və seçki məntəqələrinə fiziki baş çəkmədən, internet üzərindən səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu dəfə də davam etdirildi. Belə ki, səsvermə günü seçki məntəqələrində proseslərin bütünlüklə izlənilməsi məqsədilə ölkəmizin coğrafiyasını əhatə edən 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində (təqribən 20 faiz) veb-kamera quraşdırılmışdı. Dünən internet istifadəçiləri həm ölkə daxilindən, həm də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arası kəsilmədən birbaşa müşahidə etmək imkanına malik oldular. Veb-kameralar stasionar qaydada quraşdırılmışdı və onlar hərəkət etmədiyi üçün yalnız yönəldiyi istiqaməti izləmək mümkün idi. Əlbəttə, onların hərəkətinə ehtiyac da yox idi. Çünki yönəldikləri istiqamətdə səsvermə məntəqəsində baş verən bütün prosesləri izləmək olurdu.

Ən çox veb-kamera 48 saylı Yevlax və 113 saylı Şəki şəhər seçki dairələrinin payına düşür. Belə ki, bu seçki dairələrinin hər birinin 15 səsvermə məntəqəsində veb-kamera quraşdırılıb. Veb-kameralar yalnız Ermənistan tərəfindən işğal edilmiş rayonlarımızı əhatə edən 120 saylı Cəbrayıl-Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd və 125 saylı Zəngilan-Qubadlı seçki dairələri üzrə quraşdırılmamışdı.

Dünyanın əksər inkişaf etmiş ölkələrində belə seçki prosesinin bu cür şəffaflığına rast gəlmək mümkün deyil. Lakin 2008-ci ildən tətbiq olunduğu üçün veb-kameralardan istifadə Azərbaycanın seçki praktikası üçün artıq yenilik sayılmır. Bununla belə, veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün kameraların quraşdırılması, tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Veb-kameralarla əldə edilən videogörüntülər mərkəzləşdirilmiş qaydada yazılır və onlardan şikayətlərin araşdırılması zamanı sübut kimi istifadə edilə bilər.

Azərbaycanda səsvermənin gedişini birbaşa internetdən izləmək üçün tətbiq olunan bu metod - seçki məntəqələrində veb-kameraların quraşdırılması xarici ekspertlər tərəfindən çox yüksək qiymətləndirilir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ən yaşlı seçicilər



**Dünən seçicilər arasında ölkəmizin ən qocaman sakinləri də vardı. Onlar öz vətəndaşlıq borclarını yerinə yetirməkdən qürur duyurdular.**

Bərdədə üç əsrin şahidi olan Səmərqə nənə səs verdi. 124 yaşlı Səmərqə Allahverdiyeva 94 saylı Bərdə kənd seçki dairəsinin Xəsili kənd tam orta məktəbində yerləşən 30 saylı seçki məntəqəsində səsvermədə iştirak etdi. O, buraya nəvə-nəticələri ilə birlikdə gəlmişdi. Yeri gəlmişkən, Səmərqə Allahverdiyevanın 7 övladı, 30 nəvəsi, 60 nəticəsi, 9 kötükcəsi var. İstər sovet dönəmində, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra həmişə seçkilərdə fəal iştirak edib. Cavanlıqda əmək meydanında fərqlənən, pambıq becərən, hətta traktorun sükanı arxasına keçən bu xanım yaşının indiki vaxtında da fəal həyat mövqeyindədir. Deyir ki, nə qədər ayağım yer tutur, həmişə səsvermələrdə iştirak edəcəyəm.



Dünən Biləsuvar rayonunun ən yaşlı sakini - 118 yaşlı Səftər Həsən oğlu Qurbanov da səs verdi. O, rayonun Nərimankənd kəndində yaşayır. 66 saylı Biləsuvar dairə seçki komissiyasının 23 saylı Nərimankənd məntəqəsinin üzvləri ağsaqqala əziyyət vermək istəməmiş, daşınan qutunu onun evinə aparmışlar. Səftər kişi böyük sevinclə bülleteni götürərək inandığı, ehtiram bəslədiyi namizədə, İlham Əliyevə səs vermişdir. Bildirmişdir ki, ömrü boyu zəhmətlə məşğul olmuş, övladlarını halal çörəklə böyütmüş və heç vaxt haqqı nahaqqa verməmişdir. Səftər baba səs verdiyi namizədin xalqın böyük etimadına layiq olduğunu söyləmişdir.

***"Azərbaycan"***

## Sən qalibsən, həm də haqsan...



Seçkilər də bir sınaqdır.
Biz səs verdik, dünya baxdı.
Səs verməyə xalqın axdı.
El yanında üzün ağdır.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Xalqımızın üzü gülür,
Yollarına gül tökülür,
Gecəmiz gündüz kimidir,
Çıraqlardan dan sökülür,
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Əlvan geymiş düzüm-dağım.
Cocuq Mərcanlı gül bağım.
Sənə verdiyimiz səsdir
Lələtəpədə bayrağım.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Özün bəlli, sözün bəlli,
Saf niyyətli, xoş əməlli,
İnam verdin xalqımıza
Cənnət qurur insan əli.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Əkər, biçər, yarışarıq,
Ev tikərik, söz qoşarıq,
Yol salarıq, dağ aşarıq,
Əmrə hazır, vuruşarıq.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Sən qalibsən, həm də haqsan,
Sən bu günsən, həm sabahsan.
Xalqın sənin yanındadır,
Daim zəfər çalacaqsan!
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Sən Lidersən, budur gerçək.
Əkdiklərin açır çiçək.
Biz arzuya çatacağıq
Yaxındadır o gələcək.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.

Dağ oylağım, yay yaylağım,
Sinəmdə var çarpaz dağım.
Qalıb gözləyə-gözləyə
Gözü yolda Qarabağım.
Ey Ali Baş Komandanım,
Əmr et, cənab Komandanım.
Vətənə qurbandır canım!

*Fikrət QOCA*
*11 aprel 2018*

# Cocuq mərcanlılılar Xilaskara səs verdilər

## Böyük Qayıdışın ilk ünvanında müstəqillik dövrünün ilk seçkisi keçirildi

**Azərbaycan əsgərinin qəhrəmanlığı ilə yazılmış şanlı tarixdən- aprel döyüşlərindən iki il keçir. Qarabağa böyük qayıdışın anonsunu verən aprel döyüşləri milli ordumuzun yenilməz qüdrətini bütün dünyaya nümayiş etdirdi, xalqımızın Qarabağın erməni işğalından tezliklə azad olunacağına inamını daha da artırdı.**



Uğurlu aprel döyüşlərinin nəticəsi olaraq düşmən nəzarətindən azad edilmiş bir məkanda - Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindəyik. Erməni faşistlərinin yandırıb viran qoyduğu xarabalıqlar üzərində qüdrətli dövlətimizin qayğısı ilə ötən iki il ərzində müasir qəsəbə salınmışdır. Bu gün Cocuq Mərcanlı rahat asfalt yolları, yeni inşa olunmuş, yaraşıqlı evləri, məktəbi, məscidi, klubu, yeni ünvan tapmış digər sosial obyektləri ilə üzə gülür.




Çiçək ətirli bu yaz səhərində Cocuq Mərcanlı kəndinin sakinləri seçki məntəqəsinə axışır, prezident seçkilərində fəal iştirak etməyə tələsirlər. Onlardan biri ilə həmsöhbət oluruq. Oqtay Həziyev sevincini, yüksək əhval-ruhiyyəsini bizimlə həvəslə bölüşür:

- Bu gün biz çox fərəhliyik. Son 25 ildə ilk dəfədir ki, kəndimizdə seçki keçirilir. Biz bu günü çoxdan gözləyirdik. Doğma yurduna qovuşan camaatımızın sevinci hədsizdir. Prezident seçkilərində bizim seçimimiz seçkisiz də məlumdur. Müdrik siyasəti, yenilməz iradəsi ilə bizi Cocuq Mərcanlıya, Cocuq Mərcanlını isə bizə qaytaran siyasi liderə - Xilaskarımıza səs verəcəyik. Camaatımızın yekdil fikri belədir.

73 saylı seçki məntəqəsi yeni inşa olunmuş klubda yerləşir. Burada istədikləri namizədə səs vermələri üçün normal şərait yaradılmışdır. Məntəqə seçki komissiyasının sədri Zamin Həziyev deyir ki, seçici siyahısında 121 nəfər kənd sakininin adı var. Səhərin ilk saatlarında artıq seçicilərin yarıdan çoxu səsvermədə iştirak etmişdir.

Cocuq Mərcanlıda seçki prosesindən aldığımız xoş təəssüratlarla geri dönürük. 120 saylı Cəbrayıl-Qubadlı dairə seçki komissiyasının sədri Musa Quliyevlə görüşüb bəzi məlumatlar aldıq. Komissiya sədri bildirdi ki, Cəbrayıl rayonunun əhalisi məcburi köçkün kimi müxtəlif bölgələrdə məskunlaşdığı üçün respublikanın ayrı-ayrı rayonlarında 73 seçki məntəqəsi yaradılmış, seçici siyahılarına 49.788 nəfərin adı daxil edilmişdir. Seçkilərdə 1115 nəfər ilk dəfə səs verəcəkdir. Seçkilərin gedişini 750 nəfərdən çox müşahidəçi izləyir. Dairə seçki komissiyasına qanun pozuntusu ilə bağlı hər hansı bir şikayət daxil olmamışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

*Beynəlxalq müşahidəçilərin rəyi:*

# «Azərbaycanda prezident seçkiləri azad, ədalətli və şəffaf keçirildi»

*Dünən Azərbaycanda keçirilən prezident seçkilərinə beynəlxalq təşkilatların marağı böyük idi. 59 ölkəni təmsil edən 60 təşkilatdan 890 müşahidəçi seçki prosesini izləmək üçün ölkəmizə gəlmişdi. Gün ərzində görüşdüyümüz və fikrini öyrəndiyimiz beynəlxalq müşahidəçilər seçkilərin qüsursuz keçirildiyini, heç bir qanun pozuntusuna yol verilmədiyini, neqativ hadisə ilə rastlaşmadıqlarını və hər addımda peşəkarlığın şahidi olduqlarını bildirdilər. Vurğulandı ki, Azərbaycan dövlətinin ölkədə demokratik seçkilərin keçirilməsinə mühüm önəm verməsi və bu istiqamətdə beynəlxalq təşkilatlarla əməkdaşlığını davam etdirməsi də müsbət prizmadan ayrıca qeyd olunan məqamlar sırasında yer alır.*

*Onlardan bəzilərinin qəzetimizə, həmçinin "AZƏRTAC", "Trend", "Report", APA, agentliklərinə verdikləri açıqlamaları diqqətinizə çatdırırıq:*

## İnsanlar səsverməyə xoş əhval-ruhiyyə ilə gəlirlər



**İlyas UMAXANOV,**
***Rusiya Federasiya Şurasının sədr müavini:***

- Biz MDB PA-dan beynəlxalq müşahidəçilər olaraq Mərkəzi Seçki Komissiyasının çox dəqiq və sistemli işini görürük. Mən Azərbaycanda prezident seçkilərini artıq 4-cü dəfədir müşahidə edirəm. Həm təşkilatçılıq, həm də əhval-ruhiyyə seçkidən-seçkiyə yaxşılaşır, seçki qanunvericiliyi mükəmməlləşir. Bu islahat daha şəffaf, daha demokratik, cəmiyyətin bütün təbəqələrinin ümumi maraqlarına xidmət istiqamətində gedir. Qafqazda qəbul olunub ki, insanlar sözə deyil, əmələ güvənirlər. İnsanlar səsverməyə xoş əhval-ruhiyyə, gələcəyə inamla, ölkələrini sabit, rifah, sülh şəraitində görmək ümidi ilə gəlirlər. Əminik ki, Azərbaycan xalqı düzgün seçim edəcək.

## Ədalətli və səmərəli səsvermə keçirilir



**Deyvid KEMBL,**
***Avropa Parlamentinin üzvü:***

- Səsvermə ədalətli və səmərəli keçir. Prosedurlar düzgün şəkildə yerinə yetirilir. İndiyə qədər bir neçə seçki məntəqəsində müşahidə apardım. Seçicilərin yoxlanış prosedurlarından çox təsirləndim. Bu cür təhlükəsizliyə xidmət edən prosedurlar iki dəfə səs verməyin qarşısını alır. Birləşmiş Krallıqda keçirilən bəzi seçkilərdə seçicilər şəxsiyyət vəsiqələrini göstərmirlər. Təhlükəsizlik baxımından burada vəziyyət daha yaxşıdır. Düşünürəm ki, təhlükəsizlik məsələlərinə Azərbaycanda daha ciddi əhəmiyyət verilir. Bizim getdiyimiz sonuncu seçki məntəqəsi çox qaynar idi. Həmin məntəqədə 1300 nəfər səs vermişdi. Bu göstərici bir seçki məntəqəsi üçün kifayət qədər qənaətbəxşdir. Seçki məntəqəsində seçicilər uzun sıralar yaratmışdılar ki, bu da çox təsirlidir.

## Məntəqələrdə heç bir insident qeydə alınmayıb



**Miloş ALİQRUDİÇ,**
***Serbiyalı müşahidəçi:***

- Ümumi dəyərləndirmə etmək üçün çox tezdir. Amma deyə bilərəm ki, təxminən 9 -10 seçki məntəqəsində olmuşuq, proseslər çox yaxşı gedir, insanlar çox mehribandırlar və onlar Seçki Məcəlləsinin maddələrinə açıq şəkildə əməl edirlər.

Seçicilər öz hüquqlarından xəbərdardırlar. Ümid edirəm ki, onlar bu hüquqlardan yaxşı mənada istifadə edirlər. Getdiyimiz seçki məntəqələrində bir çox xarici müşahidəçi var idi. Bu mənim ilkin təəssüratlarımdır. Gördüyümüz seçki məntəqələrində heç bir insident qeydə alınmayıb.

## Seçkilərdə etibarlılıq, gizlilik qorunur



**Daniel HERİŞKOVİÇ,**
***İsraildən olan müşahidəçi:***

- Azərbaycanda səsvermə prosesi çox yaxşı təşkil edilib. Seçkilərdə etibarlılıq, gizlilik qorunur. Bütün proses şəffaf təşkil edilib və bu məni razı salır.

## Heç bir pozuntuya rast gəlməmişik



**Alen FİSİNİ,**
***Avropa Parlamentinin üzvü:***

- İndiyə kimi heç bir pozuntuya rast gəlməmişik. Hər hansı təzyiq və ya kənar təsirlərin şahidi olmamışıq. Üç seçki məntəqəsində olduq. barmaq izi, görünməz boyanın istifadəsi kimi prosedurlarla tanış olub, lazımi qeydləri apardıq. Müşahidəmizə davam edirik. Hər hansı qayda pozuntusu, yaxud kənar təsir olarsa, təbii ki, onu qeydə alacağıq. Axşama qədər müşahidə aparacaq və bağlanış mərasimində də iştirak edəcəyik.

## Seçicilər səsvermədə yüksək əhval-ruhiyyə ilə iştirak edirlər



**Yevgeni RYAQUZOV,**
***MDB-nin müşahidə missiyasının nümayəndəsi:***

- Prezident seçkilərində seçici fəallığı var. Seçicilər səsvermədə yüksək əhval-ruhiyyə ilə iştirak edirlər. Olduğumuz məntəqələrdə seçkilərin azad, şəffaf və demokratik keçirilməsi, hər kəsin öz seçimini azad ifadə etməsi üçün lazımi şərait yaradılıb. Səsvermənin gedişini yerli müşahidəçilərlə bərabər, beynəlxalq müşahidəçilər də izləyirlər. İndiyədək məntəqələrdə hər hansı bir qanun pozuntusu ilə qarşılaşmamışıq.

## Seçkilərə hazırlıq yüksək səviyyədədir



**Barbara HİLLAS:**
***ATƏT-in ABŞ-dan olan müşahidəçisi:***

- Azərbaycanda seçki proseduru çox yaxşı vəziyyətdədir. Hətta seçici siyahısını tapmaq da çox asandır. Seçicinin səsverməsi üçün heç bir çətinlik yoxdur. Bütün bunlar ümumi hazırlıq mərhələsinin yüksək səviyyədə olduğunu göstərir. Seçicilər heç bir problemlə qarşılaşmadan səsvermədə iştirak edirlər.

Azərbaycana ilk dəfədir gəlirəm. ATƏT-in müşahidə missiyasının tərkibində olmağımdan şərəf duyuram.

## Dünya standartlarına uyğun və şəffaf seçkilər keçirilir



**Mahmud Erol KILIÇ,**
***İƏT-in Parlament İttifaqının baş katibi:***

- Azərbaycanda prezident seçkiləri dünya standartlarına uyğun və şəffaf keçirilir.

Hazırda dünyada bəlli bir seçki sistemi var ki, Azərbaycanda da bu sistem tətbiq olunur. İştirak etdiyimiz bütün məntəqələrdə seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsinin şahidi olduq. Seçkilərin Azərbaycan xalqına sevinc və ümid gətirəcəyinə inanırıq. Heç şübhəsiz ki, Azərbaycan xalqı ən doğru və ən düzgün seçimi edəcək.

## Qanun pozuntusu müşahidə edilməyib



**Yelena STROKOVA,**
***Rusiya Dövlət Dumasının deputatı:***

- Biz artıq üç məntəqədə olmuşuq, seçki komissiyalarının üzvləri ilə söhbət etmişik. Bu məntəqələrin heç birində hər hansı qayda pozuntusu müşahidə edilməyib. Prezident seçkiləri yüksək səviyyədə təşkil olunub.

Azərbaycanda prezident seçkiləri seçicilərin yüksək fəallığı ilə keçir.

## Gənclərin səsvermədə fəallığı sevindirici haldır



**Hamid HAMİD,**
***bolqarıstanlı deputat:***

- Müşahidə apardığım seçki məntəqələrində vətəndaşların şəffaf, sərbəst şəkildə səs vermələri üçün yaxşı şərait yaradılıb. Heç bir qanun pozuntusuna rast gəlmədim. Ümid edirəm ki, belə də davam edəcək.

İnsanlar fəal şəkildə, yüksək əhval-ruhiyyə ilə səsvermədə iştirak edirlər. Gənclərin fəallığını xüsusi qeyd etmək istəyirəm. Bu, çox sevindirici haldır. Gənclərin dövlət idarəçiliyində, qərar qəbul etmədə iştirakı çox əhəmiyyətlidir.

Üçüncü dəfədir ki, Azərbaycanda seçkiləri izləyirəm. Azərbaycan xalqının daha yaxşı günləri irəlidədir.

## Seçkilər mütəşəkkil, demokratik şəraitdə keçirildi



**Yanus MARRANDİ,**
***Estoniya Parlamentinin deputatı:***

- Artıq bir neçə seçki məntəqəsinə baş çəkmişik. Müşahidələrimiz onu deməyə əsas verir ki, Azərbaycan seçkilərə çox yaxşı hazırlaşıb. Seçkilər mütəşəkkil, demokratik və şəffaf şəraitdə keçirilir. Müşahidələr zamanı heç bir anlaşılmazlıq və ya pozuntu qeydə alınmayıb. Bir çox məntəqələrdə veb-kameraların quraşdırılması isə Azərbaycanda demokratik, azad seçkilərin beynəlxalq normalara uyğun olduğunu göstərir. Seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə inanıram.

## Azərbaycan vətəndaşları düzgün seçim edəcəklər



**Maksim KURYAÇİ,**
***Ukrayna Ali Radasının keçmiş üzvü:***

- Azərbaycanda mövcud seçki qanunvericiliyinə müvafiq olaraq, seçkilərin demokratik keçirilməsi üçün hər bir şərait yaradılıb. Biz Azərbaycan prezidenti seçkiləri prosesini diqqətlə izləyirik. Seçkilər ərəfəsində xeyli insanla görüşüb söhbət etmişik. Bu faktı təsdiq etmək xoşdur ki, qanunun tələblərinə riayət edilməsinin şahidi olduq.

Azərbaycan dövləti tərəfindən vətəndaşların ölkənin siyasi həyatında iştirak etməklə bağlı konstitusion hüquqlarını reallaşdırmağa nə dərəcədə təminat verildiyini müəyyən etmək. Səhər tezdən bizim gördüklərimiz bir daha sübut edir ki, seçkilərə hazırlıq yüksək səviyyədə həyata keçirilib. Hesab edirəm ki, seçki məntəqələri bağlananadək proses bu səviyyədə də davam edəcək. Düşünürəm ki, Azərbaycan vətəndaşları düzgün seçim edəcəklər.

## Azərbaycanda yüksək seçki mədəniyyəti formalaşıb



**Məhərrəm MƏHƏRRƏMOV,**
***Qazaxıstan Parlamentinin üzvü:***

- İndiyədək səsvermə prosesində hər hansı qanun pozuntusu qeydə almamışıq. Seçicilərin fəallığı xüsusi diqqət çəkir.

Azərbaycanda yüksək seçki mədəniyyəti formalaşıb. Seçicilərin fəal şəkildə məntəqələrə gəlməsi, növbə ilə səsvermə hüquqlarından istifadə etməsi və bütün bu prosesin sakit formada həyata keçirilməsi diqqət çəkir. Heç bir ajiotaj, narahatlıq yoxdur. Hər şey normal şəraitdə davam edir.

## Təşkilatçılığın səviyyəsindən çox razıyıq



**Zdenek ONDRAÇEK,**
***ATƏT PA-nın müşahidəçisi, Çexiya Parlamentinin deputatı:***

- Azərbaycanda prezident seçkiləri ədalətli, şəffaf və demokratik keçir. Seçici məntəqələrində bütün lazımi şərait yaradılıb, müasir avadanlıq quraşdırılıb.

Qrupumuzun işində məqsəd Azərbaycan Respublikasında keçirilən prezident seçkilərinin gedişi ilə tanış olmaq, həmçinin müşahidələrin nəticəsi barədə hesabat hazırlamaqdır. Hazırda biz təşkilatçılığın səviyyəsindən çox razıyıq, seçicilərin yüksək fəallığını xüsusilə qeyd etmək istərdim.

## Seçkilərdə gənclərin fəallığı müşahidə edildi



**Eli NAXT,**
***vəkil, İnsan Hüquqları üzrə Beynəlxalq Komitənin üzvü:***

- Gənclər prezident seçkilərində fəal iştirak edirlər. Gənclərin bu fəallığı onların cəmiyyətdəki rolunun yaxşı göstəricisidir. Bu, onların ölkə həyatının demokratikləşməsi prosesinin bir hissəsi olduğunu göstərir.

Müşahidə zamanı hər hansı bir qanun pozuntusuna rast gəlmədim. Azərbaycanda seçkilər demokratik şəraitdə keçirilir. Olduğumuz məntəqələrdə yüksək seçici fəallığı gördük. Səsvermə prosesi qaydalar çərçivəsində gedir. Seçicilər sərbəst surətdə məntəqəyə daxil olur, şəxsiyyətlərini təsdiq edən sənədi təqdim edir, bülleten alıb kabinəyə daxil olur və öz iradələrini azad surətdə ifadə edirlər. Bu, bir daha göstərir ki, ölkənin gələcək taleyi vətəndaşları düşündürür. Onlar inanırlar ki, qarşıdakı illərdə Azərbaycan daha sürətlə inkişaf edəcək, xalqın rifahı daha da yaxşılaşacaq.

## Səsvermə prosesində beynəlxalq normalara ciddi riayət edildi



**Peter MARÇEK,**
***slovakiyalı deputat:***

- Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra ictimai-siyasi və sosial-iqtisadi inkişafda sanballı nəticələr qazanıb, beynəlxalq aləmdə öz yerini möhkəmlədib. Prezident seçkiləri bu il ölkənin həyatında əsas hadisədir. Şübhəsiz, bu seçkilər dövlətin və cəmiyyətin inkişafına təsir göstərəcək. Biz bir sıra seçki dairələrində və məntəqələrində olmuşuq. Səsvermə vaxtında başlanıb, seçki komissiyalarının bütün üzvləri beynəlxalq standartlara uyğun və səmərəli işləyirlər. Xarici ölkələrdən müşahidəçilər dəvət edilməsi onu göstərir ki, Azərbaycanda prezident seçkiləri açıq və sərbəst keçirilir. Müşahidəçilər və jurnalistlər öz fəaliyyətlərində heç bir problemlə üzləşmirlər.

Azərbaycanda prezident seçkilərinə hazırlıqla əlaqədar böyük iş görülüb. Bütün seçki məntəqələri zəruri rabitə vasitələri və texnika ilə təchiz olunub. Vətəndaşların yüksək fəallığı güclü təsir bağışlayır. Mən bir məqamı müşahidə etdim ki, yaşlı nəslin nümayəndələri səsvermədə xüsusi fəallıq göstərir. Vətəndaşlar seçki məntəqələrinə gəlir və istədikləri namizədə sərbəst səs verirlər. Bu, həmin insanların konstitusion hüquqlarının tam reallaşdırılmasını təsdiq edir. Azad və demokratik seçkilər keçirilməsi üçün hər cür şərait yaradılıb. Səsvermə zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin pozulması halları olmayıb.

## Veb-kameralar səsvermənin şəffaf keçməsinə şərait yaradır



**Muratbay JOLDASBAYEV,**
***Qazaxıstan Senatının üzvü:***

- İndiyə qədər apardığımız müşahidələrə əsasən deyə bilərəm ki, seçki prosesi normal şəraitdə davam edir. Heç bir qanun pozuntusuna rast gəlməmişik.

Seçici fəallığı xüsusilə diqqət çəkir. Baş çəkdiyimiz məntəqələrdə hər hansı neqativ halı qeydə almamışıq. Heç bir narazılıq yoxdur. Seçkilərin təşkili yüksək səviyyədədir. Xüsusilə, veb-kameraların quraşdırılması seçkinin şəffaf keçirilməsinə şərait yaradır.

## Getdiyimiz məntəqələrdə heç bir qanun pozuntusu qeydə alınmayıb



**Rouland SKOT,**
***ATƏT-in ABŞ-dan olan müşahidəçisi:***

- Beş seçki məntəqəsində olmuşuq. Hər məntəqədə də 20 dəqiqə monitorinq aparmışıq. Getdiyimiz məntəqələrdə hələ ki, heç bir qanun pozuntusu müşahidə etməmişik. Günün sonunadək səsvermənin gedişini izləmək üçün daha bir neçə məntəqədə olacağıq.

Biz həm veb-kameralı məntəqələrə, həm də veb-kamera olmayan məntəqələrə gedirik. Məntəqələrdə səsvermənin gedişini izləyir, eyni zamanda, yerli müşahidəçilərlə də maraqlanırıq.

## Açıq və şəffaf seçkilər keçirilir



**Arye QUT,**
***İsraildən olan müşahidəçi, beynəlxalq münasibətlər üzrə ekspert:***

- İsrailin 9 nəfərdən ibarət nümayəndə heyəti bu gün seçkiləri müşahidə etmək üçün Azərbaycana gəlib. Nümayəndə heyətinin tərkibində Knessetin deputatları, sabiq nazirlər, eləcə də İsrailin Milli Təhlükəsizlik Şurasının keçmiş rəhbəri yer alıb. Gördüyünüz kimi, nümayəndə heyətinin ranqı olduqca yüksəkdir.

Bəzən Azərbaycana qarşı mənfi təbliğat aparılır. Elə buna görə də bütün Cənubi Qafqazda geosiyasi vəziyyəti və İsrail-Azərbaycan əməkdaşlığının mahiyyətini yaxşı bilən insanları ölkənizə gətirmişik.

Bu gün Azərbaycanda prezident seçkiləri açıq və şəffaf keçirilir, seçicilərə heç bir təzyiq yoxdur. Məncə, bu, yaxın gələcəkdə Azərbaycanın daha da demokratikləşməsi istiqamətində bir addımdır. İsraildə seçki prosesi bu gün Azərbaycanda izlədikləri kimidir. Hətta Azərbaycanın bəzi üstünlükləri var. İsrailin yüksək texnologiyalar ölkəsi olmasına baxmayaraq, bizdə seçkilərdə ultrabənövşəyi işıqlı cihazdan istifadə olunmur.

## Vətəndaşlar prezident seçkilərində kifayət qədər fəallıq göstərirlər



**Valeriu GHİLETCHİ,**
***Avropa Şurası Parlament Assambleyasının moldovalı üzvü:***

- Səsvermə prosesi seçicilərin fəallığı şəraitində keçir. Səhər tezdən Bakıda seçkilərin başlanmasını izlədik, indi isə Sumqayıtdayıq. Artıq şəhərin 8 seçki məntəqəsində səsverməni müşahidə etmişik.

42 saylı Sumqayıt ikinci seçki dairəsinin 37 saylı seçki məntəqəsində ilk dəfə səsvermədə iştirak edən gəncin doğum gününün həm də bu mühüm hadisəyə təsadüf etdiyinin şahidi olduq. Biz də təbriklərə qoşulduq.

Vətəndaşlar prezident seçkilərinə böyük maraq göstərir və kifayət qədər fəaldırlar. Seçkiləri müşahidə etdiyim zaman heç bir qanun pozuntusu ilə rastlaşmadım.

## Prezident seçkiləri qanunvericiliyə uyğun keçirilir



**Ataqarayev DYUSENBAY,**
***MDB-nin müşahidə missiyasının nümayəndəsi:***

- Seçki məntəqələrində qanun pozuntuları ilə rastlaşmadım, prosesin demokratik, qanunvericiliyə uyğun keçirildiyini müşahidə etdim. Səhər saatlarından başlayaraq seçki məntəqələrində səsvermə prosesini izləyirəm. Səsvermə tam şəffaf və demokratik keçir, günorta saatlarınadək hər hansı qanun pozuntusuna rast gəlmədim.

## Seçki prosesi çox yüksək səviyyədə təşkil olunub



**Robert Keriq KELLİ,**
***Avstraliya Parlamentinin üzvü:***

- Seçki prosesi çox yüksək səviyyədə təşkil olunub. Demokratik seçki prosesinə tam riayət edilməsi, insanların öz hüquqlarından istifadə edərək səs vermək imkanlarının olması önəmlidir.

## Beynəlxalq normalara uyğun seçkilər keçirilir



**Valeh ABBASOV,**
***MDB müşahidə missiyasının üzvü:***

- Seçkilər yüksək səviyyədə təşkil olunub. Səsvermə prosesi beynəlxalq normalara uyğun davam edir. Səhər saatlarından səsvermənin gedişini izləyirik. Məntəqələrə baş çəkirik, seçki prosesini müşahidə edirik. Günün sonuna qədər prosesi izləyəcəyik. Sonda müşahidələrimizin yekunu ilə bağlı məlumatı açıqlayacağıq. İndiyə qədər apardığımız müşahidələr təşkilatçılığın yüksək səviyyədə olduğunu deməyə əsas verir.

## İnsanlar seçkilərə böyük əhval-ruhiyyə ilə gəlir



**Yerbulat BURKAYEV,**
***Qazaxıstan Parlamentinin üzvü:***

- Prezident seçkiləri sakit və demokratik şəraitdə keçir, çox vacib amil odur ki, insanlar seçkilərə böyük əhval-ruhiyyə ilə gəlir.

Bu gün saat 10.00-dək 15-dən artıq məntəqədə seçki prosesini izləmişik. Bu saata seçki fəallığı heç də pis deyil. Bizim olduğumuz məntəqələrdə seçicilərin təqribən 40 faizi səsvermədə iştirak edib. Seçkilərdə bütün insanlara, o cümlədən gözdən əlillərə belə, səs vermələri üçün zəruri şərait yaradılıb.

Seçkilərin gedişatı ilə bağlı heç bir iradım yoxdur. Komissiya üzvləri çox mehribandırlar, seçicilərə hüquq və vəzifələrini səbirlə başa salırlar. Prezidentliyə namizədlərin vəkilləri tərəfindən də seçki ilə bağlı narazılıq eşitmədik.

## Seçicilər seçkilərin təşkilindən razıdırlar



**Sarvar OTAMURATOV,**
***Özbəkistan Parlamentinin üzvü:***

- Azərbaycanda keçirilən prezident seçkiləri beynəlxalq normalara, ölkənin Seçki Məcəlləsinə uyğundur. Biz ondan çox məntəqədə olduq və seçkilərin demokratik, şəffaf şəkildə keçirilməsinin şahidi olduq. Bütün məntəqələrdə müşahidəçilər var idi. Bizim olduğumuz bir çox məntəqələrdə veb-kameralar quraşdırılıb və səsvermə prosesi onlayn izlənilir. Biz seçicilərlə ünsiyyətdə olduq və onlar hər şeydən razı qaldıqlarını bildirdilər. Ümid edirəm ki, seçkilər başa çatana qədər də heç bir qanun pozuntusu baş verməyəcək.

## Avropa ilə müqayisədə proseslər daha sürətlə gedir



**Dimirtris KAMENOS,**
***Yunanıstan Parlamentinin vitse-prezidenti:***

- Biz bu gün 20-dən çox seçki məntəqəsində olmuşuq. Günün erkən saatlarında seçici sayı çox deyildi. Seçicilər saat 9-dan sonra seçki məntəqəsinə gəlməyə başladılar və saat 10-dan sonra məntəqələrdə xeyli insan var idi.

Hər şey həddindən artıq təmizdir. Bu təmizlikdən çox təsirləndik. Seçki məntəqələrinin çox hissəsi məktəblərdədir. Biz seçki prosesini izləyən veb-kameralar gördük. Bu, demokratik və açıq proseslər üçün çox əhəmiyyətlidir. İnsanlar çox sakit, işçilər yaxşı təhsilli idi. Onlar öz işlərini tam ciddiyyətlə icra edirdilər. Hər kəs nə etməli olduğunu bilirdi. Məntəqələrdə heç bir dava və ya anlaşılmazlıq baş verməyib. Avropa ilə müqayisədə proseslər daha sürətlə gedir. Avropada bu proseslər seçiciləri bir qədər yorur. Qeyd etməliyəm ki, seçki məntəqələrində polis yox idi.

## Müşahidəçilərə heç bir şikayət daxil olmayıb



**Aliqrudic MİLOS,**
***serbiyalı müşahidəçi:***

- Seçkilər yüksək səviyyədə təşkil olunub. Seçici fəallığı müşahidə edilir. Seçicilərin seçki qanunvericiliyi ilə tanış olduqlarını müşahidə etdim. Çoxlu sayda yerli və beynəlxalq müşahidəçi seçkiləri izləyir. İndiyə kimi müşahidə apardığım 9 seçki məntəqəsində heç bir qayda pozuntusu qeydə alınmayıb və biz müşahidəçilərə heç bir şikayət daxil olmayıb.

## Seçki məntəqələrində uzun növbələr var



**Melo Entoni CON,**
***belçikalı müşahidəçi:***

- Şəhərdəki seçki məntəqələrində uzun növbələr müşahidə olunur. Növbədə dayananların çoxu qadınlar idi. Beynəlxalq müşahidəçilər seçki məntəqələrində səsvermə prosesini müşahidə edirlər. Seçici fəallığı çox yüksəkdir.

***Səbinə MƏMMƏDOVA,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Türkiyə mediası: "Azərbaycan İlham Əliyevi seçdi"




**Azərbaycanda baş tutan növbəti prezident seçkilərinə dünya miqyasında da böyük diqqət və maraq müşahidə edilməkdə, proses ən müxtəlif aspektlərdən çoxsaylı xarici media orqanları tərəfindən işıqlandırılmaqdadır. Burada ümumi yanaşma ondan ibarətdir ki, seçki prosesi aşkarlığın və şəffaflığın təmin olunması ilə demokratik prinsiplərə tam riayət olunması şəraitində baş tutub. Eyni zamanda, ona da diqqət yetirilir ki, bu seçkilər ölkənin gələcək inkişafı yolunda daha bir mühüm və uğurlu addım kimi qiymətləndirilməlidir.**

Digər tərəfdən, o da birmənalı həqiqətdir ki, seçkilərin işıqlandırılması və medianın bu prosesdə rolu da demokratiklik baxımından mühüm əhəmiyyət kəsb edir. Media azadlığı və fikir plüralizmi təmin olunan Azərbaycanda kütləvi informasiya vasitələri seçkiləri maneəsiz işıqlandırmaq hüququna malikdirlər və bundan da istifadə edirlər. Eyni zamanda, xarici media vasitələri də bu prosesdə yaxından iştirak edir, seçkilər barədə mövqelərini çatdırırlar. Qeyd olunan xüsusda qardaş Türkiyənin media orqanlarında seçkilərlə bağlı dərc edilən materiallar xüsusi diqqət çəkir.

Türkiyənin ən çox oxunan KİV-dən "Milliyət" qəzeti "Azerbaycan'da İlham Aliyev, yüzde 80'in üzerinde oy alarak seçimi kazandı" başlıqlı xəbəri manşetə çıxardıb. Qeyd edilir ki, keçirilən "exit-poll"ların nəticələrinə əsasən, İlham Əliyev 80 faizdən yuxarı səs toplayaraq növbəti dəfə Azərbaycan Prezidenti seçilib. Bildirilir ki, 8 namizədin iştirak etdiyi seçkilərdə səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb. Seçkiləri izləmək üçün 894 beynəlxalq, 58 min 175 yerli müşahidəçi qeydiyyatdan keçib.

"Türkiyə" qəzeti də "Azerbaycan'daki seçimlerden ilk sonuçlar geldi" başlıqlı xəbəri oxucularına son dəqiqə xəbəri olaraq çatdırıb. Qeyd olunub ki, seçkilərdə 4 təşkilat tərəfindən keçirilən "exit-poll"ların nəticələrinə əsasən, İlham Əliyev 80 faizdən çox səs toplayıb: "Bu isə o deməkdir ki, Azərbaycan xalqı növbəti dəfə İlham Əliyevi prezident seçib. "Exit-poll"ların nəticələri həmişə Mərkəzi Seçki Komissiyasının nəticələri ilə demək olar ki, eyni olur".

"Yeniakit" qəzeti isə "Sandık çıkış anketine göre Aliyev seçimi kazandı" başlıqlı xəbəri oxucularına çatdırıb. Bildirilir ki, İlham Əliyev 80 faizdən çox səs toplayaraq növbəti dəfə Azərbaycanın prezidenti seçilib.

Qardaş ölkənin çox oxunan qəzetlərindən "Sabah" ölkəmizdə keçirilən prezident seçkilərinə geniş yer ayırıb. Qəzet "Azerbaycan cumhurbaşkanı seçimi için sandık başında" adlı xəbərdə yazır ki, saat 8-də başlayan seçkiləri 59 ölkədən 890 nəfərdən çox beynəlxalq müşahidəçi izləyib. Müşahidəçilər sırasında Türkiyədən olan deputatlar da yer alıblar.

"Hürriyet" qəzeti isə "Azerbaycan'da seçim günü... Sandık çıkış anketlerinde büyük fark" başlıqlı xəbərə yer ayırıb. Bildirilib ki, "exit-poll"un açıqladığı nəticələrə görə 80 faizdən çox səs toplayan İlham Əliyev Azərbaycanda növbəti dəfə prezident seçilib. O da vurğulanıb ki, seçici fəallığının nümayiş edildiyi seçkilər Azərbaycan xalqının demokratik iradəsini tam əks etdirdi.

"Yeni Şafak" qəzeti də "Azerbaycan'da seçimlerin galibi İlham Aliyev oldu" başlıqlı xəbəri manşetə çıxarıb. Bildirilib ki, Azərbaycan xalqı növbəti 4-cü dəfə prezident İlham Əliyevə etimad göstərib: "80 faizdən çox səs toplayan İlham Əliyev seçkilərin qalibi olub".

"İhlas Xəbər Agentliyi" isə "İlham Aliyev yeniden cumhurbaşkanı" başlıqlı xəbərə yer ayırıb. Yazılıb ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülən İlham Əliyev 82 faizdən çox səs toplayaraq yenidən dövlət başçısı seçilib.

"Euronews Türkiyə" isə "Sandık çıkış anketine göre Azerbaycan'da sürpriz yok. Aliyev 4. kez cumhurbaşkanı" başlıqlı xəbəri oxucularına çatdırıb. Bildirilib ki, İlham Əliyev 80 faizdən çox səs toplayaraq növbəti dəfə prezident seçilib. O da vurğulanıb ki, ATƏT Parlament Assambleyası, ATƏT Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Avropa Şurası Parlament Assambleyası, Müstəqil Dövlətlər Birliyi də daxil olmaqla 60 təşkilat, eləcə də 59 ölkədən beynəlxalq müşahidə missiyaları seçki prosesini izləyib.

Türkiyənin məşhur "A Haber", "TRT Haber", NTV və s. televiziya kanalları seçki günündə Bakıdan reportajlar hazırlayaraq seçkilərin dinc və sabit şəraitdə keçdiyini, heç bir pozuntu və ya yayınma hallarının müşahidə edilmədiyini diqqətə çatdırıblar.

"Sonhaberler.com", "haberler.com", "hukukihaber.net", "sanalbasin.com", "Karar.com", "Yenihaberden.com", "Mynet.com" və s. agentliklər isə dərc etdikləri xəbərlərdə Azərbaycanda növbəti prezident seçkilərinin keçirildiyini qeyd ediblər. Bildirilib ki, ölkə vətəndaşları müstəqillik dövrünün 8-ci prezident seçkisində liderini - İlham Əliyevi seçib.

Bütün bunlar onu deməyə əsas verir ki, hər iki dövlət istər regionda, istər dünyada, istərsə də öz daxillərində cərəyan edən hadisələrə də kifayət qədər həssaslıqla yanaşır. Bu mənada Azərbaycanın qarşıdakı dövr üçün ictimai-siyasi həyatında mühüm rol oynayan prezident seçkilərinin Türkiyənin xüsusi diqqətdə saxlaması tamamilə təbiidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Rusiya KİV-i Azərbaycanda prezident seçkilərini geniş işıqlandırdı

**Rusiyanın kütləvi informasiya vasitələri dünən ölkəmizdə keçirilmiş prezident seçkilərini diqqət mərkəzində saxlamışdır. Qonşu ölkənin qəzetləri və informasiya agentlikləri seçkilər haqqında operativ xəbərlər vermiş, telekanallar bu mühüm siyasi kampaniyadan reportajlar hazırlayıb tamaşaçılara təqdim etmişdir.**

Rusiyanın rəsmi qəzeti - "Rossiyskaya qazeta" "Azərbaycanda prezident seçkiləri başladı" sərlövhəli materialında qeyd edir ki, ölkəmizin vətəndaşları növbədənkənar prezident seçkilərində dövlətin yeni başçısını seçmişlər. Yerli vaxtla saat 08.00-da ölkə ərazisində 5426 seçki məntəqəsi açılmış və burada 5,3 mindən çox qeydə alınmış seçici səs vermək imkanı əldə etmişdir.

Qəzet xəbər verir ki, seçkilərdə 8 namizəd iştirak etmişdir. Onlardan 6-sı siyasi partiyaların təmsilçiləridir. Qalan iki namizəddən birini təşəbbüs qrupu, digəri isə öz namizədliyini irəli sürmüşdür. Radikal müxalifət vahid namizəd müəyyənləşdirə bilmədiyindən seçkilərə qatılmaqdan imtina etmişdir. Səsvermə prosesinin 59 ölkədən 890 xarici müşahidəçi, o cümlədən 60 beynəlxalq təşkilatın təmsilçiləri izləmişlər. Seçkiləri 118 xarici kütləvi informasiya vasitəsinin jurnalistləri işıqlandırmışlar.

"Rossiyskaya qazeta" xatırladır ki, növbəti prezident seçkiləri bu ilin oktyabrında keçirilməli idi. Amma Prezident İlham Əliyev öz sərəncamı ilə səsvermənin tarixini yarım il irəli çəkmiş və bunu seçki kampaniyasının gələn payızda ölkədə keçiriləcək mühüm ümummilli və beynəlxalq tədbirlərlə üst-üstə düşməsi ilə əsaslandırmışdır. Qəzet həmçinin səsverməyə hazırlığın yüksək səviyyədə olduğunu diqqətə çatdırmışdır.

Rusiyanın başqa bir nüfuzlu qəzeti - "İzvestiya" da Azərbaycanda prezident seçkilərinə toxunmuşdur. Qəzet ELS müstəqil tədqiqat mərkəzinə istinadən xəbər verir ki, Azərbaycanın hazırkı Prezidenti İlham Əliyev seçkilərdə inamlı qələbə qazanır.

"Rossiya 24" telekanalı seçkilər haqqında reportaj hazırlamışdır. Reportajda qeyd olunur ki, Azərbaycan vətəndaşlarının seçdiyi yeni Prezident ölkəni yeddi il idarə edəcək. Belə ki, 2016-cı ildə ölkə Konstitusiyasına dəyişiklik edilərək dövlət başçısının səlahiyyət müddəti iki il uzadılmışdır. Seçkilərdə 8 namizəd, o cümlədən hazırkı Prezident İlham Əliyev iştirak edir. Telekanal seçici fəallığını qeyd edərək xəbər verir ki, ilk dörd saat ərzində seçicilərin təxminən 40 faizi səs vermişdir. Təkrar səs verməyin qarşısını almaq üçün tədbirlər görülmüşdür.

RBK telekanalı da Azərbaycanda prezident seçkilərinə diqqət yetirmişdir. Telekanal səsverməyə hazırlığın gedişinə toxunmuş, ali dövlət vəzifəsinə namizədlər barədə məlumat vermişdir. Reportajda seçkiləri izləyən yerli və xarici müşahidəçilərdən də söz açılmışdır. Onların arasında rumıniyalı deputat Viorel Riçard Badeanın başçılıq etdiyi Avropa Şurası Parlament Assambleysının missiyası və Rusiya Federasiya Şurasının sədr müavini İlyas Umaxanovun rəhbərlik etdiyi MDB Parlament Assambleysının müşahidə qrupu da var.

TASS informasiya agentliyinin ölkəmizdə prezident seçkiləri barədə hazırladığı xəbərdə deyilir ki, 125 seçki dairəsinin 5641 məntəqəsi vətəndaşların səs verməsi üçün hazırlanmışdı. Azərbaycan vətəndaşları təkcə ölkə daxilində yox, həm də ölkənin xaricdəki diplomatik nümayəndəliklərində səs vermək imkanı əldə etmişlər. Bütövlükdə, Azərbaycandan kənarda 41 seçki məntəqəsi açılmışdır. Onlardan 3-ü Rusiyadadır: Moskvadakı səfirliyin binasında, həmçinin Sankt-Peterburq və Yekaterinburqdakı baş konsulluqlarda.

"RİA Novosti" informasiya agentliyi seçkilərin monitorinqini aparan Fransanın "Opinionway" şirkətinin rəsmi nümayəndəsi Bruno Canbarta istinadən xəbər verir ki, "exit-poll"un nəticələrinə görə Azərbaycanın hazırkı Prezidenti İlham Əliyev 86,53 faiz səslə liderdir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Xarici ölkələrdə yaşayan həmvətənlərimiz seçkilərdə mütəşəkkillik nümayiş etdirdilər

## Fransa

Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar ölkəmizin Fransadakı səfirliyində yaradılmış 17 saylı Yasamal üçüncü seçki dairəsinin 20 saylı seçki məntəqəsində səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb.

Səsvermə prosesi Azərbaycan Respublikası Konstitusiyasına, Seçki Məcəlləsinə və bu sahədəki digər qanunvericilik aktlarına uyğun aparılıb. Seçicilər azad, demokratik və şəffaf şəkildə səs vermələri üçün yaradılan şəraitdən razı qalıblar.

Səsvermə prosesində heç bir qanun pozuntusu qeydə alınmayıb.

## İran

İranın Təbriz şəhərində fəaliyyət göstərən Azərbaycanın baş konsulluğunda yaradılmış seçki məntəqəsində səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb.

Səsvermədə Azərbaycanın Təbrizdəki diplomatik nümayəndəliyinin əməkdaşları, onların ailə üzvləri, bu şəhərə ezamiyyətə və müalicə məqsədi ilə gələn Azərbaycan vətəndaşları iştirak ediblər.

Konsulluqdan verilən məlumata görə, seçici fəallığı 86,25 faiz olub.

Məlumatda həmçinin bildirilir ki, seçki məntəqəsində səsvermə azad və ədalətli, demokratik və şəffaf keçib. Azərbaycanın seçki qanunlarına, habelə Mərkəzi Seçki Komissiyasının bütün tələblərinə birmənalı qaydada əməl edilib. Səsvermə prosesində heç bir qanun pozuntusu qeydə alınmayıb.

## Türkiyə

Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkiləri ilə əlaqədar ölkəmizin İstanbuldakı baş konsulluğunda fəaliyyət göstərən 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə 53 saylı məntəqədə səsvermə yüksək seçici fəallığı ilə başa çatıb.

Səsvermə Ankara vaxtı ilə saat 8.00-dan 19.00-dək keçirilib.

Səsvermə Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına, Seçki Məcəlləsinə, eləcə də Mərkəzi Seçki Komissiyasının bütün tələblərinə uyğun aparılıb. Seçki prosesinə müdaxilə halı qeyd olunmayıb, seçicilər tərəfindən heç bir şikayət daxil olmayıb. KİV nümayəndələrinin fəaliyyət hüquqları tam şəkildə təmin edilib.

Burada Türkiyənin İstanbul, Bursa, İzmir, Antalya və baş konsulluğumuzun fəaliyyət dairəsində olan digər bölgələrdən gələn seçicilər səs veriblər. Məntəqə Seçki Komissiyasından verilən məlumata görə, vətəndaşlarımızın 79 faizi səsvermədə iştirak edib.

## Ukrayna

Azərbaycanın Ukraynadakı səfirliyində prezident seçkiləri ilə bağlı keçirilən səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb.

Seçki komissiyasının katibi Vüsal Süleymanov bildirib ki, səfirliyin konsulluğunda qeydiyyatda olan Azərbaycan vətəndaşlarının 93 faizi səsvermədə iştirak edib. Səsvermə çox böyük seçici fəallığı ilə müşahidə olunub, hər hansı qanun pozuntusu qeydə alınmayıb.

## İsveç

Azərbaycanın İsveçdəki səfirliyində yaradılmış 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə 39 saylı seçki məntəqəsində prezident seçkiləri yerli vaxtla saat 19.00-da başa çatıb.

Stokholmda ümumilikdə 151 seçici seçki məntəqəsinə gəlib. Qeyd edək ki, səsvermə şəffaf şəraitdə keçirilib, heç bir qanun pozuntusu baş verməyib.

## İsveçrə

Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar İsveçrə Konfederasiyasındakı səfirliyimizdə yaradılan seçki məntəqəsində yerli vaxtla saat 19:00-da səsverməyə yekun vurulub. 17 saylı Yasamal üçüncü seçki dairəsinin 42 saylı seçki məntəqəsində səsvermə prosesi seçicilərin fəallığı şəraitində keçib.

Azərbaycanın Berndəki səfirliyində yaradılmış seçki məntəqəsində səfirlik əməkdaşları ilə yanaşı, ölkəmizin Cenevrədə BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlikləri və SOCAR-ın bu ölkədəki nümayəndəliyinin əməkdaşları, İsveçrədə və həmçinin Lixtenşteyn Knyazlığında yaşayan və ya ezamiyyətdə olan, seçki hüququna malik Azərbaycan vətəndaşları səs veriblər.

## Gürcüstan

Azərbaycanın Batumidəki baş konsulluğunda prezident seçkiləri ilə əlaqədar keçirilən səsvermə saat 19:00-da başa çatıb.

Baş konsulluqdan bildiriblər ki, siyahı üzrə qeydə alınmış 77 seçicidən 76-sı səsvermədə iştirak edib. Səsvermə zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb.

Seçki prosesi Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun təşkil olunub. Səs vermək üçün baş konsulluğa gələn Azərbaycan vətəndaşları istədikləri namizədə səs veriblər.

## BƏƏ

Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar keçirilən səsvermə başa çatıb.

Yerli vaxtla saat 19:00-da Azərbaycanın Əbu-Dabidəki səfirliyində və Dubay şəhərindəki baş konsulluğunda seçki məntəqələri bağlanıb.

Əbu-Dabi məntəqə seçki komissiyasının sədri Leyla Süleymanova bildirib ki, səfirlikdə təşkil edilmiş seçki məntəqəsində 72 seçici səs verib (92,3 %).

Ölkəmizin Dubaydakı baş konsulu Cavidan Hüseynovun məlumatına görə, seçki məntəqəsində 188 seçici iştirak edib (95,4 %).

Qeyd edək ki, BƏƏ-də seçici siyahısında 275 nəfər qeydiyyatdan keçib, onlardan 260-ı səsvermədə iştirak edib (94,5 %).

## Litva

Yerli vaxtla saat 15:00-da Vilnüsdə 2 saylı Yasamal on altıncı seçki dairəsinin 38 saylı seçki məntəqəsində Kaunas və Klaypedadan seçicilərin 64 faizi səs verib.

Azərbaycanın Litvadakı səfirliyinin təşkilati dəstəyi ilə "LABNET" kommunikasiya şirkəti həmvətənlərimizin mobil telefonlarına sms-bildirişlər göndərib.

Litvanın Baş Seçki Komissiyası sədrinin müavini Svetlana Miseviçiene və komissiyanın üzvü Aiste Jilinskiene Vilnüsdəki seçki məntəqəsində olublar. Qonaqlar səfirlikdə yaradılmış şəraitlə tanış olublar.

Svetlana Miseviçiene bildirib ki, səfirlikdə seçki prosesi yüksək səviyyədə təşkil edilib, vətəndaşların öz iradələrini azad və şəffaf şəkildə ifadə etmələri üçün hər cür şərait yaradılıb.

## Səudiyyə Ərəbistan

Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyində yaradılmış seçki məntəqəsində yerli vaxtla saat 19.00-da səsvermə başa çatıb.

Bu məntəqə üzrə konsulluq qeydiyyatında olan vətəndaşlarımızın mütləq əksəriyyəti səsvermədə iştirak edib.

***AZƏRTAC***

# Beynəlxalq müşahidəçilər seçkilərin gedişindən razıdırlar

Aprelin 11-də Azərbaycan Mərkəzi Seçki Komissiyasında (MSK) Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Mirzə-Uluqbek Abdusalamov ilə görüş keçirilib.

Özbəkistan MSK-nın sədri Azərbaycanda prezident seçkilərini müşahidə etdiklərini, səsvermənin şəffaf keçdiyinin şahidi olduqlarını söyləyib. O, seçicilərə sərbəst şəkildə səs vermələri üçün hər cür şəraitin yaradıldığını vurğulayıb.

Mirzə-Uluqbek Abdusalamov səhər saatlarından apardıqları müşahidələr zamanı məntəqələrdə seçicilərin növbəsinin şahidi olduqlarını, bunun vətəndaşların öz seçki hüquqlarına ciddi yanaşmasından xəbər verdiyini bildirib.

MSK sədri Məzahir Pənahov qonaqlara prezident seçkilərinin təşkili ilə əlaqədar görülən işlər barədə məlumat verib. O, prezident seçkilərində Özbəkistan nümayəndələrinin müşahidəçi kimi iştirakından məmnunluğunu bildirib.

Ölkəmizin seçki təcrübəsi barədə danışan Məzahir Pənahov bu təcrübənin prosesi izləyən beynəlxalq müşahidəçilər tərəfindən də qeyd edildiyini söyləyib.

MSK sədri seçkilərin yüksək səviyyədə təşkili istiqamətində görülən işlər barədə ətraflı məlumat verib, qonaqların suallarını cavablandırıb.

* * *

Moldovanın Mərkəzi Seçki Komissiyasının sədri Alina Russunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın Mərkəzi Seçki Komissiyasında (MSK) olub.

Alina Russu məntəqələrdə apardıqları müşahidələr zamanı seçki prosesinin mükəmməl təşkil edildiyinin şahidi olduqlarını söyləyib. Seçicilər və müşahidəçilər üçün əlverişli şəraitin yaradıldığını vurğulayan Moldova MSK-nın sədri seçkilərin şəffaf keçdiyini bildirib. Alina Russu seçkiləri yüksək səviyyədə təşkil etdiyinə görə MSK-ya minnətdarlıq edib.

MSK sədri Məzahir Pənahov qonaqlara görülən işlər barədə məlumat verib. O bildirib ki, müşahidəçilərin seçkilərə obyektiv qiymət verməsi Azərbaycan üçün böyük önəm daşıyır. Məzahir Pənahov qeyd edib ki, min seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Bu isə seçki məntəqələrinin 18 faizini əhatə edir. Bu veb-kameralar vasitəsilə bütün seçki prosesi onlayn rejimdə nümayiş etdirilir. Dünyanın istənilən yerindən MSK-nın saytına daxil olub heç bir məhdudiyyət olmadan seçki prosesini izləmək mümkündür. Bundan başqa, 59 ölkəni təmsil edən 894 beynəlxalq müşahidəçinin seçki prosesini izlədiyini deyən MSK sədri fiziki və görmə məhdudiyyətli, eləcə də cəzaçəkmə müəssisələrində olan vətəndaşların da səsvermə hüquqlarından istifadə etmələri üçün bütün şəraitin yaradıldığını deyib.

* * *

Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvləri Mərkəzi Seçki Komissiyasında (MSK) olublar.

Qrupun üzvü, Avropa Parlamentinin deputatı Ryszard Czarnecki Azərbaycanda keçirilən prezident seçkilərini müşahidə etdiklərini söyləyib, şəffaflığın təmin olunması üçün seçki məntəqələrində görülən işlərin, xüsusilə də veb-kameraların quraşdırılmasının təqdirəlayiq olduğunu bildirib. O, apardıqları müşahidə zamanı seçicilərin sərbəst şəkildə səs verdiklərinin şahidi olduqlarını qeyd edib.

MSK sədri Məzahir Pənahov qonaqlara prezident seçkilərinə hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verib. O deyib ki, dünyanın 59 ölkəsindən gəlmiş 894 beynəlxalq müşahidəçi bu gün səsvermənin gedişini izləyir. Beş milyon 300 mindən artıq seçicinin sərbəst, azad şəkildə səs verməsi üçün hər cür şərait yaradılıb. MSK sədri fiziki və görmə məhdudiyyətli, eləcə də cəzaçəkmə müəssisələrində olan vətəndaşların da səsvermə hüquqlarından istifadə etmələri üçün lazımi işlərin görüldüyünü diqqətə çatdırıb.

***AZƏRTAC***

# Paytaxt sakinləri seçkilərdə






















## Nərimanov

Nərimanov rayonu siyasi fəallığı, ölkə miqyaslı siyasi proseslərdə mütəşəkkil iştirakı ilə diqqəti cəlb edir. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri bu rayonda həmişə yüksək səviyyədə baş tutub və indiyədək heç bir seçkidə ciddi qanun pozuntusu qeydə alınmayıb. Prezident seçkiləri də əvvəlki seçkilərdə olduğu kimi, yüksək seçici fəallığı şəraitində keçdi.

Seçkilərə hazırlıq işləri 18 saylı Nərimanov-Nizami, 19 saylı Nərimanov birinci, 20 saylı Nərimanov ikinci seçki dairələrində vaxtında başa çatdırılmışdı. Xatırladaq ki, hələ bir neçə il əvvəl bu seçki dairələrinin bütün seçki məntəqələrinin şəraiti və texniki vəziyyəti araşdırılıb, darısqal və seçki keçirilməsi üçün uyğun binalarda yerləşməyən məntəqələrin yerləri dəyişdirilib. Bütün seçki məntəqələri təmirlidir. Bu seçkilərdən də əvvəl məntəqələrə baxış keçirilib, onların hər biri lazımi inventar və avadanlıqlarla tam təchiz olunub. Beləliklə, səsvermə gününə qədər seçkilərin yüksək səviyyədə, qanunvericiliyə və beynəlxalq standartlara uyğun şəkildə baş tutması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən nəzərdə tutulan hazırlıq işləri seçki dairələrində yüksək səviyyədə yekunlaşmışdı. Seçki dairələrində seçki kampaniyasının ayrı-ayrı mərhələlərində heç bir qanun pozuntusu və çətinlik yaşanmamışdı. Bütün seçki məntəqələrində vətəndaşların sərbəst şəkildə səs vermələri üçün lazımi şərait yaradılmışdı.

Rayon üzrə ümumilikdə 84 seçki məntəqəsi var. Onlardan 16 seçki məntəqəsi 18 saylı Nərimanov-Nizami seçki dairəsi üzrə, 35 seçki məntəqəsi 19 saylı Nərimanov birinci seçki dairəsi üzrə, 33 seçki məntəqəsi isə 20 saylı Nərimanov ikinci seçki dairəsi üzrə fəaliyyət göstərir. Nərimanov rayonu üzrə ümumilikdə 110 min 756 nəfər seçici qeydiyyata alınmışdı. Onlardan 2177 nəfəri ilk dəfə səs verənlər idi.

20 saylı Nərimanov ikinci seçki dairəsindəki müşahidələrimiz seçkilərin fəallıq şəraitində keçirildiyini təsdiq etdi. Dairə üzrə qeydə alınan seçicilərin sayı 44 min 319 nəfərdir. Dairə üzrə qeydiyyatdan keçmiş müşahidəçilərin sayı isə 367 nəfər idi.

Seçici fəallığı baş çəkdiyimiz hər bir seçki məntəqəsində hiss olunurdu. Öncə 20 saylı Nərimanov ikinci seçki dairəsinin 16 saylı seçki məntəqəsində olduq. Səsvermənin başlanmasının elan olunmasına hələ qalsa da, artıq məntəqənin önündə xeyli seçici toplaşmışdı. Onlardan Arif Bayramov və Pərişan Ələkbərova ilə söhbətləşdik. Hər iki seçici seçki məntəqəsinə gələrək səs verməyi özlərinin vətəndaşlıq borcu olduğunu qeyd etdilər və ən layiqli namizədi dəstəkləyəcəklərini bildirdilər.

Məntəqədə səsverməyə hazırlıq işləri nəzərdə tutulan vaxtda başlanmışdı. Saat 7:50-də seçki məntəqəsi açıq elan edildi və seçki qutuları kilidləndi. Saat 8:00-da isə seçki məntəqəsinin sədri Xədicə Əliyeva səsvermənin başlandığını elan etdi. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra seçicilər məntəqəyə daxil oldular. Öyrəndik ki, bu seçki məntəqəsində 1424 nəfər seçici qeydə alınıb. Onlardan 23 nəfəri ilk dəfə səs verənlər idi.

Seçki məntəqəsində müşahidəçilərin səsvermənin gedişatını müşahidə etmələri üçün hər bir şərait yaradılmışdı. Söhbətləşdiyimiz müşahidəçilər seçkilərin şəffaf, demokratik, seçki qanunvericiliyinə uyğun keçirildiyini təsdiq etdilər. 16 saylı seçki məntəqəsində səsverməni iki nəfər xarici müşahidəçi də izləyirdi. Onlar ATƏT-in təmsilçiləri - ABŞ-dan olan Barbara Hillas və Almaniyadan gəlmiş Helmut Jozef idilər. Hər iki müşahidəçi hazırlıq işlərini və səsvermənin başlanması prosesini yüksək qiymətləndirdilər.

Seçki məntəqəsinin çıxışında isə "exit-poll" keçirilirdi. 16 saylı seçki məntəqəsi də daxil olmaqla 20 saylı Nərimanov ikinci seçki dairəsinin 10 seçki məntəqəsində səsvermənin gedişatını veb-kameralar vasitəsilə izləmək də mümkün idi.

19 saylı Nərimanov birinci seçki dairəsində də səsvermə seçici mütəşəkkilliyi şəraitində keçdi. Baş çəkdiyimiz 26 saylı seçki məntəqəsinin komissiya sədri Səmayə Eynullayeva səsverməyə hazırlıq işlərinin və səsvermənin başlanmasının vaxtında həyata keçirildiyini bildirdi. Artıq səhər saatlarından burada da qələbəlik idi. Seçicilər səs vermək üçün məntəqənin qarşısında növbəyə düzülmüşdülər. Burada da müşahidəçilərin səsvermənin gedişini izləmələri üçün hər cür şərait yaradılmışdı. 19 saylı Nərimanov birinci seçki dairəsində də 26 saylı seçki məntəqəsi daxil olmaqla 10 seçki məntəqəsində səsvermənin gedişatını internetdən izləmək mümkün idi.

## Nəsimi

Nəsimi rayonunda bütün hazırlıqlar kifayət qədər demokratikliyi, seçkilərin keçirilməsi üçün lazımi şəraitin yaradılması ilə səciyyələnirdi. Rayonu əhatə edən 21 saylı Nəsimi birinci, 22 saylı Nəsimi ikinci və 23 saylı Nəsimi-Səbail seçki dairələrində bu siyasi kampaniyanın bütün mərhələləri ilk gündən başlayaraq qanunvericiliyə və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun həyata keçirilib.

22 saylı Nəsimi ikinci seçki dairəsindəki müşahidələrimiz seçici mütəşəkkilliyindən xəbər verirdi. Bu dairə üzrə 28 seçki məntəqəsində 38 min 38 nəfər seçici qeydə alınıb. Dairənin Azərbaycan Dillər Universitetində yerləşən 26 saylı seçki məntəqəsinə gələrkən izdihamla rastlaşdıq. Məntəqənin önündə səs vermək üçün çoxsaylı insan toplaşmışdı. Məntəqə seçki komissiyasının sədri Ağamayıl Baxşıyev bildirdi ki, səhər saatlarından seçicilər aktiv şəkildə səsverməyə gəlirlər. Bu məntəqə üzrə ümumilikdə 1448 nəfər seçici qeydə alınıb.

Seçicilərlə söhbətləşdik. Bundan əvvəl də bütün seçki və referendumlarda aktiv iştirak etdiyini qeyd edən gənc fəal Amil Cavadov dedi: "Seçkilər hər bir dövlətin siyasi həyatında mühüm hadisədir. Ölkəmizdə hər kəs istər seçkidə, istər referendumda öz iradəsini azad və sərbəst şəkildə ifadə edir. İndiyədək keçirilmiş seçkilərin heç birində ciddi qanun pozuntuları qeydə alınmayıb. Beynəlxalq təşkilatlar da daim ölkəmizdə keçirilən seçkiləri təqdir ediblər. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın mühüm demokratik uğurlarıdır. Bu seçkilərdə də xalqımız siyasi iradəsini ifadə edərək növbəti müddətə ölkə Prezidentini seçəcək. Göründüyü kimi, seçki məntəqəsində fəallıqdır. Seçicilər mütəşəkkil şəkildə seçki məntəqəsinə gəlirlər. Bütün bunlar ölkə vətəndaşlarının bu ümummilli siyasi kampaniyaya laqeyd olmadıqlarının, Azərbaycanın gələcəyi naminə siyasi iradə nümayiş etdirmələrinin göstəricisidir. Əminəm ki, əvvəlki seçkilərdə olduğu kimi, xalqımız bu dəfə də öz müdrik seçimini edəcək, ölkəmizin inkişafının və sabitliyinin davamlı olmasına, daha firavan və gözəl gələcəyimizin təmin olunmasına səs verəcəklər".

Seçici Süleyman Atakişiyev də bir gənc kimi bu cür respublika miqyaslı mühüm siyasi kampaniyalarda fəal olduğunu bildirdi: "Seçkilərdə hər kəs fəal olmalı, öz konstitusion hüququndan istifadə edib səsverməyə gəlməlidir. Seçki məntəqəsində gördüklərim isə həqiqətən qürurvericidir. İnsanlar səs vermək üçün növbəyə düzülüblər. Bu, Azərbaycan vətəndaşlarının ölkəmizin siyasi həyatında və gələcək taleyində böyük rol oynayan seçkilərə biganə qalmadıqlarının göstəricisidir. Mən də bu gün inkişafa, yüksək rifaha və daha güclü Azərbaycan naminə həyata keçirilən siyasətə səs verdim. O siyasətə ki, ötən dövrdə ölkəmizi inkişaf yoluna çıxarıb, Azərbaycanı dünyada söz sahibinə, sayılıb-seçilən dövlətə çevirib. Əminəm ki, bu seçkinin nəticələri xalqımızın mütləq əksəriyyətinin arzusunun ifadəsi olacaq. Bu seçkinin nəticəsi olaraq Azərbaycan öz inkişaf yolunda inamla irəliləyəcək, xalqımızın rifahı daha da yüksələcəkdir".

Seçki məntəqəsində müşahidəçilərlə də görüşdük. Yeni Azərbaycan Partiyasını təmsil edən müşahidəçi Sərraf Hüseynov bildirdi ki, demokratik inkişaf yolunda böyük məsafələr qət etmiş Azərbaycanda artıq zəngin seçki ənənəsi formalaşıb: "Bu ənənə demokratiyaya, ədalətə və şəffaflığa əsaslanır. İndiyədək çoxlu seçkilər keçirilib. Və hər seçkidə təsdiqlənib ki, Azərbaycanda demokratik dəyərlər təşəkkül tapıb. Bizdən başqa burda xarici müşahidəçilər də səsverməni izləyirlər. Hər hansı nöqsan da qeydə alınmayıb. Ümumiyyətlə isə hansısa problemin yaranması mümkün deyil. Əminik ki, bu seçki də ölkəmizin demokratiya yolunda uğurla irəliləməsinin növbəti təcəssümü olacaq".

YAP-ı təmsil edən digər müşahidəçi Əli Pənahov da səsvermənin qanunvericiliyə uyğun getdiyini diqqətə çatdırdı: "Səhər saatlarından buradayıq. Seçki məntəqəsi vaxtında səsverməyə açıq elan edildi. Səsvermə başlayandan məntəqənin ətrafında və daxilində qələbəlik var. Hər kəs sərbəst şəkildə öz siyasi iradəsini ifadə edir. Bu mənada seçkilərin tam demokratik, ədalətli və şəffaf şəkildə keçirildiyini əminliklə söyləyə bilərik. İnanırıq ki, bu seçki demokratiyanın təntənəsi olmaqla, Azərbaycanın gələcək inkişafının davamlılığını təmin edəcək".

Seçki məntəqəsində xarici müşahidəçilərlə də görüşdük. Simon Peterman və Klod Monike Belçikadan gəliblər. Hər ikisi Avropa Strateji Təhlükəsizlik və Kəşfiyyat Mərkəzini təmsil edirlər. Simon Peterman səsvermə məntəqəsində bütün proseslərin qanunlara və standartlara uyğun getdiyini, hər hansı bir nöqsanın qeydə alınmadığını bildirdi.

## Binəqədi

Binəqədi həm əhalisinin sayına, həm də sənaye potensialına görə paytaxtın böyük rayonlarından sayılır. Hələ sovetlər zamanında Bakının iqtisadi inkişafında bu rayonun sanballı payı var idi. Müstəqillik illərində, xüsusən son dövrlər Binəqədi rayonu da sosial-iqtisadi cəhətdən xeyli inkişaf etmişdir. Aparılan abadlıq işləri, istifadəyə verilən müəssisələr, sosial obyektlər, yenidən qurulan infrastruktur bugünkü Binəqədi rayonunun yeni simasıdır. Rayon əhalisi də dünənki prezident seçkilərinə məhz bu yeniliklərin fonunda yüksək əhvali-ruhiyyə ilə gəlmişdilər.

Rayonun 145 mindən çox seçicisi 3 dairə üzrə 111 məntəqədə səs verirdi. 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə 47 min 840 seçici 39 məntəqədə, 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə 49 min 64 seçici 37 məntəqədə, 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə 48 min 956 seçici 35 məntəqədə qeydə alınmışdı. Məntəqələrin əksəriyyəti veb-kameralarla təchiz olunmuşdu. Bütün məntəqələrdə istər səs verənlər, istərsə də müşahidəçilər üçün hər cür şərait yaradılmışdı. Müşahidəçilərə səsverməni sərbəst izləmələri üçün heç bir məhdudiyyət qoyulmamışdı.

8 saylı Binəqədi birinci seçki dairəsinin 26 saylı məntəqəsində olarkən bunun bir daha şahidi olduq. Məntəqədə 1048 seçici qeydə alınmışdı. Məntəqədə səliqə-sahman var idi. Hətta səs verməyə gələnlərin sayının çox olmasına baxmayaraq, bu səliqə-sahman pozulmur, qarışıqlıq yaranmırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, səsverməyə gələnlər bülleten götürməmişdən əvvəl seçki qanunvericiliyinə uyğun olaraq ciddi yoxlamadan keçirdilər. İlk növbədə, seçicilərin şəxsiyyət vəsiqələri və ultrabənövşəyi şüa ilə onların başqa məntəqələrdə səs verib-verməmələri ciddi yoxlanılırdı.

Təbii ki, bütün bunlar seçkilərin keçirilməsinə nəzarət etmək üçün akkreditə edilmiş çoxsaylı müşahidəçilərin şahidliyi ilə baş verirdi və bu səbəbdən onların heç biri seçkilərin keçirilməsi prosesinə ciddi iradlar bildirmirdilər.

Məntəqə seçki komissiyasının sədri Nəbi Mahmudov bildirdi ki, məntəqədə seçkilərin demokratik, şəffaf keçməsi üçün hər cür şərait yaradılıb.

Seçici Eldəniz Əhmədov isə qeyd etdi ki, seçki prosesi çox yaxşı səviyyədə təşkil olunub. Seçkilər ədalətli şəkildə, şəffaf, heç kəsə təzyiq olunmadan keçirilir.

Vaxt keçdikcə məntəqəyə səs verməyə gələnlərin sayı çoxalırdı. İctimai fəallıq rayonun digər seçki məntəqələrində də özünü göstərirdi. Seçki məntəqələrini üzlərində təbəssüm və xoş ovqatla tərk edən seçicilər Azərbaycanın dinamik inkişafına, ordusunun güclü, əhalisinin xoşbəxt gələcəyinə, üçrəngli bayrağının daha yüksəklərdə dalğalanmasına səs verdiklərini bildirirdilər.

## Səbail

Səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Səhər saatlarında prezidentliyə namizəd, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gələrək səs verdilər.

Məntəqə seçki komissiyasının sədri Rüfət Həsənov dedi ki, gün ərzində heç bir neqativ hal yaşanmayıb. Məntəqə üzrə 582 nəfər qeydiyyatdadır. O, seçicilərə sərbəst şəkildə səs vermələri üçün hər cür şəraitin yaradıldığını vurğuladı.

Yerli müşahidəçilər seçkilərin tam demokratik şəraitdə keçdiyini, qanun pozuntusuna yol verilmədiyini bildirdilər. Müşahidəçilərdən Dilarə Zeynalovanın sözlərinə görə, səsvermə Seçki Məcəlləsinə tam uyğun şəkildə keçirilir. Seçicilər axın-axın məntəqələrə gəlir, azad və sərbəst surətdə istədikləri namizədə səs verirlər.

Sözügedən dairənin 4 saylı seçki məntəqəsinin sədri Lalə Əliyeva da seçki prosesi barədə fikirlərini bölüşdü: "Məntəqə üzrə 1178 nəfər qeydiyyatdadır, onlardan 21 nəfər gənc ilk dəfə səs verəcək. Seçicilər rahat şəkildə səsvermə hüquqlarından istifadə edirlər. Onlar üçün çox yüksək şərait yaradılıb. Səsvermə demokratik şəkildə keçirilir".

İlk dəfə səs verən Səbail rayonunun sakini Səbinə Məmmədova dedi ki, Azərbaycan müstəqil ölkədir və vətəndaşları istədikləri namizədə səs vermək hüququna malikdirlər: "Həyatımda ilk dəfədir ki, seçkidə iştirak edirəm. Çox maraqlıdır. Heç bir müdaxilə ilə rastlaşmamışam. Rahat şəkildə məntəqəyə daxil oldum və öz hüququmdan istifadə edərək istədiyim namizədə səs verdim".

29 saylı Səbail seçki dairəsinin 2 saylı seçki məntəqəsində də fəallıq müşahidə olunurdu. Seçicilər aktiv və davamlı olaraq səs verirdilər. Məntəqə seçki komissiyasının sədri Fikrət Əzizov bildirdi ki, 1383 nəfər qeydiyyatdadır və onlardan 3 nəfəri ilk dəfə səs verəcək gənclərdir.

Sözügedən dairənin 1424 seçicisi olan 13 saylı seçki məntəqəsində də seçicilərin fəallığı nəzərə çarpacaq dərəcədə idi. Seçicilər kütləvi şəkildə məntəqəyə gələrək rahatlıqla öz hüquqlarından istifadə edirdilər.

Məntəqə seçki komissiyasının sədri Elşən Budaqov səsvermə prosesinin Seçki Məcəlləsinin tələblərinə uyğun və tam ədalətli, şəffaf şəkildə keçdiyini bildirdi.

Onu da vurğulayaq ki, seçkilərin gedişini fasiləsiz izləyən yerli müşahidəçilərdən əlavə, müxtəlif dövlətləri, beynəlxalq təşkilatları təmsil edən müşahidəçilər də 29 saylı Səbail seçki dairəsinin əksər məntəqələrində həm səsvermənin gedişatı, həm də məntəqələrdə seçicilər üçün yaradılan şəraitlə yaxından tanış olublar. Xarici müşahidəçilər hansısa məntəqədə qanun pozuntusu ilə qarşılaşmayıblar.

## Nizami

Nizami rayonunda da mühüm siyasi kampaniyaya - prezident seçkilərinə mütəşəkkilliklə başlandı. Rayonun üç seçki dairəsində, 25 məntəqədə 113207 seçicinin səs verəcəyi gözlənilirdi. Səsvermənin ilk saatlarından açıq-aydın hiss olunurdu ki, hər kəs müstəqil mövqeyini ifadə etməyə cəhd edir. 24 saylı birinci seçki dairəsində də səsvermə üçün lazımi şərait yaradılmışdır. Xarici müşahidəçilər qrupunun üzvü Nikolay Povkolo söhbət zamanı bildirdi ki, seçki prosesini ilk mərhələdən ardıcıllıqla izləyirik. Seçicilər öz istəklərinə, arzularına uyğun mövqe nümayiş etdirir, sərbəst şəkildə nəzərdə tutduqları namizədə səs verirlər.

Görüşdüyümüz adamlar, səsvermədə iştirak edən seçicilər bildidilər ki, bu seçkilər bizim həyatımızda xüsusi yer tutur. İnanırıq ki, səs verdiyimiz namizəd gələcəkdə ümidlərimizi, istəklərimizi doğruldacaq. Elə bu inamla da təkcə 24 saylı seçki dairəsində 44 min 768 nəfər səs verirdi. Hər kəsin səsvermədə sərbəst iştirakına tam şərait yaradılmışdır.

Seçki prosesini izləyən MDB müşahidə qrupunun üzvü Qədirmed Səfərəliyev də seçicilərin fəallığını xüsusi qeyd etdi. Bildirdi ki, hansı seçki məntəqəsində olduqsa, seçicilərin fəallığının, müstəqil mövqe nümayiş etdirdiklərinin şahidi olduq. Bütün bunlar bizdə uğurlu nəticəyə inamı artırdı.

Səsvermədə ilk dəfə iştirak edən 18 yaşlı Vüsalə Quluzadə həyəcanını gizlətmədi: "Sevinirəm ki, mühüm siyasi kampaniyada - prezident seçkilərində ilk dəfə iştirak edirəm. Namizədlərin sayı kifayət qədərdir. Seçim etmək üçün bizə hər cür şərait yaradılıb. Belə olanda seçim etmək asan olur. Gərək seçdiyin namizədi az-çox tanıyasan, gördüyü işlərə bələd olasan. Siyahıda olan namizədlər haqqında xeyli eşitmişəm. Hər şeyi nəzərə alıb öz seçimimi etmişəm. Doğrusu, səs verdiyim namizədə daha çox inanıram. İnanıram ki, ölkəmizin beynəlxalq səviyyədə təmsil olunmasında, iqtisadiyyatımızın güclənməsində, milli maraqlarımızın müdafiəsində səs verdiyim namizəd potensial gücündən, siyasi bacarığından qədərincə istifadə edəcək. Ən mühüm siyasi keyfiyyətləri özündə cəmləşdirən namizədi seçməklə gələcəyimizə düzgün səs vermiş oluruq".

Nizami rayonunun ayrı-ayrı seçki dairələrində xəstələrin, əlillərin, fiziki imkanları məhdud olanların səsvermədə iştirakına tam şərait yaradılıb. Seçki bülletenlərinin səyyar xidmət yolu ilə bu təbəqədən olan seçicilərə çatdırılması nümunəvi təşkil olunub. Seçkini izləyən beynəlxalq müşahidəçilər də bu məsələyə xüsusi dəyər verirdilər. Onların fikrincə, bütün bunlar beynəlxalq tələblərə tam uyğun gəlir.

# yüksək fəallıq göstərdilər





























## Xəzər

Paytaxtın digər rayonlarında olduğu kimi, Xəzər rayonunda da seçicilər fəal idi. Seçki prosesini izləmək üçün bir neçə məntəqəyə baş çəkdik. Hər kəsə istədiyi namizədə azad, sərbəst və demokratik şəraitdə səs verməsi üçün şərait yaradılmışdı. Səsvermə otaqları qanunvericiliyin tələblərinə uyğun təşkil olunmuş və yeni informasiya texnologiyasının üstünlüklərinə geniş yer ayrılmışdı.

Rayonda seçki prosesi ilə tanış olmaq üçün 13 saylı Xəzər-Pirallahı seçki dairəsinin Mərdəkan qəsəbəsindəki mədəniyyət sarayında yerləşən 2 və 1 saylı seçki məntəqəsində olduq. Öncə həm beynəlxalq, həm də yerli müşahidəçilərin fikirlərini öyrəndik. Bildirdilər ki, seçki demokratik və azad formada keçir. Heç bir neqativ hal qeydə alınmayıb. Məntəqədə öz təşəbbüsü ilə müşahidəçi kimi iştirak edən İradə Babayeva və Yeni Azərbaycan Partiyasının təmsilçisi, müşahidəçi Vəfa Məmmədova səsvermə prosesində heç bir neqativ halla qarşılaşmadıqlarını və səsvermənin qanunvericiliyin tələblərinə uyğun keçirildiyini bildirdilər.

Seçicilər də onlara heç bir müdaxilənin olmadığını dedilər. Məmməd Əliyev, həyat yoldaşı Minayə və oğlu İlkin məntəqədəki şəraitdən razı qaldıqlarını bildirdilər: "Buradakı insanlar bir-birini yaxşı tanıyır. Bu səbəbdən çoxları ailə üzvləri, qonşuları ilə birlikdə səsverməyə gəlir. Biz də yığışıb ailəliklə vətəndaş mövqeyimizi bildirmək, real həyatımıza, ölkəmizin nailiyyətlərinə, gələcək perspektivinə qiymət vermək istədik. Mən şübhə etmirəm ki, yoldaşım və oğlum da mənim kimi ölkəmizin gələcək inkişafına, onu qurub yaradan və qoruyan adama səs veriblər".

14 saylı Xəzər seçki dairəsinin olduğumuz bir neçə məntəqəsində də eyni vəziyyəti müşahidə etdik. Seçki məntəqələrində seçicilərin fəallığı hiss olunurdu. Fikirlərini öyrəndiyimiz seçicilər səsvermənin gedişatından məmnun olduqlarını və öz namizədlərinə böyük ümidlə səs verdiklərini bildirdilər. Məntəqələrdə hər bir partiyanın təmsilçisinə sərbəst şəkildə seçki prosesini müşahidə etmək üçün imkan yaradılmışdı.

24 yaşlı seçici Kamran Quliyev ikinci dəfədir prezident seçkilərində iştirak etdiyini və hər dəfə də seçimində yanılmadığını dedi: "Seçkilərdə iştirak etməyi vətəndaşlıq borcu bilirəm, məncə, hər kəs öz borcunu yerinə yetirməli, özünün, ölkəsinin gələcək taleyində maraqlı olmalıdır. Odur ki, səsvermə hüququm çatandan ölkədə keçirilən bütün seçkilərdə iştirak edirəm".

Ümumilikdə Xəzər rayonunda 2 seçki dairəsi üzrə 73 seçki məntəqəsi fəaliyyət göstərirdi. Bütün məntəqələr daxil olmaqla rayonda 91 min 464 seçici qeydiyyata alınmışdı. Onlardan 44 min 419 nəfəri 13 saylı Xəzər-Pirallahı seçki dairəsinin, 47 min 45 nəfəri isə 14 saylı Xəzər seçki dairəsinin payına düşür.

## Suraxanı

Suraxanı rayonunda da seçkilər yüksək səviyyədə demokratik şəraitdə keçdi. Müşahidə apardığımız bir neçə seçki məntəqəsində də bunun şahidi olduq.

İlk baş çəkdiyimiz məntəqə 30 saylı Suraxanı 1-ci seçki dairəsinin 2 saylı məntəqəsi oldu. Səsvermə başlanan ilk saatlardan seçicilərin fəallığı diqqət çəkirdi. İnsanlar yüksək əhvali-ruhiyyədə idilər.

31 saylı Suraxanı ikinci seçki dairəsinin 104 nömrəli tam orta məktəbinin binasında yerləşən 4 saylı seçki məntəqəsinin seçkilərə yüksək səviyyədə hazırlaşdığı aydın hiss olunurdu. Məktəbdə yerləşən seçki məntəqəsinin girişi, ətrafı və səsvermə üçün ayrılan yerlərin səliqə-sahmanı, eyni zamanda təhlükəsizliyin təşkili o dəqiqə nəzərə çarpırdı.

Məntəqəyə səsvermənin başlamasından təxminən 2 saat sonra yollanmışdıq. Seçicilər fəal idilər. Onlar bir-bir, iki-iki və bəzən də ailəliklə gəlib səs verirdilər. Məntəqə seçki komissiyasının sədri Kərəm Mehdiyev səsvermənin tam normal keçdiyini və şəffaflığın qorunmasına ciddi nəzarət olunduğunu bildirdi: "Vətəndaşların səsvermə hüququndan istifadə etməsi və istədikləri namizədə səs vermələri üçün hər bir şərait yaradılıb". Məntəqədə öz təşəbbüsü ilə müşahidəçi kimi iştirak edən Əli Eminli dedi ki, seçki qanunauyğun keçirilir: "Heç bir qayda pozuntusu müşahidə edilməyib. Hər kəs sərbəst və maneəsiz şəkildə layıq bildiyi namizədə dəstək olur".

32 saylı Suraxanı 3-cü seçki dairəsinin Əmircan qəsəbəsindəki 1 saylı seçki məntəqəsində də seçicilərin fəallığı müşahidə olunurdu. Xüsusilə gənclər daha çox fəal idilər. Onlar təəssüratlarını, hansı namizədə səs verdikləri haqqında fikirlərini bölüşməkdən çəkinmirdilər. Söhbət zamanı əksər gənclərin fikirləri üst-üstə düşürdü. Onlar Azərbaycanda gənclərə xüsusi dövlət qayğısının, himayəsinin təzahürlərini real olaraq gördüklərini və bundan da faydalandıqlarını bildirdilər.

Baş çəkdiyimiz 2, 7, 11, 14, 20 və 26 saylı seçki məntəqələrində də eyni vəziyyəti müşahidə etdik. Məntəqələrin hər birində seçicilər sərbəst şəkildə öz hüquqlarından istifadə edirdilər. Səsvermənin nizamlı, səliqəli təşkil olunması, vətəndaşlara maneə və müdaxiləsiz hüquqlarını icra etməsi üçün yaradılan şərait seçicilərin səsvermə prosesinə yüksək həvəslə qatılmasına ciddi təsir etmişdi.

Beləcə, ölkədə son dərəcə əhəmiyyətli ictimai-siyasi hadisə olan prezident seçkilərində suraxanılılar da fəallıq nümayiş etdirdilər. Qeyd edək ki, 115 mindən yuxarı seçicinin qeydiyyata alındığı Suraxanı rayonunda 3 seçki dairəsi üzrə 89 seçki məntəqəsində səsvermə keçirildi.

## Xətai

Xətai rayonunun 33, 34, 35 və 36-cı dairə seçki komissiyalarında 175287 seçici var. 131 məntəqədə səs verən seçicilər üçün hər cür şərait yaradılmışdır. 36-cı DSK-nın eyni sayda səsvermə məntəqəsində 44265 seçici qeydə alınmışdır. Müşahidə apardığımız 8, 9 və 10 saylı seçki məntəqələrində xeyli fəallıq var idi. Səsverməyə gələnlər bülleten almazdan əvvəl seçki qanunvericiliyinə uyğun olaraq ciddi yoxlamadan keçirdilər. Seçicilərin şəxsiyyət vəsiqələri və ultrabənövşəyi şüa ilə onların başqa məntəqələrdə səs verib-verməmələri yoxlanılırdı. Məntəqələrin bir çoxunda müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunub, veb-kamera quraşdırılıb.

Seçki prosesini bir çox yerli və xarici müşahidəçi izləyirdi. Onların arasında siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının üzvləri vardı. Seçkilərdə müşahidəçi qismində öz təşəbbüsləri ilə iştirak edənlər də az deyildi.

8 saylı seçki məntəqəsində müşahidəçilik edən Azərbaycan Sosial Demokrat Partiyasının nümayəndəsi Zabilə Hətəmova bizimlə təəssüratlarını bölüşdü: "Seçkilər yüksək səviyyədə təşkil olunmuşdur. Şəffaf, ədalətli bir proses gedir. Heç bir pozuntu qeydə alınmayıb".

Digər müşahidəçilər - Gülnar Sofiyeva (AXCP), Sevinc Sultanova (ADP) və bitərəf Elminaz Paşayeva prosesin azad, şəffaf, heç bir təzyiq olunmadan keçirildiyini bildirdilər.

9 saylı məntəqədə müşahidə aparan xarici qeyri-hökumət təşkilatlarının nümayəndələri və müşahidəçilər seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsindən məmnun qalmışdılar. Bu barədə məlumat verən məntəqə seçki komissiyasının sədri Afət Ələkbərova bildirdi ki, fəallıq yüksək səviyyədədir və hamı sərbəst şəkildə öz namizədinə səs vermək hüququnu həyata keçirir". Burada 5 gənc ilk dəfə səs vermək hüququndan istifadə edib.

Məntəqədə müşahidə aparan müxtəlif partiyaların nümayəndələri - Qərənfil Əlicanova (ADP), Nuranə Dadaşova (YAP), Zərifə İsmayılova (bitərəf) və Ülviyyə İsmayılova (ASDP) bu fikirdə yekdildirlər ki, səsvermə zamanı bütün prosedurlara düzgün və dəqiq riayət olunur.

10 saylı məntəqədə də seçicilər fəallıq nümayiş etdirirdilər. Şahin və Ləman Əsgərovlar səsvermədə 7 yaşlı nəvələri Ənvərlə iştirak edirdilər. Bunun maarifləndirici rolunu qeyd edən Şahin Əsgərov azad, ədalətli, demokratiyaya uyğun seçki keçirmək üçün şəffaflığın tam təmin olunduğunu vurğuladı.

Müşahidəçilər-AXCP nümayəndəsi Esmira Dəmirçiyeva, Məryəm Mehtiyeva (YAP), Zöhrə Aslanova (MMP) səsvermənin şəffaf və pozuntusuz davam etdiyini bildirdilər.

Seçki məntəqəsinin yaxınlığında ELS şirkəti "exit-poll" keçirirdi.

## Sabunçu

27 saylı Sabunçu ikinci seçki dairəsinin 4 saylı seçki məntəqəsinə baş çəkdik. Əvvəlcə həm beynəlxalq, həm də yerli müşahidəçilərin fikirlərini öyrəndik. Seçkinin demokratik və azad formada davam etdiyini, heç bir pozuntunun qeydə alınmadığını söylədilər. Məntəqədə müşahidəçi kimi iştirak edən "Cəbhəçilərin təşəbbüs qrupu"nun nümayəndəsi Şəhla Abdullayeva və Yeni Azərbaycan Partiyasının nümayəndəsi Mehparə Eyyubova səsvermə prosesində heç bir neqativ halla qarşılaşmadıqlarını və səsvermənin qanunvericiliyin tələblərinə uyğun keçirildiyini bildirdilər: "Müşahidə etdiyimiz seçki məntəqəsində ədalətli, şəffaf proses gedir. Seçicilər fəallıq göstərir. Seçici hüququna malik olan hər kəs sərbəst şəkildə öz namizədinə səs verir".

Seçicilər də onlara heç bir müdaxilənin olmadığını, müəyyən etdikləri namizədə rahat şəkildə səs verdiklərini bildirdilər. Bayram Hümbətov, Sevil Ağayeva, Xoşqədəm Qəhrəmanova məntəqədəki şəraitdən razılıq etdilər: "Biz vətəndaş mövqeyimizi bildirmək, öz gələcəyimiz, ölkəmizin uğurları naminə səs vermək üçün gəlmişik".

Məntəqə seçki komissiyasının sədri Fuad Mirzəyev 1444 nəfər seçicinin olduğunu, onların sərbəst səs vermələri üçün hər cür şərait yaradıldığını qeyd etdi.

27 saylı Sabunçu ikinci seçki dairəsinin 29 saylı seçki məntəqəsinə yollandıq. Burada da eyni vəziyyəti müşahidə etdik. Səsvermədə ruh yüksəkliyi ilə iştirak edən hər bir seçici ümidlə öz namizədinə səs verirdi. Fikirlərini öyrəndiyimiz seçicilər səsvermənin gedişatından razı qaldıqlarını dedilər. Səsverməyə iki yaş yarımlıq oğlu Mahmudla gələn Zemfira Ələsgərova və qayınanası Qətibə Ələsgərova, Nailə Hacıyeva, Ayaz Məmmədov bir vətəndaş kimi çox rahat şəkildə məntəqəyə gələrək istədikləri namizədə səs verdiklərindən məmnunluqlarını ifadə etdilər.

Bu məntəqədə də hər bir partiyanın təmsilçisinə sərbəst şəkildə seçki prosesini müşahidə etmək imkanı yaradılmışdı. Müşahidəçi kimi iştirak edən müstəqil namizəd Zahid Orucun nümayəndəsi Aysel Şükürova da, Müasir Müsavat Partiyasının nümayəndəsi Gilas Mehdizadə də seçki prosesinin şəffaf və ədalətli aparıldığını, indiyədək heç bir neqativ halın qeydə alınmadığını bildirdilər.

Məntəqə seçki komissiyasının sədri İradə Bayramova dedi: "1317 nəfər seçicimiz var. Hər şey göz önündədir. Seçki prosesi çox yaxşı səviyyədə, ədalətli şəkildə, şəffaf təşkil olunub, seçicilərimiz fəaldır".

27 saylı Sabunçu ikinci seçki dairəsinin 38 saylı seçki məntəqəsində də seçicilər fəallıq göstərir və sərbəst şəkildə hüquqlarından yararlanırdılar. Məntəqə seçki komissiyasının sədri Telman Novruzov da seçicilərin fəallığını xüsusi diqqətə çatdırdı: "1250 seçicimiz var. Məntəqəmizdə seçkinin demokratik, ədalətli şəkildə keçirilməsi və prezidentliyə namizədlərin nümayəndələrinin prosesi izləməsi üçün bütün lazımi şərait yaradılıb".

26 saylı Sabunçu birinci seçki dairəsi və 28 saylı Sabunçu üçüncü seçki dairəsinin 6, 11, 34 və digər seçki məntəqələrində də eyni vəziyyəti müşahidə etdik: səsvermə öz axarı ilə davam edirdi.

Qeyd edək ki, ümumilikdə Sabunçu rayonunda 3 seçki dairəsi üzrə 112 seçki məntəqəsi fəaliyyət göstərirdi. Seçicilərin sayına gəldikdə isə bütün məntəqələr üzrə rayonda 151 min 742 seçici qeydiyyata alınmışdı.

## Qaradağ

Prezident seçkiləri günü ölkənin hər yerində olduğu kimi, Qaradağ-Binəqədi-Yasamal 12 saylı seçki dairəsində də seçici fəallığı müşahidə olunurdu. Seçki dairəsinin 37 məntəqəsindən 12-də veb-kameralar quraşdırılmış, məntəqələr digər texniki vasitələrlə təmin edilmişdi.

Dairənin 9 saylı məntəqə seçki komissiyasının sədri Marina Hüseynli bildirdi ki, məntəqədə namizədlərin və qeyri-hökumət təşkilatlarının nümayəndələri seçkinin gedişini müşahidə edirlər. Bundan başqa, məntəqədə ATƏT-in Estoniyadan olan müşahidəçiləri də seçkiləri izləyirlər. İstər yerli, istərsə də beynəlxalq müşahidəçilər seçkilərin demokratik və şəffaf keçməsini təsdiq edirlər. Onlar tərəfindən qanun pozuntusu qeydə alınmayıb.

Seçici Tofiq Hafizov dedi ki, yaşlı adamam, dünyanın gedişatından da xəbərim var. Dünyada gedən müharibələri, dağıntıları, insan ölümlərini və göz yaşlarını hər gün televiziyadan seyr edirik. Ona görə də ölkəmizdəki sabitliyin, inkişafın davam etməsi üçün ən layiqli namizədə səs verdim.

Dairənin 1 saylı məntəqə seçki komissiyasının sədri İntizar İsmayılova bildirdi ki, məntəqədə seçkinin gedişini izləmək üçün veb-kameralar quraşdırılıb. Bütün namizədlərin və qeyri-hökumət təşkilatlarının nümayəndələrinə seçkinin gedişini izləmək üçün lazım olan şərait yaradılıb. Məntəqədə beynəlxalq təşkilatların nümayəndələri də seçki prosesini yaxından izləyirdi. Onlar tərəfindən seçkilərin keçirilməsində qanun pozuntusu barədə heç bir irad bildirilməyib. Seçki prosesində vətəndaşlar mütəşəkkil iştirak ediblər.

Seçici Xuraman Həsənova söylədi ki, bir qadın kimi ölkədə olan inkişafdan, sabitlikdən razıdır. Bildirdi ki, onun üçün ən önəmlisi ölkədə olan əmin-amanlığın qorunmasıdır: "İstəyirəm ki, balalarımız rahat yaşasınlar. Buna görə də ölkədə aparılan indiki siyasəti dəstəkləyərək ən layiqli namizədə səs verdim. Mən ölkəmizin inkişafına, əmin-amanlığına səs verdim".

## Yasamal

Yasamal rayonunun ərazində 15, 16,17 saylı 3 dairə seçki komissiyası və 12 saylı bir müştərək dairə seçki komissiyası var. 92 daimi məntəqədə seçkilər keçirilir. Seçicilərin sayı 120799 nəfərdir.

Əvvəlcə internetdə onlayn rejimdə bu rayonda keçirilən seçkiləri məntəqə-məntəqə izlədik, seçkilərin səliqəli, qüsursuz təşkil edildiyini gördük. Buna baxmayaraq, prosesi yerində izləmək üçün 16 saylı dairə seçki komissiyasının 23 saylı seçki məntəqəsinə baş çəkdik. Məntəqənin sədri İlahə Əliyeva seçkinin şəffaf keçdiyini, seçicilərin xüsusi fəallığını və tədbiri izləyən beynəlxalq və yerli müşahidəçilərin aktivliyini qeyd etdi.

Biz seçki məntəqəsinin qarşısında ağbirçək qadınla tanış olduq. Solmaz Kərimova dedi ki, 79 yaşı var, başını da bir dəfə həcc ziyarətinə gedəndə pasporta şəkil çəkdirmək üçün açıb. "Kimə səs verdin, ana?" - deyib soruşuruq.

- Qada-bala, ölüm-itim çox görmüşəm, oğul. Biz qocalar üçün bugünkü əmin-amanlıqdan qiymətli heç nə yoxdur. Kim bizə bu sülhü yaradıbsa, kim ölkənin dinc yaşaması üçün canını qoyubsa, elə ona da səs verdim. Mən ara qarışdırana, qana çağırana, boğazdan yuxarı danışana səs verə bilmərəm.

17 saylı dairə seçki komissiyasının sədri Qədir Kazımovla görüşdük. Dairənin 28 daimi, 30 müvəqqəti seçki məntəqəsində 40068 seçici səs vermişdir. Daimi seçki məntəqələri rayonun ərazisində, müvəqqəti seçki məntəqələrinin 29-u isə xarici ölkələrdəki səfirlik və konsulluqlarda yerləşir. "Şərqdə seçkilər qurtarıb, Qərbdə isə seçicilərimiz hələ oyanmayıblar" - deyən Qədir müəllim izah edir ki, "Pekinlə Los-Anceles arasında saat fərqi belədir. Dünyanın bir üzündə gün günortadan keçir, o biri üzündə isə gecə yarıdır, hələ sübhə saatlar var.

Qədir müəllimlə söhbətimiz uzun çəkmədi. Çünki müxtəlif ölkələrdəki səfirliklərdən və konsulluqlardan zənglər gəlir, məlumatlar verilirdi. Bu azmış kimi Mərkəzi Seçki Komissiyasından da zəng vurdular ki, 17 saylı dairə seçki komissiyasının ərazində 52 saylı məktəbdə seçki qutusunun şəffaf olmaması ilə bağlı KİV-ə məlumat verilib. Qədir müəllim təcili DSK-nın üzvlərindən bir neçəsini həmin əraziyə göndərdi ki, araşdırsınlar, qutuların da şəklini çəksinlər. Aydın oldu ki, bütün qutular şəffafdır və 52 saylı məktəbin də bu seçki dairəsinə heç bir aidiyyəti yoxdur.

16 saylı dairə seçki komissiyasının 25 saylı seçki məntəqəsində də seçici fəallığının şahidi olduq. Məntəqə seçicilərlə dolu olsa da, ciddi nizam-intizam var idi, sakitlik hökm sürürdü.

***"Azərbaycan"***

# Məcburi köçkünlərin seçimi dəyişməzdir:

# yalnız İLHAM ƏLİYEV!

















Ölkəmizdə müstəqilliyin bərpasından sonra keçirilən sayca 8-ci prezident seçkiləri dövlətimizin və xalqımızın tarixinə, taleyinə mühüm hadisə kimi yazıldı. Azad, demokratik şəraitdə özünün seçmək və seçilmək hüquqlarından istifadə edən xalqımız növbəti dəfə də seçkilərin yüksək səviyyədə, beynəlxalq standartlara uyğun keçirilməsi üçün siyasi fəallıq göstərdi. Dünən seçki məntəqələrində şahidi olduğumuz yüksək əhval-ruhiyyənin səbəbləri az deyildi. Ən başlıcası, hazırlıq dövründə tədbirlərin səmərəli təşkili idi.

Seçkilərdə iştirak edənlərin bir hissəsi də Ermənistanın təcavüzkar siyasəti nəticəsində torpaqlarının 20 faizi işğala məruz qalan məcburi köçkün soydaşlarımız idi. Həmin kateqoriyaya daxil olan seçicilərin bu siyasi kampaniyada fəal iştirakını təmin etmək üçün zəruri şərait yaradılmışdır. Xatırladaq ki, məcburi köçkünlərin həyat tərzinin yüksəldilməsi, mənzil-məişətinin yaxşılaşdırılması üçün salınmış yüzdən artıq müasir tipli, bütün infrastruktura malik qəsəbələrdə də seçicilərin azad və demokratik şəraitdə öz iradələrini ifadə etməsi üçün məntəqələr fəaliyyət göstərir.

Bakı şəhəri və Abşeron rayonu ərazisində də belə qəsəbələr və yeni yaşayış məhəllələri az deyil. Qaradağ rayonunun Müşfiqabad qəsəbəsindəki yeni məhəllədə Ağdam, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarından olan məcburi köçkünlər üçün fəaliyyət göstərən bir neçə seçki məntəqəsinə baş çəkib, onların səsvermə ilə bağlı fikirlərini öyrəndik.

118 saylı Ağdam şəhər seçki dairəsinin 46 saylı seçki məntəqəsində prezident seçkilərinə ciddi hazırlıq görüldüyü bir anlıqdan hiss olunurdu. Məntəqə seçki komissiyasının sədri Nəsibə Hüseynova bildirdi ki, ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən seçkilərin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılıb. 1261 seçicidən 3 nəfəri bu il ilk dəfə səs verməyə gəlib.

Səs verməyə gələnlərin arasında iki nəfər diqqəti daha çox cəlb edirdi. Onlardan biri ömrünün ixtiyar çağlarında olsa belə, Qarabağa qayıtmaq ümidi ilə yaşayan Balış Behbudova gənc nəslə örnək olsun deyə, səsvermədə iştirakı özünün borcu sayıb. Balış nənənin ağbirçək xeyir-duası ilə həqiqi hərbi xidmətə yola düşəcək 18 yaşlı Hüseynov Fərid Məqsəd oğlu isə ilk dəfə idi ki, səs verir, ölkə prezidentinin seçilməsində iştirak edirdi.

Balış Behbudova səs verdikdən sonra məntəqədən ayrılarkən üzünü gənc nəslə tutaraq dedi: "Mən ömrümün bu çağında səhv edə bilmərəm. Balalarıma da demişəm: ulu öndər Heydər Əliyevin haqq yolunu davam etdirən onun varisi, xalqımızın sevimlisi, ölkəmizi, dövlətimizi dünyada tanıdan, Qarabağımızı işğaldan azad etmək üçün var qüvvəsini əsirgəməyən, prezidentliyə ən layiqli namizədə - İlham Heydər oğlu Əliyevə səs verdim! Buna mənim haqqım çatır!"

Seçki məntəqəsində Milli Dirçəliş, Azərbaycan Demokratik, Bütöv Azərbaycan Xalq Cəbhəsi partiyalarının nümayəndələri ilə yanaşı, öz təşəbbüsü ilə seçkilərin gedişini izləyən Aynurə Qədimova, Nərminə Orucova və Rəşad Muradov da müşahidəçi kimi seçicilərin fəallığının müəyyən səbəblərlə bağlı olduğunu bildirdilər.

Müşfiqabad qəsəbəsindəki 83 saylı Ağcabədi-Füzuli seçki dairəsinin 41 saylı, 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin 71 saylı, həmçinin 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 28 saylı seçki məntəqələrində seçicilərin əksəriyyətinin səsvermədə iştirak etdiklərinin şahidinə çevrildik. Gənc, orta və yaşlı nəslin nümayəndələri səsvermədə mütəşəkkillik nümayiş etdirirdilər.

123 saylı Kəlbəcər seçki dairəsinin komissiya sədri Adil Murtuzayevdən aldığımız məlumata əsasən, 50 min 454 kəlbəcərli seçici hüququna malikdir. Respublikanın 54 şəhər və rayonunun ayrı-ayrı yaşayış məntəqələrində məskunlaşmış kəlbəcərlilərin seçkilərdə iştirakı üçün 63 seçki məntəqəsi fəaliyyət göstərir. İlk dəfə səsvermədə iştirak edən kəlbəcərlilərin sayı 336, yaşı 100-dən artıq olanlar isə 16 nəfərdir.

Kəlbəcərlilərin səsvermədə iştirak etdiyi seçki məntəqələrindən biri Bakı şəhərinin Xətai rayonunda yerləşir. 123 saylı Kəlbəcər seçki dairəsinin 3 saylı seçki məntəqəsinin sədri Fürуzə İsmayılova bildirdi ki, 890 seçicinin səs verməsi üçün burada hər cür şərait yaradılıb: "Seçicilərin fəallığının təmini isə ölkədə yaradılan demokratik şəraitdir. Hər kəsin öz namizədinə səs verməsi üçün hərtərəfli imkan yaradılıb. Günorta saatlarınadək seçicilərin əksəriyyəti səsvermədə iştirak edib".

62 saylı məntəqə isə Abşeron rayonunun Mehdiabad qəsəbəsindəki "Gənclər şəhərciyi"ndə fəaliyyət göstərir. 599 seçicinin səs verməsi üçün burada da hərtərəfli şərait yaradılıb. Məntəqə seçki komissiyasının sədri Nurəddin Hüseynov xüsusi olaraq vurğuladı ki, 81 yaşlı şəhid atası Qədim Məmmədovla, 1934-cü il təvəllüdlü Zərəngiz Niftalı qızı Əliyevanın səsvermədə iştirakı məntəqədən çıxandan sonra açıq şəkildə cənab İlham Əliyevi dəstəkləmələri, müxtəlif siyasi partiyaların müşahidəçilərinin də marağına səbəb oldu.

Abşeron rayonu ərazisindəki 17 saylı seçki məntəqəsində də seçici fəallığının şahidinə çevrildik. Məntəqə seçki komissiyasının sədri Aidə Əhmədova bildirdi ki, prezident seçkiləri ölkəmizin və xalqımızın ictimai-siyasi, həmçinin sosial-mədəni həyatında mühüm rola malikdir.

123 saylı Kəlbəcər seçki dairəsinin 4 saylı seçki məntəqəsində gördüklərimiz əsas verir deyək ki, burada 785 nəfər seçicinin səs verməsinin yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb. 105 yaşlı Xeyransa Baxşəliyeva da seçki məntəqəsinə gələrək öz borcunu yerinə yetirirdi. Məntəqə seçki komissiyasının sədri Əkbər Sarıyevin bildirdiyinə görə, bu dünyagörmüş ağbirçək bütün seçkilərdə məntəqəyə gələrək səs verir. Belə uzunömürlü seçicilərlə yanaşı, ilk dəfə səsvermədə iştirak edən gənclərin seçkilərə münasibəti onların fəallığından irəli gəlirdi.

"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədr müavini, YAP Gənclər Təşkilatının fəalı Həbib Misirov isə qeyd etdi ki, seçkilərin şəffaf, ədalətli şəkildə keçirilməsi üçün hər cür şərait yaradılıb. Ona görə də 106 yaşı olmasına baxmayaraq, Gülbalıyeva Zeynəb Cəlal qızı da səs vermək üçün məntəqəyə gəlib...

Baş çəkdiyimiz məntəqələrin hər birində seçkilərin yüksək səviyyədə keçirildiyinin şahidi olduq. İstər məntəqə seçki komissiyalarının üzvləri, istərsə də müşahidəçilər özlərinin vəzifə və vətəndaşlıq borclarını yerinə yetirirdilər. Buna görə də seçki məntəqələrinə gələnlərin sərbəst, azad və demokratik şəraitdə səs vermələri üçün hər cür şərait yaradıldığını görmək mümkün idi.

Bu həm də bir vətəndaşlıq borcu idi ki, hər kəs seçki məntəqələrinə tələsirdi, sabahlarının daha xoş və firavanlığı üçün səs verməyə...

❖ ❖ ❖

## Ağdam

Tarixin bütün zamanlarında dövlətçiliyə yenilməz sədaqəti ilə seçilən ağdamlılar 11 aprel prezident seçkilərində böyük ruh yüksəkliyi ilə iştirak ediblər. Rayon ərazisinin dörddə üç hissəsi uzun illərdən bəri işğal altında olsa da, bu cəbhə bölgəsinin sakinləri Qarabağın tezliklə işğaldan azad olunacağına inanır, öz fədakarlıqları ilə dövlətin gücünə güc qatırlar.

Ağdam rayonunun İmamqulubəyli kəndində yerləşən 6 saylı seçki məntəqəsindəyik. Məntəqədə qələbəlik müşahidə olunur. Məntəqədən çıxan bir nəfərlə həmsöhbət oluruq. İmamqulubəyli kəndinin sakini Şükür Mirzəyev təəssüratını bizimlə həvəslə paylaşır:

- Mənim xeyli yaşım var. Dünyanın hər üzünü görmüşəm. Dövlətimizin artan qüdrəti, yaradılmış etibarlı sabitlik, əhatə olunduğumuz qayğı bizlərə yaşamaq həvəsi verir. İndi səs verib çıxıram. Kimə səs verdiyim də sirr deyil. Xalqımızı bəlalardan xilas edən ulu öndər Heydər Əliyevin siyasi kursuna, onun layiqli davamçısı İlham Əliyevə səs verdim. Bilirəm ki, kənd sakinlərinin əksəriyyətinin də seçimi belədir. Atalar demiş, görünən kəndə nə bələdçi?! Bu gün İlham Əliyevə alternativ yoxdur.

119 saylı Ağdam kənd seçki dairəsi 42 məntəqəni birləşdirir. Dairə üzrə seçicilərin sayı 42.224 nəfərdir. Dairədə 400 nəfərdən çox müşahidəçi qeydə alınmışdır. Seçkilərin şəffaf, demokratik, obyektiv keçirilməsi üçün vaxtında görülmüş ciddi hazırlıq işlərinin nəticəsidir ki, seçki prosesi heç bir qanun pozuntusuna yol verilmədən davam edir. Xalq seçdiyi namizədə həvəslə, həm də böyük mütəşəkkilliklə səs verir.

## Zəngilan

Sumqayıtda məskunlaşan qaçqın və məcburi köçkünlər də prezident seçkiləri günü məntəqələrə gələrək bu ümumrespublika tədbirində yaxından iştirak etdilər.

Sumqayıt şəhərinin 3-cü mikrorayonunda yerləşən 23 saylı Zəngilan tam orta məktəbin binasında təşkil olunan 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 19 saylı məntəqəsində bunun şahidi olduq. Məntəqənin sədri Ramiz Qulamov bildirdi ki, məntəqə üzrə 1441 nəfər seçici var. Seçkilərə də yaxşı hazırlaşmışıq. Seçicilərimiz də burada yaşayan zəngilanlılardır.

Səsverməyə gələn yaşı 80-ni adlamış Rəşiqə Gülməmmədova bildirdi ki, vaxtilə əmək qabaqcılı olub: "Həmişə öz əlimizin zəhməti ilə çörəyimizi qazanmışıq. 25 ildir ki, Sumqayıtda məskunlaşmışıq. Cocuq Mərcanlının alınıb bizə verilməsi qəlbimizdə sabaha inam yaradıb. Əminəm ki, tezliklə torpaqlarımız azad ediləcək".

Nailə Bayramova söhbətə qoşulub dedi ki, bizə qayğı ilə yanaşırlar. Müavinətlərimiz artırılıb, yaşayış şəraitimiz yaxşılaşıb. 4 nəvəm tələbədir. Bütün bunları düşünəndə necə seçkiyə gəlməyəsən?! Sabahımız elə bizim seçimimizdən asılıdır. Biz də layiq bildiyimiz namizədə səs veririk.

## Qubadlı

Dünən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 53 saylı seçki məntəqəsində yüksək əhval-ruhiyyə var idi. Məntəqə sədri Müşviq Quliyev bildirdi ki, 1487 nəfərin səs verməsi üçün məntəqədə hər bir şərait yaradılıb.

Seçici Teyfur Mahmirzəyev dedi ki, vətən həmişə öz nümunəvi oğul və qızları ilə fəxr edib: "Onlar qarşıya çıxan problemlərin həllində öz dövlətlərinə yardımçı olublar. İnşaallah, gələn seçkiləri öz doğma torpaqlarımızda keçirəcəyik. Mən buna varlığım qədər inanıram".

Yaşı 80-ni adlamış Rauf Şükürov, Səlim Ləmişov, Mübariz Xudiyev və digərləri bildirdilər ki, bu gün ölkəmizdə sabitlikdir, Azərbaycan yalnız irəliyə addımlayır, iqtisadi qüdrətimiz bundan sonra daha da artacaq.

Dairənin 37 saylı məntəqəsində də eyni hadisənin şahidi olduq. 1048 seçicisi olan məntəqədə səsvermənin seçki qanunlarına uyğun aparılması üçün bütün şərait var idi. Bunu müşahidəçilər - öz təşəbbüsü ilə seçkini izləyən Mahir Sarıyev, Vətəndaş Həmrəyliyi Partiyasından Gündüz Salmanov, ADP-dən Cavid İsmayılov da təsdiq etdilər. Cəbhəçilər Təşəbbüs qrupunun məntəqə üzrə müşahidəçisi Əbdüləli İmanov bildirdi ki, artıq neçə dəfədir seçkidə iştirak edir: "Seçkilərin fəallığı yüksəkdir"

Qarabağ müharibəsi veteranı, II qrup əlil Yaqub Vəliyev də seçkinin gedişatından razı qaldığını bildirdi. 85 yaşlı Pərzad Abdullayeva da müharibənin ağır illərini yaşayıb: "Hazırda Sumqayıtda məskunlşmışam. Arzu edirəm, növbəti seçkiləri Qubadlıda keçirək".

## Kəlbəcər

Kəlbəcərli məcburi köçkünlər həmişə olduğu kimi, aprelin 11-də keçirilən prezident seçkilərində də siyasi fəallıq nümayiş etdirmişlər. 123 saylı Kəlbəcər dairə seçki komissiyasının sədri Adil Murtuzayevlə söhbət zamanı dedi ki, dairəni əhatə edən 63 məntəqə üzrə ümumilikdə 50 min 454 nəfər seçici qeydə alınmışdır.

Dairənin 12 saylı məntəqəsi Gəncədəki yeni salınmış qaçqın şəhərciyindəki mədəniyyət evində yerləşir. Biz məntəqəyə daxil olanda çoxlu sayda seçicinin növbə gözlədiyini gördük. Onlar prosedur qaydalarına uyğun olaraq şəxsiyyət vəsiqəsi ilə seçki məntəqəsinin üzvlərinə müraciət edir və adının qarşısında imza edərək, səsvermə bülleteni alaraq kabinəyə daxil olurdular. Seçki tam şəffaf və demokratik şəraitdə keçirdi.

Məntəqə seçki komissiyasının sədri Nizami Əkbərov məlumat verərək dedi ki, burada son dəqiqləşdirməyə əsasən, 1480 seçici səs verməlidir. Günortaya yaxın seçicilərin yarıdan çoxu səsvermədə iştirak edərək, öz münasibətini bildirmişdir.

Bu məntəqədə yaşı 100-dən yuxarı olan 16 nəfər seçici vardır. İlk dəfə səs verənlərin sayı isə 336 nəfərdir. Biz məntəqədə olarkən kəlbəcərli ağsaqqal, yazdığı roman və povestlərlə oxucuların rəğbətini qazanmış Surxay Səlimovla görüşdük. Dedi ki, mən çoxdan səs vermişəm. İndi oturub seçkini seyr edirəm. Yaşlı insanları, gəncləri görəndə ürəyim dağa dönür. Hamıda ruh yüksəkliyi var. Heç bir seçiciyə təzyiq göstərilmir. Hamı ürəyinin səsi ilə istədiyi namizədə səs verir.

Öyrəndik ki, seçki prosesi zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb. Qəsəbədə məskunlaşan kəlbəcərlilər onlara yaradılan bu şəraitə görə dövlətə və dövlət başçısına minnətdarlıq edirdilər.

## Şuşa

Dünən ayrı-ayrı bölgələrdə məskunlaşmış qaçqın və məcburi köçkün soydaşlarımız da seçki məntəqələrinə tələsirdilər. Onların arasında İsmayıllı rayonunda yaşayan məcburi köçkünlər də vardı. Bu rayonda məskunlaşmış 3500 məcburi köçkünün 1826 nəfəri seçmək hüququ olanlar idi. Onlar 6 seçki məntəqəsində səs verirdilər. Məntəqələrdə olaraq onların seçki ilə bağlı fikirlərini öydəndik.

İsmayıllı rayonunda fəaliyyət göstərən Şuşa rayon 15 nömrəli ümumi orta məktəb müəllimi Məmmədxan Almuradov dedi:

- İlk dəfə 1988-ci ildə separatçı ermənilərin təzyiqi nəticəsində qədim oğuz yurdu olan Dərələyəz mahalını tərk edib Şuşa şəhərinə sığındıq. Təzəcə yerimizə isinişmişdik ki, 1992-ci ildə qədim Şuşanın işğala məruz qalması ilə məcburiyyət qarşısında oranı da tərk etdik. Növbəti yaşayış yeri kimi İsmayıllı rayonunu seçdik. Artıq həm qaçqın, həm də məcburi köçkün statusunda idik. İllərlə əldə etdiyimiz nəyimiz vardısa, əvvəl Ermənistanda, sonra isə Şuşada qoyduq. Bura gəldiyimiz ilk gündən qayğı ilə əhatə olunduq.

Laçın rayon Oğuldərə kənd sakini Qalib Məcnunov isə fikrini belə ifadə etdi:

- Rayonumuz işğal olunarkən könüllü döyüşdüyüm üçün ailəmizin yanında olmamışam. Ailə respublikanın fərqli rayonlarında məskunlaşmışdı. Nəhayət, 1996-cı ildə ailəmiz İsmayıllıya gələrək Tircan kəndi yaxınlığındakı ferma binasına sığındıq. Bir il sonra mən də valideynlərimin yanına qayıtdım. İlk günlərdən şəxsi təsərrüfatımızı yaratdıq. Dövlətin dəstəyi, yaradılan münbit şərait nəticəsində maddi vəziyyətimiz tam normaldır. Heç nədən çətinliyimiz yoxdur. Əliboş, bütün var-dövlətini geridə qoyan ailəmiz indiki halından tam məmnundur. Hazırda dördotaqlı və bütün şəraiti ilə təmin olunmuş evdə yaşayırıq.

Ağdam rayonunun Qiyaslı kənd sakini Mahir Vəliyev:

- Ailəmiz Ağdamı tərk edəndə mən könüllü kimi hərbi hissədə olmuşam. Sonradan həqiqi hərbi xidmətə keçirilərək taqım komandiri seçilmişəm. 1992-ci ildə Ağdərə rayonunda gedən döyüşlər zamanı minaya düşərək yaralanmışam. Buna baxmayaraq ümummilli lider hakimiyyətə gəldikdən sonra mən də təzədən orduya qayıtdım. Bu dəfə Ağdamın Şelli kəndində gedən döyüşlərdə ağ ciyərimdən güllə yarası aldım. Ailəmiz 1993-cü ildən İsmayıllı rayonunun "Kökəltmə məntəqəsi" adlanan yaşayış ərazisindədir. Hazırda Prezident təqaüdü, pensiya, məktəbdən maaş və çörəkpulu alıram. Bu da yaşamağımız üçün tam yetərlidir. Məncə, qeyd etdiklərim kimə səs verməyimə ən dolğun cavabdır.

***"Azərbaycan"***

# “Dayağımıza, güvəncimizə, himayədarımıza bir daha etimad göstərdik”








## “Qocalar evi”nin sakinləri prezident seçkilərində fəal iştirak edərək sabitlik və inkişafa, uğurlu gələcəyə səs verdilər

*Aprelin 11-i Azərbaycan dövlətinin və xalqımızın həyatında əlamətdar tarixi və siyasi hadisə olan prezident seçkiləri günü və bu seçkilərlə ölkəmizin demokratik inkişafında növbəti mühüm addımın atıldığı bir hadisə kimi yadda qaldı. Seçicilərin fəallığı və mütəşəkkilliyi şəraitində keçən, ölkəmizdə şəffaf, demokratik seçki ənənəsinin formalaşdığını bir daha dünyaya nümayiş etdirən bu seçkilərdə ölkə vətəndaşları sırasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinin (Qocalar evi) sakinləri də fəal iştirak edərək səs vermək hüquqlarını reallaşdırdılar.*











### 113 nəfər üçün daşınar seçki qutusu

Azərbaycan dövlətinin daim güclənən sosial siyasətini xarakterizə edən əsas cəhətlər sırasında ağsaqqal, ağbirçək insanlara qayğıkeş münasibət göstərilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi, layiqli ömür sürmələrinin təmin edilməsi üçün məqsədyönlü tədbirlərin görülməsi mühüm yer tutur. Dövlətimiz bu təbəqədən olan, lakin müxtəlif səbəblərdən tənha və köməksiz qalmağa məhkum olmuş insanlara dayaq durur, onların ehtiyac duyduqları diqqət və qayğı ilə təmin edilmələri üçün müvafiq tədbirlərin görülməsini təmin edir. Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi də bunun əyani nümunəsidir.

Bütün seçkilərdə olduğu kimi, aprelin 11-ində ölkəmizdə keçirilən prezident seçkilərində də bu müəssisənin sakinlərinin səsvermə hüquqlarından sərbəst şəkildə istifadə etmələri üçün lazımi şərait yaradılıb. Biz müəssisədə olarkən burada yaşayan insanların seçkilərdə iştirak etmələrindən dolayı sanki bir bayram əhvali-ruhiyyəsi keçirdiklərinin şahidi olduq.

Müəssisənin direktoru Qətibə Əsədova bizimlə söhbətində bildirdi ki, burada hazırda 222 nəfər pensiya yaşında olan şəxs yaşayır. Onlardan 113 nəfərinin səhhəti nəzərə alınaraq elə müəssisənin özündə səs vermələri üçün müvafiq seçki məntəqəsinə müraciət edilib və daşınar seçki qutuları müəssisəyə gətirilərək onların səsverməsi təmin edilib. Qalan 109 nəfər şəxs qeydiyyatda olduqları ünvanlar üzrə seçki məntəqələrində, onlardan bir hissəsi isə yaxınlıqdakı seçki məntəqələrində seçkiyə qatılıblar.

Q.Əsədova vurğuladı ki, əvvəlki dövrlərdə bütün seçkilərdə müəssisənin sakinləri fəallıqları, mütəşəkkil olmaları ilə seçiliblər, bu dəfə də belə oldu: “Məlum olduğu kimi, ölkəmizin gələcək taleyinin müəyyənləşdirilməsində prezident seçkiləri xüsusi əhəmiyyətə malikdir. Həm də bu gün Azərbaycan demokratik, azad seçkilərin keçirildiyi bir ölkədir. Ona görə də seçicilər seçkilərdə daim fəal iştirak edirlər. Ölkədə baş verən ictimai-siyasi proseslərə heç vaxt biganə qalmayan bizim müəssisənin sakinləri də prezident seçkilərində böyük həvəslə iştirak etdilər və Azərbaycanın uzunmüddətli inkişafı naminə ən layiqli namizədə səs verdiklərindən məmnunluq hissi keçirdilər”.

Bizimlə söhbətində müəssisənin sakini Davud Əliyev bildirdi ki, Azərbaycan dövləti və xalqı demokratiya yolu ilə inamla irəliləyir. Prezident seçkilərinin də azad, şəffaf və demokratik şəraitdə keçirilməsi bunu təsdiq edir: “Son 15 ildə Azərbaycan çox böyük inkişaf yolu keçib. İqtisadiyyatımız xeyli güclənib, ordumuz indi dünyada qüdrətli ordulardan biridir. Bundan fərəhli heç nə ola bilməz. Ömrümün ixtiyar çağında mən bunları görəndə çox böyük iftixar hissi keçirirəm. Eyni zamanda təkcə Bakıda yox, ölkəmizin bütün rayon və şəhərlərində sürətli inkişaf prosesləri gedir. Bu gün Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada tərəqqi olmasın. Əhalinin yaşayış səviyyəsi daim yaxşılaşır. Bunun üçün dövlətimiz tərəfindən çox uğurlu siyasət aparılır. Əməkhaqları, pensiyalar, müavinətlər, təqaüdlər hər il artırılır ki, bu da əhalinin gəlirlərinin çoxalmasına səbəb olur və yaşayışına müsbət təsir edir. Elə bu ilin fevral ayında da imzalanan fərman və sərəncamlarla əmək pensiyaları, aylıq və birdəfəlik sosial müavinətlər, Prezident təqaüdləri növbəti dəfə artırıldı. Yəni bütün səylər ona yönəlib ki, Azərbaycan vətəndaşı yaxşı yaşasın, sosial sahədə problemlər olmasın. Biz də bunu yaxşı görürük və ahıl vətəndaş olaraq düzgün dəyərləndiririk. Mən də bax bu amili nəzərə alaraq prezidentliyə ən layiqli namizəd olan şəxsə - cənab İlham Əliyevə səs verdim”.

Səsvermədə iştirak etməyin vətəndaşlıq borcu olduğunu qeyd edən digər sakin Həbib Qəmbərov dedi: “Mən də bu gün öz vətəndaşlıq borcumu ödədim. Prezident seçkilərində iştirak etdiyim üçün özümü xoşbəxt sayır və bundan, xüsusilə də bu seçkilərdə ölkəmizin firavan gələcəyi üçün böyük və uğurlu siyasət aparan namizədə - cənab İlham Əliyevə səs verdiyim üçün qürur duyuram”.

### Seçki məntəqələrinə böyük axın

Prezident seçkilərində iştirakın müəssisənin sakinlərinə bəxş etdiyi məmnunluq hissinin əsasında isə ilk növbədə dövlətin bu insanlara xüsusi qayğısı, onların bir vətəndaş kimi hüquqlarının dolğun şəkildə təminatı üçün görülən işlər dayanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hələ 1998-ci ildə həmin müəssisədə ahıl insanlarla görüşündə söylədiyi “Əmin ola bilərsiniz ki, sizin həyatınız, yaşayışınız daim bizim, Prezidentin qayğısı altındadır və bundan sonra da belə olacaqdır” sözləri real həyatda öz təsdiqini tapıb. Ölkəmizdə sosial siyasət kursunun ildən-ilə güclənməsi şəraitində sosial xidmət müəssisələrində, o cümlədən Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində yaşayan vətəndaşların da sosial hüquqlarının dolğun şəkildə reallaşdırılması, rifah halının yaxşılaşdırılması, hərtərəfli təminatlarının artırılması yönündə ardıcıl tədbirlər həyata keçirilib.

Son illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığı əsasında Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində əsaslı təmir və geniş yenidənqurma işləri aparılıb, müasir tələblərə cavab verən 5 mərtəbəli 170 yerlik yeni korpus inşa olunaraq sakinlərin istifadəsinə təqdim olunub. Hər bir otaq lazımi məişət avadanlıqları, o cümlədən soyuducu, televizor və s. ilə təmin edilib. Sakinlər kompleks sosial-məişət və tibbi xidmətlərlə təmin ediliblər. Asudə vaxtlarını mənalı keçirmələri üçün kitabxana və idman zalları, özünüməşğulluq fəaliyyəti, müəyyən əl işləri hazırlamaları üçün emalatxanalar onların istifadəsindədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın böyük hümanizm nümunəsi olan nəcib layihələri sosial xidmət müəssisəsini də əhatə edir və burada tez-tez humanitar məqsədli tədbirlər həyata keçirilir. Eyni zamanda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın tez-tez bu müəssisəyə gələrək ahıl, ağbirçək insanlarla görüşməsi, həmsöhbət olması dövlət himayəsində olan bu insanların qəlbinə fərəh və qürur hissləri bəxş edir.

Sakinlərdən Zəminə Əliyeva ilə də həmsöhbət olduq. O qeyd etdi ki, neçə nəfər şəxsin prezidentliyə namizəd kimi qeydə alınmasından asılı olmayaraq, hər bir vətəndaş istəyir ki, Azərbaycanda özünü göstərən bu inkişaf prosesləri, əmin-amanlıq, sabitlik davam etsin: “ Ona görə də bütün seçicilər, o cümlədən mən bu inkişaf proseslərinin, əmin-amanlığın, sabitliyin, təhlükəsizliyin bundan sonra da davam etməsini, ölkəmizin gələcəkdə də yeni-yeni böyük uğurlar qazanmasını təmin edəcək namizədə - cənab İlham Əliyevə səs verdik. Bu seçimimə görə də çox məmnunam. Çünki hesab edirəm ki, ölkənin inkişafı, xoşbəxt gələcəyi üçün aparılan siyasətə səs verib dəstəkləmək də ölkəyə xeyir verməyin bir formasıdır”.

Məleykə Quluzadə isə səhər saatlarında müvafiq seçki məntəqəsinə gedərək səs verdiyini bildirdi: “Məntəqə açılandan iki saat sonra mən səs verdim. İnsanlar axın-axın məntəqəyə gəlib azad şəkildə səs verirdilər. Mən də həmişə qəlbimdə böyük inam hissi bəslədiyim, xalqa bağlı olan, biz ahıllara həmişə qayğıkeş münasibət göstərən namizədə səs verdim. Ondan da çox razıyıq ki, seçki çox şəffaf, demokratik şəraitdə keçir. Bundan ötrü bütün lazımi işlər aparılmış, eyni zamanda seçicilərin istədiyi namizədə səs verməsi üçün uyğun şərait yaradılmışdı”.

Elmira Əliyeva da seçkilərin demokratik, şəffaf təşkil olunmasından, hər bir seçicinin sərbəst şəkildə səs verməsi üçün yaradılan şəraitdən çox razı qaldığını ifadə etdi: “Mənimlə birgə seçki məntəqəsinə səs verməyə gələnlərin hər birində xoş əhvali-ruhiyyə, nikbinlik gördüm. İnsanlar seçkilərə əsl bayram ovqatı ilə gəlirdilər. Hətta bütün ailə üzvləri ilə gəlib səs verənləri gördüm. Bir vətəndaş kimi çox sevinirəm ki, Azərbaycanın belə demokratik seçki təcrübəsi var. Seçicilər həvəslə gedib səs verir və bundan məmnunluq duyğusu keçirirlər”.

### Ahılların seçim ünvanı dəyişməzdir

Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinin digər sakini Xanım Hümbətovanın dediklərindən: “Əvvəla, dövlətimə, dövlətimizin rəhbərinə çox təşəkkür edirəm ki, bizim üçün bu müəssisədə çox rahat şərait yaradılıb və bizə daim mehriban münasibət var. Burada özümüzü yüksək qayğı əhatəsində hiss edirik. Bir vətəndaş kimi mənim borcum da dövlətimiz üçün vacib olan bir tədbirdə - seçkilərdə fəal iştirak etmək, səs verməkdir. Bizim seçki məntəqəmiz çox uzaqda deyil və bu gün də elə səhər tezdən digər qocalarla birgə rahat şəkildə gedib səs verdik”.

Mina Abakarova isə bildirdi ki, xeyli insan səsverməyə gəlmişdi: “Məntəqədə elə şərait yaradılmışdı ki, hər kəs rahat, sərbəst, normal şəkildə səs versin. Mən də əvvəlki prezident seçkilərində olduğu kimi, bu dəfə də gözəl Vətənimizin təhlükəsiz həyatına, əmin-amanlığına, xoşbəxt gələcəyinə, bunların etibarlı təminatçısı cənab İlham Əliyevə səs verdim. Bundan gözəl, uyğun seçim ola bilməzdi və bu seçimimdən də çox razıyam”. Həmsöhbətlərim onu da qeyd etdilər ki, əlil arabasında olan seçicilər üçün seçki məntəqəsində pandus da quraşdırılmışdı ki, bu da əlilliyi olan seçicilərin seçkilərdə rahat iştirakına şərait yaradılması baxımından çox təqdirəlayiq addımdır.

Söhbət əsnasında müəssisənin sakinləri bildirdilər ki, dinamik inkişaf yolunda olan müstəqil Azərbaycan dövlətinin sosial sahədə apardığı siyasət bir daha onu göstərir ki, bu ölkədə dövlətin gördüyü bütün işlər xalqın rifahına, onun maraq və mənafelərinin təminatına xidmət edir. Bu müəssisədə yaşayan insanlar da bunu öz yaşayışlarında aydın şəkildə hiss edirlər. Əvvəllər tənhalıqdan çox xiffət çəksələr də, Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin qayğısı nəticəsində bu xiffət hissi arxada qalıb və indi onlar heç də özlərini tənha hiss etmirlər, bu evdə mehriban bir ailə kimi, qayğı mühitində yaşayırlar.

Müəssisənin sakinlərindən Eldəniz Xəlilov, Mahmud Qayıbov, Kəklik Məmmədova, Fatma Musayeva, Nina Kalmakarova, Araz Qasımov və digərləri səhhətləri nəzərə alınmaqla müəssisənin elə özündə səs verdiklərini qeyd etdilər. E.Xəlilov bildirdi ki, yataq xəstəsi olan, bu səbəbdən seçki günü səhhətinə görə səs vermək üçün seçki məntəqəsinə gedə bilməyən seçicilərin də səs vermək hüquqlarının reallaşdırılması üçün yaradılan şəraitdən çox razıdır: “Beləliklə də daşınan seçki qutuları buraya gətirilməklə yaşadığımız ünvanda bizim səs vermək hüquqlarımız təmin edilib. Bu da hər bir vətəndaşın hüquqlarına, o cümlədən səsvermə hüququna hörmətlə yanaşıldığını göstərir. Bütün bunlara görə minnətdaram. Hansı namizədə səs vermək məsələsinə qalanda, bu barədə çox fikirləşməyə ehtiyac yox idi, çünki mən də, burada yaşayan bütün insanlar da ulu öndərimiz Heydər Əliyevin ən layiqli davamçısı olan cənab İlham Əliyevdən daim diqqət və qayğı görmüşük. Bu da bizim seçimimizi müəyyən edən əsas amildir”.

M.Qayıbov isə dedi: “Elə bir sahə yoxdur ki, həmin sahədə inkişaf təmin edilməsin. Görün ölkədə nə qədər böyük işlər görülüb. Eyni zamanda uşağa da qayğı var, cavana da, qocaya da. Xalqımız da qədirbilən, ağı qaradan seçəndir, həmişə də ölkənin, əhalinin xeyrinə olan, bizi irəliyə aparan siyasətə tərəfdar çıxıb, dəstəkləyib. Bu seçkilərdə bunun bir daha şahidi olduq”.

Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri söhbət zamanı bir fikri yekdilliklə vurğuladılar ki, Azərbaycan xalqı əvvəlki prezident seçkilərində olduğu kimi, bu seçkidə də öz gələcəyini kimə etibar etmək sualının cavabını çox yaxşı bildiyini göstərdi: yalnız İlham Əliyev!

***Elçin CƏFƏROV, “Azərbaycan”***

---

**Dünən səsvermə hüququna malik olan hər bir Azərbaycan vətəndaşı kimi Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarında xidmət çəkən hərbi qulluqçular və məhkumlar da öz konstitusion huquqlarından istifadə edərək səsvermə prosesində iştirak ediblər.**










# Məhbuslar səsvermədə mütəşəkkil iştirak etdilər

Öncə onu vurğulayaq ki, MDB məkanında ilk dəfə olaraq 2000-ci ildə Azərbaycan Prezidentinin sərəncamına əsasən ölkə miqyaslı seçkilərdə - referendum, parlament və prezident seçkilərində məhbuslar da səsvermə hüququndan istifadə edirlər.

Prezident seçkiləri ilə əlaqədar cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarında 14 seçki dairəsi üzrə 26 seçki məntəqəsi yaradılmışdı. Cəza çəkən məhkumların, eləcə də xidməti vəzifəsini yerinə yetirən hərbi qulluqçuların səsvermə hüququndan sərbəst şəkildə istifadə etməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdi. Elə bunun üçün də cəzaçəkmə müəssisələrində keçirilən səsvermə proseslərində çox fəallıq var idi.

Öncə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin 9 saylı cəzaçəkmə müəssisəsində fəaliyyət göstərən 14 saylı Xəzər seçki dairəsinin 39 saylı seçki məntəqəsində olduq.

Ümumilikdə bu seçki məntəqəsində 321 seçici qeydiyyatdadır. Onlardan 260 nəfəri məhbus, 61 nəfəri isə hərbi qulluqçudur. Məntəqə seçki komissiyasının sədri Sərdar Məmmədov bildirdi ki, saat 10:00-a qədər bütün hərbi qulluqçular səsvermə prosesində iştirak ediblər, məhbusların isə 30 faizi səsvermə hüququndan yararlanıb.

Məntəqəyə daxil olarkən səsvermədə iştirak edən məhbuslara yaradılan şərait diqqətimizi çəkdi. Nizamla növbəyə duran məhbuslar məntəqəyə daxil olaraq əvvəlcə səsvermə siyahısında öz adını müəyyənləşdirir, barmaqları yoxlanılaraq mürəkkəblənir, sonra bülleten alıb səsvermə kabinəsinə daxil olur və öz seçimini edir.





Səsvermədə iştirak edib məntəqədən uzaqlaşmaq istəyən məhbuslardan İmaməddin Abbasov və Rauf Rəhimovla söhbətləşdik. Məhbuslar onlara yaradılan şəraitə görə müəssisə rəhbərliyinə təşəkkürlərini bildirərək qeyd etdilər ki, prezidentliyə namizədlərin təbliğat-təşviqat kampaniyası zamanı onlara lazımi məlumatlar verilib. Bu gün isə sərbəst şəkildə səsvermə hüquqlarından istifadə edərək istədikləri namizədə səs veriblər.

Penitensiar Xidmətin 2 saylı cəzaçəkmə müəssisəsində yerləşən 14 saylı Xəzər seçki dairəsinin 37 saylı seçki məntəqəsində seçici fəallığı müşahidə olunurdu. Burada səsvermə hüququna malik 1283 seçici qeydiyyatdadır. Onların hamısı müəssisədə cəza çəkən məhbuslar idilər. Saat 11:00-a qədər 650 nəfər səsvermə hüququndan yararlanmışdı.

Səsvermədə iştirak edən məhbuslardan Həbib Nəcəfov, Fariz Hümbətov, Elzibar Rufullayev və Ədalət Feyzullayevlə söhbət zamanı aydın oldu ki, buradakı insanlara bayırda, azadlıqda olanlar kimi konstitusion hüququndan istifadə etmələri üçün hər cür şərait yaradılıb. Məhbuslar onların ailələrinə, övladlarına yaxşı olan, yaşadıqları ölkəni inkişaf etmiş dünya dövlətləri sırasına çıxaran, işğal altındakı Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizə aparan, qaçqın və məcburi köçkünlərimizin hər an qayğısına qalan, bir sözlə, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirən liderə səs verdiklərini vurğuladılar: “Azərbaycanın gündən-günə inkişafı göz qabağındadır. Ölkəmiz artıq qüdrətli dövlətə çevrilib. Bütün bunlar düşünülmüş siyasətin nəticəsidir. Düzdür, biz məhbusuq. Amma ailə üzvlərimiz bu gün xoşbəxt, firavan, sakit bir ölkədə yaşayırlar. Bu bizə yetər. Ona görə də hesab edirik ki, Azərbaycanın taleyi etibarlı əllərdədir”.

Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsində də aktivlik var idi. Burada yerləşən 14 saylı Xəzər seçki dairəsinin 38 saylı seçki məntəqəsində 971 nəfər seçki hüququna malik şəxsdən artıq 600 nəfəri səsvermə hüququndan istifadə etmişdi. Yəni saat 12:00-a qədər məntəqədə qeydiyyatda olan seçicinin üçdə iki hissəsi səs vermişdi.

Məntəqə seçki komissiyasının sədri Elşad Kazımov dedi ki, 971 nəfər seçicinin 164 nəfəri hərbi qulluqçu, 807 nəfəri isə məhkumlardır.

Burada səsvermə üçün normal şərait yaradıldığından məhbuslar məmnunluqla prosesdə iştirak edirlər. Səsvermədən sonra söhbətləşdiyimiz məhbus seçicilərdən Babayar Bayramov, Tahir Ağayev və Eldar Bünyadov səsvermənin normal və şəffaf keçdiyini bildirdilər: “Bu gün Azərbaycan xalqının həyatında çox önəmli bir gündür. Çünki xalq özünə lider seçir. Bir məhkum kimi biz öz hüquqlarımızdan istifadə edərək səsimizi ən layiqli namizədə verdik. Xalqımız adına xeyirli-uğurlu olsun”.

Beləliklə, dünən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin müxtəlif cəzaçəkmə müəssisələrində apardığımız müşahidələrə əsasən deyə bilərik ki, xidmətin əməkdaşlarının seçki prosesinə qarışmaması, bütün məntəqələrdə yaradılan lazımi şərait seçkilərin demokratik, ədalətli və şəffaf şəkildə keçirildiyini bir daha təsdiqləmiş oldu.

***Rəşad BAXŞƏLİYEV, Ağaəli MƏMMƏDOV (foto), “Azərbaycan”***

# Bölgələrdə seçkilər azad, ədalətli

















## Naxçıvan

Muxtar respublikada 7 seçki dairəsi üzrə 292 açıq və 24 qapalı seçki məntəqəsi yaradılıb, məntəqələrdə veb-kameralar quraşdırılıb, müşahidəçilər üçün yerlər ayrılıb. Muxtar respublika üzrə 262 min 874 seçici qeydə alınıb ki, onlardan da 1368-i ilk dəfə səs verənlərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 15 saylı seçki məntəqəsində səs verib. Sonra Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb.

Məlumat verilib ki, 15 saylı seçki məntəqəsində 1494 seçicinin səs verməsi nəzərdə tutulub. Əhali mütəşəkkilliklə seçkilərdə iştirak edir. Saat 11:00-a qədər seçki məntəqəsində seçicilərin 30 faizi səs verib.

4 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə 37 məntəqədə 44 min 400 seçici var və onlardan 183 nəfəri ilk dəfə səs verən şəxslərdir.

17 saylı məntəqədə seçicilərin fəallığı müşahidə olunurdu. Məntəqə seçki komissiyasının işində Yeni Azərbaycan Partiyası, Böyük Quruluş Partiyası, Ana Vətən Partiyasının təmsilçiləri və bitərəflər iştirak edirlər.

36 saylı seçki məntəqəsinin yerləşdiyi binaya yaxınlaşarkən burada seçicilərin çoxluğu və yüksək əhvali-ruhiyyə ilə seçkiyə qatılmaq istəkləri diqqətimizi çəkir. Qeyd edək ki, bu məntəqə üzrə seçici siyahısında adı olan seçicilərin sayı 1493 nəfərdir.

1125 nəfər seçicinin qeydiyyatda olduğu Naxçıvan şəhərindəki 1 nömrəli uşaq bağçasının binasında yerləşən 24 saylı seçki məntəqəsində də seçicilərin fəallığı müşahidə olunurdu. Burada seçkiləri yerli müşahidəçilər izləyirdilər.

10 saylı məntəqədə olarkən seçki komissiyasının sədri Pərvin Quliyev bildirdi ki, məntəqənin 1019 nəfər səsvermə hüququ olan seçicisi var. Səhər saatlarından başlayaraq burada seçicilərin fəallığı müşahidə olunur. Səsvermənin gedişində şəffaflığı təmin etmək məqsədilə məntəqədə veb-kamera da quraşdırılıb.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə yerləşən 28 saylı seçki məntəqəsində seçici siyahısında 1488 nəfər seçicinin adı var. Səhər saatlarında seçicilərin fəallığını, xüsusilə gənclərin seçki prosesinə aktiv şəkildə qatılması müşahidə edilirdi. (AZƏRTAC)

## Gəncə

Aprelin 11-də gəncəlilər əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdilər. Səhər tezdən seçki məntəqələrinə üz tutan şəhər sakinləri seçkilərdə fəal iştirak etdilər.

Gəncədə 4 seçki dairəsi üzrə 111 məntəqə fəaliyyət göstərirdi. Məntəqələrin hamısında prezident seçkilərinin demokratik və şəffaf keçirilməsi üçün böyük hazırlıq işləri görülmüşdü. Elə buna görə də seçki prosesi zamanı ciddi qanun pozuntusu qeydə alınmadı.

37 saylı Nizami birinci (Gəncə) seçki dairəsinin 24 saylı məntəqəsi şəhərin mərkəzində, tibb kollecinin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Mehman Rzayev dedi ki, heç bir qanun pozuntusuna yol verilməməsi üçün bütün tədbirlər görülüb. Dairəni əhatə edən seçki məntəqələrindən 10-da veb-kamera quraşdırılıb. Müşahidəçilər üçün lazımi şərait yaradılıb. Müasir Müsavat Partiyasının müşahidəçisi Məhəmməd İsgəndərov dedi ki, səsvermə zamanı heç bir qanun pozuntusu görmədik. İnsanlar sərbəst şəkildə məntəqəyə daxil olaraq istədiyi namizədə ses verdilər.

38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsini əhatə edən 24 məntəqədə 34 min 354 nəfər seçici qeydiyyatdan keçmişdir. Dairənin bütün məntəqələrində görülən yüksək səviyyəli hazırlıq işlərinin nəticəsidir ki, seçki prosesi mütəşəkkilliklə keçdi.

Dairənin 16 saylı məntəqəsi şəhər 5 nömrəli orta məktəbdə yerləşir. Şəhər mərkəzi olduğundan burada daha çox fəallıq hiss olunurdu. Yenicə səs verən seçicilərdən birinə yaxınlaşaraq seçki prosesi barədə fikrini öyrənmək istədik. Elmira Əsgərova dedi ki, Azərbaycan stabil inkişaf yolundadır: “20 il ərzində iqtisadi inkişaf baxımından ölkəmizin lider dövlətlər sırasına yüksəlməsi və bununla da yüksək nüfuz qazanması çox böyük nailiyyətdir. Ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi bizim xoş güzəranımızı, sabitliyimizi təmin edir. Odur ki, bugünkü prezident seçkilərinə böyük həvəslə gələrək daha uğurlu sabahımıza səs verdim”.

40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi 30 məntəqəni əhatə edir. Dairədə 42 min 70 nəfər seçici qeydiyyata alınıb. Onlardan 1308 nəfəri 1 saylı məntəqədə səs verməli idi. Məntəqə seçki komissiyasının sədri Xanlar Mikayılov dedi ki, səsvermə zamanı qanun pozuntusu qeydə alınmayıb: “Bunu müşahidəçilər də təsdiq edə bilərlər. Seçicilərin göstərdikləri fəallıq isə seçkiqabağı təbliğatın uğurla aparılmasının nəticəsidir”.

Seçkilərin gedişi beynəlxalq müşahidəçilər tərəfindən də dəyərləndirildi. ATƏT-in rusiyalı müşahidəçisi Svyatoslav Terentyev və italiyalı müşahidəçisi Erika Mazzukato Staliya ilə 38 saylı Nizami birinci (Gəncə) seçki dairəsinin 10 saylı məntəqəsində görüşdük. Hər iki müşahidəçi qanun pozuntusunun qeydə alınmadığını bildirdi.

Aprelin 11-i Fərid Həsənovun yaddaşından uzun illər silinməyəcək. Seçki günü 18 yaşı tamam olan Fərid ilk dəfə səs verirdi. Bu münasibətlə 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsinin 9 saylı məntəqəsində ona Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun təbrik məktubu oxunduqdan sonra gül dəstələri və xatirə hədiyyəsi təqdim olundu.

## Abşeron

Əhalisinin sayı ilbəil artan Abşeronda sakinlər seçkidə fəal iştirak edib və böyük əksəriyyət səsini ən layiqli namizədə verib.

45 saylı Abşeron seçki dairəsi 36 məntəqəni əhatə edir. DSK sədri Dilşad Abbasova bizimlə söhbətində bildirdi ki, seçki dairəsi üzrə seçicilərin sayı 47671 nəfərdir: “Məntəqələr texniki avadanlıqlarla tam təmin olunub. 12 məntəqədə quraşdırılan kameralar vasitəsilə seçkinin gedişatını birbaşa izləmək mümkündür. DSK üzrə ilk dəfə səsverənlərin sayı 996 nəfərdir. Seçkinin gedişatını 376 müşahidəçi izləyir”.

45 saylı Abşeron seçki dairəsinin 16 saylı seçki məntəqəsi 17 saylı bağçanın binasında fəaliyyət göstərirdi. Məntəqə üzrə seçicilərin sayı 1326 nəfərdir. Məntəqə seçki komissiyasının sədri Münəvvər Cabbarova seçicilərin fəallığından danışdı. Bildirdi ki, məntəqədə seçkini 15 yerli müşahidəçi izləyir: “Nəcəf Quliyev, Rafiq Abbasov, Kəmalə Səfərova, İradə Abdullayeva məntəqə açılan kimi ilk səs verənlərdir. İlk dəfə səs verənlərin sayı isə 5 nəfərdir. Onlara xüsusi hədiyyələrimiz olacaq”.

## Sumqayıt

Sumqayıt seçki məntəqələrinə gələnlərin yüksək əhvali-ruhiyyəsini duymaq çətin deyildi. Şəhərdə 4 seçki dairəsi fəaliyyət göstərirdi. 171775 seçicini birləşdirən Sumqayıtda da səhərdən başlayan səsvermədə şəhər sakinləri yaxından iştirak edirdilər.

42 saylı Sumqayıt II seçki dairəsinin 19 saylı məntəqəsi 13 nömrəli şəhər məktəbində yerləşir. Səhər açılandan insanların deyə-gülə məntəqəyə gəldiklərinin şahidi oluruq. Məntəqə seçki komissiyasının sədri Yaqub Rzayev bildirdi ki, 938 seçicimiz var. Seçkinin ilk saatlarında artıq xeyli seçici gələrək demokratik şəkildə öz namizədlərinə səs verib.

Məntəqədə rastlaşdığımız Famil Cabbarov, Yasəmən Əliyeva, Müşkünaz Novruzova, Rüstəm Rüstəmov, Məmməd Əliyev və başqaları seçkinin gedişatından razı qaldıqlarını bildirdilər. 14 nəfər müşahidəçinin izlədiyi məntəqədə də səsvermənin seçki qanunlarına uyğun aparıldığının şahidi olduq. ADP, Cəbhəçilər təşəbbüs qrupunun, YAP və digər partiyalardan olan müşahidəçilər heç bir qanun pozuntusuna yol verilmədiyini bildirdilər.

42 saylı Sumqayıt II seçki dairəsinin şəhər 3 nömrəli orta məktəbin binasında yerləşən 7 saylı məntəqə seçki komissiyasının sədri Qulu Əbdürrəhmanov prosesin kifayət qədər şəffaf keçdiyini və səsverməyə gələnlərin fəallığının yüksək olduğunu söylədi. 1033 nəfər seçicisi olan bu məntəqədə səsvermə üçün bütün şərait yaradılmışdır. Onun sözlərinə görə, məntəqədə heç bir ciddi qanun pozuntusu qeydə alınmamış, vətəndaşlar sərbəst şəkildə səs vermişlər. Səsverməyə gələnlərdən Rəşad Əliyev, Qəhrəman Kərimov, Rasim Hüseynov, Cəmilə Əliyeva məntəqədə təşkil edilən şəraitdən razı qaldıqlarını bildirdilər.

Məntəqədə seçkinin gedişatını 16 müşahidəçi izləyirdi. ADP-dən olan müşahidəçi Təranə İbrahimova bildirdi ki, partiya üzvü kimi seçkinin aparılmasından razıyam. Burada seçicilər üçün tam demokratik şərait yaradılıb. Milli Dirçəliş Partiyasından müşahidəçi Sərvinaz Cəfərova da onun sözlərini təsdiqlədi.

Həmin seçki dairəsinin 8 saylı məntəqə seçki komissiyasının sədri Ülkər Çəndirli də səsvermənin normal keçdiyini və nəticələrə təsir göstərə biləcək qanun pozuntularına rast gəlinmədiyini söylədi. 1260 seçicisi olan məntəqədə seçicilərin fəallığı aydın görünürdü. Seçici Şəmsiyyə Əsədli qeyd etdi ki, respublikamızın daxili və xarici siyasətində əldə edilən uğurlar yüksəkdir. Əminik ki, səs verdiyimiz namizəd gələcəyimizi daha da nurlu edəcəkdir.

Seçki ərəfəsində məntəqədə ATƏT-dən olan beynəlxalq müşahidəçilər Laenoene Suleks və Katerine Valiskiy ilə də görüşdük. Beynəlxalq müşahidəçilər seçkinin gedişatından razı qaldıqlarını bildirdilər. Onların fikrincə, seçici siyahıları, müşahidəçilər üçün yaradılan şərait idealdır.

Sumqayıtda məskunlaşan qaçqın və məcburi köçkünlər də prezident seçkilərində yaxından iştirak etdilər. 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin 48 saylı seçki məntəqəsinin sədri Şakir Səfərov bildirdi ki, 771 seçicinin səs verəcəyi məntəqədə seçki təlimatına uyğun şərait yaradılıb. Seçicilər Nəsibə Mehdiyeva, Mərziyyə Yusifli, Rübabə Əliyeva və Eldar Cəfərov seçkinin gedişatından razı qaldıqlarını qeyd etdilər. Arzu Ağayeva bildirdi ki, vətənimizin gələcəyini müəyyənləşdirmək hər birimizdən asılıdır. Biz ağdamlılar sabitliyə, dinamik inkişafa səs veririk.

97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin 47 saylı seçki məntəqəsində də böyük canlanma duyulurdu. Məntəqə seçki komissiyasının sədri Adil Quliyev 720 seçicinin səsverməsi üçün hər cür şəraitin yaradıldığını bildirdi.

Aysun Qasımova və Elcan Allahverdiyev Sumqayıt şəhər 6-cı mikrorayonda 20-ci binada yaşayırlar. Aprelin 11-i onların doğum tarixidir.

İlk dəfə səs verəcək gənclər 42 saylı Sumqayıt II seçki dairəsinin 37 saylı məntəqəsində səsverməyə gələndə gəncləri qarşılayan məntəqə üzvləri bildirdilər ki, onları xüsusi sürpriz gözləyir. Hər iki gənci ad günləri münasibətilə təbrik etdilər. Qeyd edildi ki, bu gün gənclərimiz cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada gənclərin gücündən istifadə edilməsin. Bu gün səsvermədə iştirak edən gənclərimiz öz sabahlarına, gələcəklərinə doğru addım atırlar. Sizin üçün ikiqat bayramdır. Ad gününüzü və ilk dəfə səsvermənizi qeyd edirsiniz.

Mərkəzi Seçki Komissiyasının ayırdığı hədiyyələr gənclərə təqdim edildi.

Elcan Allahverdiyev və Aysun Qasımova bülletenlərini götürüb seçki kabinəsinə keçdilər və istədikləri namizədə səs verdilər.

## Lənkəran

Lənkəran rayonunda 4 seçki dairəsi üzrə 116 seçki məntəqəsi var. 73 saylı Lənkəran şəhər seçki dairəsinin əhatə etdiyi ərazidə 28 məntəqə, 74 saylı Lənkəran kənd seçki dairəsinin əhatə etdiyi ərazidə 39 məntəqə, 75 saylı Lənkəran-Masallı seçki dairəsinin Lənkəran rayonunda əhatə etdiyi ərazidə 29 və 76 saylı Lənkəran-Astara seçki dairəsinin Lənkəran rayonunda əhatə etdiyi ərazidə 20 seçki məntəqəsi fəaliyyət göstərir. Rayon üzrə seçicilərin sayı 116 min 117 nəfərdir.

Seçkilərin gedişini birbaşa müşahidə etmək üçün Mərkəzi Seçki Komissiyası tərəfindən Lənkəran rayonunda 22 məntəqədə veb-kamera quraşdırılıb. Səhər 73 saylı Lənkəran şəhər seçki dairəsinin 13 saylı məntəqəsinə baş çəkdik. Məntəqəyə böyük seçici axını var idi. İlk səsvermə bülletenini qutuya Lənkəran şəhər sakini, rayon Ağsaqqallar Şurasının sədri, 96 yaşlı Kamal Kələntərli atdı. Məntəqədən çıxandan sonra dedi ki, seçkilərin obyektiv keçirilməsi üçün ideal şərait yaradılıb. Heç bir maneə, təzyiq yoxdur. Tam sərbəstlikdir. Səsvermə demokratik şəraitdə keçir. Əsl ədalətli seçimdir. Mən haqqa, ədalətə, xalqımızı xoş günlərə aparacaq namizədə səs verdim.

74 saylı Lənkəran kənd seçki dairəsinin Gərmətük qəsəbə orta məktəbində yerləşən 2 saylı məntəqəsində də olduq. Burada da seçici fəallığı yüksək idi. Seçici Sərhad Məmmədov səs verdikdən sonra bildirdi ki, xalqın seçki mədəniyyəti qənaətbəxşdir. Hər kəs növbə ilə bülleteni alıb kabinəyə keçir və seçdiyi namizədə tam azad şəkildə səsini verir. Heç bir komissiya üzvü və ya müşahidəçi seçicilərin seçiminə müdaxilə etmir.

75 saylı Lənkəran-Masallı seçki dairəsinin Lənkəran rayonu üzrə 29 məntəqəsində 28 min 523 nəfər seçici səs verəcəkdi. Bu dairənin 1 saylı məntəqəsində də böyük qələbəlik var idi. Liman şəhər sakini Səyavuş Süleymanlı seçicilərin fəallığı ilə əlaqədar dedi ki, seçki sərbəst və demokratik şəraitdə keçir və hər kəs istədiyi namizədə səs verir.

## Şəki

Şəki istər dairə, istər məntəqə, istərsə də seçici sayına görə ən öndə gedən rayonlardandır. Təsadüfi deyil ki, prezident seçkilərində 113 min 732 şəkili seçici 115 məntəqədə səs verdilər. Dövlətçilik ənənələrinin yaşadığı bu məkanda insanlar seçki məntəqələrinə daha mütəşəkkil şəkildə gələrək vətəndaş həmrəyliyi nümayiş etdirirdilər.

113 saylı Şəki şəhər seçki dairəsinin komissiya sədri Rəhman Qədirzadə bildirdi ki, DSK-nın 29 seçki məntəqəsi var və həmin seçki məntəqələri Mərkəzi Seçki Komissiyası tərəfindən lazımi inventar və texniki avadanlıqlarla təchiz olunub. Seçki dairəsi üzrə səsvermədə iştirak edən seçicilərin sayı 37 min 414 nəfərdən ibarətdir. Seçicilərin 912 nəfəri 80-100 yaş arasındadır. Ümumilikdə seçki dairəsi üzrə 284 nəfər qeydiyyatdan çıxma vəsiqəsi alıb. Prezident seçkilərini izləmək məqsədilə 341 nəfər müşahidəçi seçki dairəsində qeydiyyatdan keçib.

114 saylı Şəki kənd birinci seçki dairəsi Şəki rayonunun Aşağı Göynük kəndində yerləşir. Dairə seçki komissiyasının sədri Məharət Məmmədov məlumat verdi ki, dairə üzrə 43 seçki məntəqəsi fəaliyyət göstərir. Seçicilərin sayı isə 39 min 91 nəfərdir. 7 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Məntəqələr seçki materialları, avadanlıqları və generatorla təmin olunub. Komissiya üzvlərinə seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirilib. Odur ki, seçkilərdə qanun pozuntusu olmadı.

## Ağcabədi

Ağcabədililər hər zaman ölkənin ictimai-siyasi həyatında mühüm əhəmiyyətə malik hadisələrdə fəal və mütəşəkkil iştirak edirlər. Rayon sakinləri aprelin 11-də də fəal vətəndaş mövqeyində olduqlarını inamla nümayiş etdirirlər.

82 saylı Ağcabədi dairə seçki komissiyasında olduq. Komissiyanın sədri Nadir Qürbətov telefon zənglərini səbr və təmkinlə dinləyir, seçki məntəqələrindən gələn suallara aydın cavablar verirdi. Bizə də dedi ki, istədiyiniz hər hansı seçki məntəqəsində ola bilərsiniz. Hər yerdə normal şərait yaradılmışdır.

Qaravəlli kəndində yerləşən seçki məntəqəsinə baş çəkdik. Səsverməyə gələnlərin xoş ovqatı, yüksək əhvali-ruhiyyəsi aydın hiss olunurdu. Kənd adamları seçki məntəqəsinin qarşısında yaşlı bir qadını əhatəyə almışdılar. Bu, 118 yaşlı seçici Təhməzova Püstə Zümürxan qızı idi. Püstə nənə bizim suallarımıza da həvəslə cavab verdi:

- Mən günümü görüb, dövranımı sürmüşəm. İndi həyat çox gözəldi. Xalqımız firavan yaşayır. Çoxlu oğul-uşağım, nəvəticələrim var. Əksəri ali təhsil alıb. Dövlət xalqa yaxşı baxır. Adam naşükür olmaz. Evimizə qaz gəlir, işığımız keçmir, sudan korluğumuz yoxdur. Tənbəllik etməyib zəhmət çəkənlər, faydalı işin qulpundan yapışanlar yaxşı qazanır, yaxşı da dolanırlar. Bax, bu şəraiti dövlət yaradıb.

## İsmayıllı

Səhər saatlarından İsmayıllı rayonunda seçki fəallığı hiss olunmaqda idi. Azərbaycan Respublikası Cüdo Federasiyasının İsmayıllı Regional Mərkəzində yerləşən 66 saylı seçki məntəqəsində də bunun şahidi olduq. Məntəqə seçki komissiyasının sədri Hidayət Muradov bildirdi ki, seçkiyə start verilməsindən təxminən bir saat keçməsinə baxmayaraq, ciddi fəallıq nümayiş olunmaqdadır. İnsanlar həvəslə məntəqəyə gəlib uyğun bildikləri namizədə səs verərək ərazini tərk edirlər. İlk bir saatda təxminən 200 nəfərə yaxın seçici vətəndaşlıq borcunu yerinə yetirib.

Ümumilikdə isə məntəqənin seçki siyahısında 1131 nəfər seçici var. Seçicilər üçün hər cür şərait yaradılıb.

Seçkinin gedişi ilə bağlı münasibət öyrənmək üçün Azərbaycan Demokrat Partiyasını müşahidəçi qismində təmsil edən Çingiz Məmmədova yaxınlaşırıq. Onun dediklərini təqdim edirik:

- 66 saylı seçki məntəqəsində hazırkı vəziyyətə kimi heç bir kənar hal müşahidə olunmayıb. Hər şey öz qaydasındadır. Seçicilərin də məntəqəyə gəlişində kütləvilik var. Hər kəs rahat şəkildə məntəqəyə daxil olaraq seçki siyahısında adını tapır, sonra şəxsiyyət vəsiqəsini təqdim edərək bülleten götürüb lazım bildiyi namizədə səs verir.

İsmayıllı Rayon Olimpiya Mərkəzi məsafə baxımından bir qədər aralıda yerləşməsinə baxmayaraq, buradakı 59 saylı seçki məntəqəsində fəallıq müşahidə edilməkdə idi. Məntəqə seçki komissiyasının sədri Lətifə Həmidova 1187 seçiciləri olduğunu bildirdi. O, indiyədək belə seçici fəallığı ilə rastlaşmadığını nəzərə çatdırdı. Qeyd etdi ki, seçkiyə start verildiyi vaxtdan cəmi saat yarım keçməsinə baxmayaraq, seçicilərin təxminən 20 faizi artıq səsini verib.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasından 59 saylı məntəqənin üzvü Ceyran Ağayeva da seçkinin gedişindən razılığını ifadə etdi. Bildirdi ki, seçki başlandığı vaxtdan heç bir maneə ilə rastlaşmayıblar. Hər şey öz qaydasındadır. İnsanlar sərbəst şəkildə gəlib səslərini verib qayıdırlar. Şəffaflıq tam şəkildə gözlənilir.

Karate üzrə baş məşqçi Anar Həsənov da seçki ilə bağlı münasibətini bildirdi:

- Biz idmançılar daim dövlət dəstəyi ilə əhatə olunmuşuq. Buna görə də dövlətimizə sonsuz minnətdarlığımızı bildiririk. Hazırkı seçkidə iştirak etməklə hər bir vətəndaş, o cümlədən də mən xalqımızın firavanlığı, gənclərin inkişafı, ölkəmizin tanıdılması, ən vacibi isə sabitliyimizə təminat verən, idmanımızı bundan sonra da yüksək zirvələrə qaldırmağa qadir olan namizədə səs veririk. İnanırıq ki, müharibə vəziyyətində olan ölkəmizə bundan sonra da onu qələbələrə aparmağa qadir olan şəxs rəhbərlik edəcək.

## Cəlilabad

Cəlilabad rayonu keçən prezident seçkilərindən sonrakı dövr ərzində daha da inkişaf etmiş, abadlaşmışdır. Yeni-yeni ictimai binalar, yaşayış evləri, təhsl, səhiyyə, mədəniyyət ocaqları tikilib istifadəyə verilmiş, parklar, xiyabanlar salınmış, qəsəbə və kəndlərə yollar, təbii qaz xətləri çəkilmişdir. Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil artmış, əhalinin sosial rifahı yaxşılaşmışdır. Dövlətçiliyə həmişə sədaqətli olan cəlilabadlılar elə buna görə də prezident seçkilərində fəal iştirak etmək üçün məntəqələrə axışırdılar. Üç dairə üzrə 20 məntəqədə veb-kamera quraşdırılmışdı.

67 saylı Cəlilabad DSK-nın 7 saylı məntəqəsi rayon mərkəzindəki 4 saylı tam orta məktəbin binasında yerləşir. Səs vermiş seçicilərdən bir neçəsindən təəssüratlarını soruşduq. Seçici Fərqanə Məmmədova belə dedi: “Mən haqqa, ədalətə, inkşafa, əmin-amanlığa səs verdim. Respublikamızda gedən işləri hamımız yaxşı görürük. Belə bir inkişafı, yüksəlişi bizim Cəlilabad rayonunun timsalında da görmək olur. Hər tərəfdə göz-könül oxşayan yeniliklər var. İnsanların gün-güzəranı yaxşılaşır. İndi elə ev tapmaq çətindir ki, orada şəxsi minik maşını olmasın. Bütün bunlara, aparılan düzgün siyasətə, ulu öndər Heydər Əliyevin siyasətinə səs verdim”.

68 saylı Cəlilabad kənd seçki dairəsinin 2 saylı məntəqəsində müşahidəçilər üçün xüsusi yer təşkil olunmuşdu. Onlar seçkilərin gedişinə nəzarət edirdilər. ADP-nin müşahidəçisi Zamiq Əsgərov və BAXCP-nin müşahidəçisi Təzəbəy Mirzəyev də burada idilər. Seçkilərin gedişi ilə bağlı fikirlərini soruşduqda dedilər ki, seçkilər azad, şəffaf, demokratik şəraitdə keçir. Saat 15-ə kimi heç bir qanun pozuntusu ilə qarşılaşmamışıq.

## Sabirabad

63 saylı Sabirabad birinci seçki dairəsi 35 seçki məntəqəsini əhatə edir. Dairə üzrə seçici siyahılarına 41.105 nəfərin adı daxil edilmişdir. İlk dəfə səs verənlərin sayı 973 nəfərdir.

Qalaqayın kəndindəki 16 saylı seçki məntəqəsində qələbəlikdir. Yaz-tarla işlərinin vüsət aldığı bu günlərdə kənd sakinləri səhər tezdən səsvermədə iştirak etdikdən sonra təsərrüfat işləri ilə məşğul olmağa tələsirlər. Həyacanlı görkəmi ilə diqqət çəkən gənc oğlanla tanış olduq.

# və şəffaf şəraitdə keçirildi













Dedi ki, Qalağayın kənd sakini Əlizadə Elyaz Namik oğluyam. Bu gün 18 yaşım tamam olur. Həyəcanlı olmağım ilk dəfə səs verməyim ilə bağlıdır.

Artıq ölkənin tam hüquqlu vətəndaşıyam. İndi mənim səsim də xalqın səsinə qarışır. Ailəmiz üçün bu, ikiqat sevincdir. Vətən qarşısında borcumu şərəflə yerinə yetirmək, bir əsgər kimi vətənə ləyaqətlə xidmət etmək əzmindəyəm.

Onu da qeyd edək ki, 63 saylı Sabirabad birinci və 64 saylı Sabirabad ikinci dairə seçki komissiyalarının əhatə etdiyi məntəqələrdə heç bir qanun pozuntusu müşahidə edilməyib. Səsvermə hüququ olan hər kəs istədiyi namizədə səs verib, arzusunu sərbəst şəkildə həyata keçirib.

## Zaqatala

Zaqatala rayonunda fəaliyyət göstərən 110 və 111 saylı seçki dairələrinin məntəqə seçki komissiyalarında da ölkəmizin ictimai-siyasi həyatı üçün mühüm əhəmiyyət daşıyan prezident seçkilərinə hər bir seçici öz töhfəsini verir, vətəndaşlıq borcunu yerinə yetirirdi.

Ümumilikdə iki DSK üzrə 76 məntəqədə 77 min 140 nəfər seçici var.

110 saylı Zaqatala seçki dairəsinin tərkibinə daxil olan 47 seçki məntəqəsi üzrə 47 min 360 seçici qeydə alınıb. Onlardan 1020 nəfəri bu seçkilərdə ilk dəfə səs verir. Onların 920 nəfəri 80-100 yaş arasında, 4 seçicinin yaşı isə 100-dən yuxarıdır.

111 saylı Zaqatala-Balakən seçki dairəsinin tərkibinə daxil olan 44 seçki məntəqəsinin 29-u Zaqatalada, 15-i isə Balakən rayonunda yerləşir. Dairə seçki komissiyasının sədri Söhrab İsmayılovun sözlərinə görə, dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 46 min 359 seçici qeydə alınıb.

## Qəbələ

Həmişə qonaqlı-qaralı olan Qəbələdə dünən də böyük bir coşqu, qələbəlik vardı. Lakin budəfəki qələbəlik prezident seçkiləri ilə bağlı idi. İnsanları sübh tezdən evlərindən çıxaran da bu idi - vətəndaşlıq məsuliyyəti. Beləcə, onlar qəlblərinin səsinə qulaq asaraq prezident seçkilərində iştirak edib layiq olan namizədə səslərini verdilər.

Ümumilikdə rayon üzrə 64 min 70 nəfər seçici var. 10 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı.

Seçki məntəqələrinin yaşayış məntəqələrində təşkil olunması seçicilərin rahatlığı baxımından xüsusi əhəmiyyətə malikdir. Rayon ərazisindəki sərhəd zastavasında olan seçicilərin sayı nəzərə alınaraq onlar da yaxınlıqdakı məntəqədə səs verdilər.

78 seçki məntəqəsinin hamısı avadanlıqla təmin olunmuş, rabitə ilə təchiz edilmişdi. 11 məntəqədə isə hərəkət imkanları məhdud olan seçicilərin rahat, sərbəst səs verməsi üçün də tədbirlər görülmüşdü.

## Quba

52 saylı Quba seçki dairəsi üzrə seçicilərin sayı 46810 nəfərdir. Dairə üzrə seçki məntəqələri bütün texniki avadanlıqlarla təmin edilmişdi. Rayon üzrə fəaliyyət göstərən 72 seçki məntəqəsinin 10-da kameralar var idi. 7 kamera rayon mərkəzini, 3-ü isə Vəlvələ, Dağlı və Qəçrəş kəndlərindəki məntəqələri əhatə edirdi.

Dairə üzrə seçkiləri 900-dən çox müşahidəçi izlədi. DSK-nın sədri Mübariz Abasov bildirdi ki, dairə üzrə 386 nəfər ilk dəfə səs verir: "İstər rayon mərkəzi, istərsə də kəndlərdə gənclər öz fəallıqları ilə seçilirlər. 72 məntəqəmizin hər birində seçkinin şəffaf və demokratik keçirilməsi üçün hər bir şərait yaradılıb".

3 saylı məntəqə Quba şəhər 2 saylı məktəb - liseydə təşkil edilib. Məntəqə seçki komissiyasının sədri B.Şükürova da səsvermə üçün bütün şəraitin yaradıldığını bildirdi. Məntəqədə veb-kamera da quraşdırılmışdır.

Seçicilər İlham Paşayev, Faiq Tağıyev, Fariz Rəhmanov, Qoşqar İmanquliyev, Səmayə Qarayeva və digərləri seçkilərin şəffaf keçirildiyini bildirdilər. Akif Quliyev dedi ki, bitərəfdir: "Bu gün keçirilən seçkidə ailəliklə iştirak etdik. Hərə öz seçdiyi namizədə səs verdi".

## Mingəçevir

Ölkənin nəhəng elektrik enerjisi təchizatçısı olan Mingəçevir şəhərinin sakinləri seçkilərdə yüksək mütəşəkkillik və siyasi fəallıq nümayiş etdirirlər. Nur şəhərinin sakinləri səhər saatlarında dəstə-dəstə seçki məntəqələrinə axışırlar. Ötən seçkilərdən keçən dövr ərzində Mingəçevirdə böyük dəyişikliklər baş vermişdir. Ana Kürün ikiyə ayırdığı şəhər son illər sürətlə inkişaf etmiş, daha da gözəlləşib tanınmaz olmuşdur. Burada uğurla reallaşdırılan möhtəşəm sosial layihələr şəhər sakinlərində haqlı razılıq doğurur, hər kəsi doğma yurdun gözəlliyini daha da artırmaq uğrunda hünər göstərməyə ruhlandırır. Mingəçevirdə nəhəng sənaye parkının yaradılması, çoxsaylı yeni fabrik və zavodların fəaliyyətə başlaması işsizlik probleminin uğurlu həllini təmin edir.

Beləcə, mingəçevirlilər prezident seçkilərinə yüksək əhvali-ruhiyyə ilə gedir, davamlı inkişafa, sabitliyə, demokratiyaya səs vermək əzmində olduqlarını nümayiş etdirirlər. Şəhərin mərkəzində yerləşən 15 saylı seçki məntəqəsinin qarşısında xeyli adam toplaşıb. Səs vermək üçün növbəyə dayananlardan birinə yaxınlaşıb həmsöhbət oluruq. Şəhər sakini Baba Əliyev özü haqqında məlumat verərək deyir:

- Bütün şüurlu həyatımı Mingəçevirə həsr etmişəm. Artıq 97 yaşım var. Mingəçevir gözlərimin qabağında tikilib, qurulub. Xoşbəxtəm ki, bu işlərdə mənim də az-çox əməyim olub. Dövlətimizin qayğısı ilə gözəlləşən, hər qarışı cənnətə çevrilən Mingəçevir mənim qürur mənbəyimdir. Mən dinamik inkişafımızı, həyatımızın firavanlığını, xoş güzəranımızı təmin edən, bizi uğurlu illərə qovuşduran siyasi kursa səs verəcəyimi uca səslə bəyan edirəm.

15 saylı seçki məntəqəsinin daxil olduğu 47 saylı Mingəçevir dairə seçki komissiyasına baş çəkirik. Artıq gün yarıdır. Dairə seçki komissiyasının sədri Oqtay Məmmədovla söhbət zamanı öyrənirik ki, dairə 30 məntəqəni əhatə edir. 37490 seçicinin indiyədək təxminən yarısı səsvermədə iştirak edib. Seçkilərin şəffaf, demokratik prinsiplər əsasında keçirilməsi təmin olunub. 12 məntəqədə veb-kamera quraşdırılıb. Hələ ki dairə seçki komissiyasına heç bir şikayət daxil olmamışdır.

## Yevlax

Prezident seçkilərinə hazırlıq mərhələsini uğurla keçən Yevlaxda bayram əhvali-ruhiyyəsi hökm sürürdü. Rayon mərkəzində də, kəndlərdə də qeyri-adi bir canlanma hiss olunurdu. 48 saylı Yevlax dairə seçki komissiyasının sədri Yaşar Abbasov səsvermənin gedişi barədə dedi:

- Artıq səsvermənin başlanmasından iki saat keçir. Seçki məntəqələrindən aldığımız ilk məlumatlar qənaətbəxşdir. Əhalinin seçki prosesində fəal və mütəşəkkil iştirakına nail olmaq üçün vaxtında zəruri hazırlıq tədbirləri görülmüşdür. Şəhər və kəndlərdə ictimai yerlərdə, əhalinin sıx, gediş-gəlişin çox olduğu ərazilərdə seçkilərə çağırış plakatlarının, hər bir evə göndərilən bildirişlərin təsiri kifayət qədər böyükdür. Dairənin əhatə etdiyi 31 seçki məntəqəsinin hamısında səsvermə demokratik şəraitdə, şəffaf və mövcud qanunçuluğun tələblərinə uyğun davam edir. Hələ ki heç bir şikayət, narazılıq yoxdur.

Öyrəndik ki, 48 saylı Yevlax seçki dairəsinin əhatə etdiyi məntəqələrdə 34727 nəfər seçici qeydə alınmışdır. Şəhərdə 20 məntəqə fəaliyyət göstərir. Dairə üzrə 15 seçki məntəqəsinə veb-kamera quraşdırılmışdır.

9 saylı seçki məntəqəsi şəhərin mərkəzində, Heydər Əliyev prospektində yerləşir. Günortaya yaxın olsa da, seçki məntəqəsində qələbəlik idi. Seçici siyahısına daxil edilmiş 1224 nəfərin təxminən 50 faizi artıq səsvermədə iştirak etmişdi. Məntəqə seçki komissiyasının sədri Şaban Həsənov bir dəstə gənci nişan verib dedi ki, onlar ilk dəfə səs verənlərdir. Yaxınlaşıb gənclərlə tanış olduq. Elnarə Müslümlü, Humay Qəhrəmanova, Şahmar Nərimanov, Fidan Bayramlı və digər həmyaşıd dostları həyəcanlı olduqlarını gizlədə bilmirdilər. Fidan Bayramlı dostlarının həyəcanlı olmalarının səbəbini belə ifadə etdi:

- Bu gün səsvermədə iştirak etməklə həyatımızın yeni mərhələsinə qədəm qoyuruq. Seçmək böyük məsuliyyətdir. Gərək doğru seçim edək. Seçim düzgün olanda xeyrini bütün xalq görür.

## Goranboy

Aprelin 11-də Goranboy rayonunun sakinləri daha erkən oyanmışdılar. Küçələrdə get-gəl çoxalmışdı. Ürəkləri qurub-yaratmaq eşqi ilə döyünən gəncləri, el ağsaqqallarını və ağbirçəkləri küçələrə çıxaran bir səbəb var idi ki, o da Azərbaycanın gələcəyinin kimə etibar edilməsi barədə öz sözlərini deməsi idi.

Rayonda 96 saylı Goranboy-Naftalan və 97 saylı Goranboy-Ağdam-Tərtər dairə seçki komissiyası fəaliyyət göstərir. İki dairədən ümumilikdə 105 məntəqədə 84 min 363 seçici səsvermədə iştirak etməli idi. 97 saylı Goranboy-Ağdam-Tərtər dairə seçki komissiyasının sədri Faiq Məhərrəmov söhbət zamanı dedi ki, səsvermə mütəşəkkil və şəffaf şəraitdə keçir. Əvvəlcədən qeydiyyata götürülmüş 3 nəfər xəstənin səs verməsi üçün ayrılmış nümayəndələr onların evlərinə getmiş və səsvermə prosesində iştirakları təmin edilmişdir. Bundan başqa, 6 məntəqədə veb-kamera quraşdırılmışdır ki, bu da seçkilərin şəffaf və demokratik keçməsini təmin edir. Səsvermə prosesində heç bir qanun pozuntusu qeydə alınmamışdır.

Seçki prosesində unudulmaz anlar yaşadan hadisələrdən biri də Zeyvə kəndinin sakini, 101 yaşlı Mərzə Mustafayevanın kənddəki 17 saylı seçki məntəqəsinə gəlməsi oldu. Danışığı səlis, nitqi sərrast olan kənd ağbirçəyi dedi ki, bu gün düzgün seçim etmək hər bir Azərbaycan vətəndaşının borcudur. Gərək elə edək ki, səhv etməyək və bununla da balalarımız, eləcə də nəvə-nəticələrimiz əziyyət çəkməsinlər.

## Saatlı

Aprelin 11-də Saatlı şəhərinin küçələri adi günlərdən daha izdihamlı idi. Rayon sakinləri iki-bir, üç-bir seçki məntəqələrinə axışırdı. 4 saylı seçki məntəqəsinin qarşısında qələbəlik idi. Bu gün ilk dəfə səs verən Ağayev Qurban Qalib oğlu ilə burada tanış olduq. O dedi ki bu günü səbirsizliklə gözləyirdim. Sevincim böyükdür. Artıq seçib-seçilmək hüququ olan bir vətəndaşam. Bu gün mən də əmin-amanlığa, həyat firavanlığına, xoş güzərana səs verdim. Məntəqədə hər kəsin istədiyi namizədə səs verməsi üçün ideal şərait yaradılıb.

Seçki məntəqəsinin sədri Çingiz Fətullayevdən öyrənirik ki, burada seçici siyahılarına 623 nəfərin adı daxil edilmişdir. Bir saat ərzində yüz nəfərdən çox seçici səsvermədə iştirak etmişdir.

62 saylı Saatlı dairə seçki komissiyası 39 məntəqəni əhatə edir. Məntəqələrin 10-u şəhərdə, 29-u isə kəndlərdə yerləşir. 3,4,6, 23 və 25 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılmışdır. Dairə seçki komissiyasının sədri Arif Əliyev bildirdi ki, seçicilərin ümumi sayı 41 607 nəfərdir. 808 nəfər gənc isə ilk dəfə səs verəcəkdir. Rayonun ən yaşlı seçicisi Fətəlikənd kəndinin sakini Əliyeva Xanbəyim Xanalı qızıdır. 118 yaşlı Xanbəyim nənə gümrahdır. Seçki məntəqəsinə özü gəlib səs verəcəkdir.

## İmişli

Ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olan prezident seçkiləri bu rayonda da mütəşəkkilliklə keçdi. Çoxsaylı müşahidəçilərin nəzarəti ilə keçirilən seçkilər ölkəmizdə demokratiyanın gerçək təntənəsinə çevrilmişdir. 73 saylı İmişli dairə seçki komissiyasının əhatə etdiyi seçki məntəqələrinin hər birində vətəndaşların öz iradələrini sərbəst və maneəsiz həyata keçirməsi, istədikləri namizədə səs vermələri üçün normal şərait mövcuddur.

Budur, İmişli şəhər mədəniyyət evində yerləşən 11 saylı seçki məntəqəsindəyik. Məntəqə seçki komissiyasının sədri Mübariz Şəmmədov məlumat verərək bildirir ki, adı seçici siyahılarına daxil edilmiş 938 nəfərin 40 faizindən çoxu artıq səsvermədə iştirak etmişdir.

İmişli şəhər sakini, rayonun nüfuzlu ağsaqqallarından olan Bəşir Bəşirovla elə bu seçki məntəqəsində tanış oluruq. Həmsöhbətimiz rayon sakinlərinin fikrini ifadə edərək deyir:

- Bizim İmişli camaatı əməksevər, mehriban, həm də qədirbiləndir. Dövlətin xalqın xoş güzəranı, firavan yaşaması üçün həyata keçirdiyi tədbirləri, göstərdiyi qayğını hər zaman minnətdarlıqla qarşılayırıq. Daimi suyumuz, təbii qazımız, fasiləsiz işığımız var. Doğma İmişlimiz gündən-günə inkişaf edib gözəlləşir. Əhalinin dolanışığı da ildən-ilə yaxşılaşır. Bütün bunlar dövlətimizin müdrik siyasəti sayəsində mümkün olmuşdur.

## Kürdəmir

Dünən Kürdəmir rayonunda da seçki coşqusu yaşanırdı. Sakinlər növbəti dəfə Prezident seçmək üçün seçki məntəqələrinə gəlirdilər. İnsanların axını, çöhrələrindəki xoş ifadə onların bu dəfə də güzəranlarını yaxşılaşdıracaq, ölkəmizin inkişafına dəstək olacaq namizədə səs verəcəklərini əks etdirir.

Ümumilikdə rayonda seçici fəallığına təsir göstərən amillərdən biri burada seçki öncəsi dairə seçki komissiyaları (DSK) tərəfindən işin düzgün qurulması, maarifləndirmə tədbirlərinin yüksək səviyyədə təşkil olunması idi. Dairələrdə siyahıların dəqiqləşdirilməsi, məntəqə sədrləri ilə maarifləndirmə kurslarının keçirilməsi, aparılan təşviqat tədbirləri xüsusi qeyd edilməlidir.

Qeyd edək ki, rayonda 1 daimi, iki müştərək dairə seçki komissiyaları (DSK) fəaliyyət göstərir. Bunlardan 57 saylı Kürdəmir daimi, 58 saylı Hacıqabul-Kürdəmir və 65 saylı Saatlı-Sabirabad-Kürdəmir dairələri isə müştərəkdir.

Rayon ərazisində 57 saylı Kürdəmir DSK üzrə 41 məntəqə, 58 saylı Hacıqabul-Kürdəmir DSK üzrə 7 məntəqə və 65 saylı Saatlı-Sabirabad-Kürdəmir DSK üzrə isə 25 məntəqə var.

Rayon ərazisində 57 saylı Kürdəmir DSK üzrə 42 min 400 seçici, 58 saylı Hacıqabul-Kürdəmir DSK üzrə 5283 seçici, 65 saylı Saatlı-Sabirabad-Kürdəmir DSK üzrə 15 min 555 seçici qeydə alınmışdı.

Rayon ərazisindəki 12 məntəqədə beynəlxalq təşkilatların tələblərinə uyğun olaraq şəffaflığın təmin edilməsi məqsədilə veb-kamera quraşdırılmışdı. Bütün məntəqələr telefon və digər lazımi avadanlıqlarla tam təmin olunmuşdu.

## Neftçala

Səhərdir. Xəzər dənizindən əsən xəfif meh baharın ilıq havasına qarışaraq xoş bir ovqat yaradır. İnsanlar bir-birinə qoşulub seçki məntəqələrinə gəlirlər. 61 saylı Neftçala seçki dairəsi üzrə 41 məntəqə var. Yolumuzu onların birindən - 3 saylı məntəqədən saldıq. Seçicilərlə görüşüb fikirlərini öyrəndik. Telman Quliyev dedi: "Atalar demiş: görünən dağa nə bələdçi? Özünüz də görürsünüz ki, seçki necə şəffaf və fəallıq şəraitində keçir. Hamı kimi mən də sərbəst, demokratik və azad surətdə öz səsimi istədiyim namizədə verdim".

Seçici Əminə Həsənova və Gülər Mirzəyeva ilə də söhbət etdik. G.Mirzəyeva dedi: "Əmin-amanlıq şəraitində yaşayırıq. Hər birimiz bunları qiymətləndirməliyik. Yaşayış səviyyəmiz də ildən-ilə yaxşılaşır. Əhalinin əməkhaqqı, təqaüdləri artır. Bunları nəzərə alıb xoş günlərin təminatçısı olan namizədə səs verdim".

7 saylı seçki məntəqəsində də bayram əhvali-ruhiyyəsi yaşanırdı. Məntəqə seçki komissiyasının üzvü, Sosial Rifah Partiyasının təmsilçisi Amil Qəhrəmanov seçkinin gedişi barədə dedi ki, məntəqə üzrə 1281 nəfər seçici var. Seçkilərin nə vaxt və harada keçiriləcəyi barədə hər bir seçiciyə qabaqcadan bildiriş çatdırmışıq. Ona görə də onlar səsverməyə mütəşəkkil qaydada gəlirlər. Günortayadək seçicilərin çoxu gəlib səs vemişdir".

## Ağsu

Dünən bütün gün ərzində Ağsunun küçələrində qələbəlik müşahidə olunurdu. Yaşından asılı olmayaraq hər seçicinin daxil olduğu bir ünvan vardı. Bu da şəhər ərazisində və kəndlərdə təşkil olunmuş seçki məntəqələri idi.

Yolumuzu 1 saylı liseydə təşkil olunmuş şəhər 1 saylı seçki məntəqəsindən saldıq. Burada seçicilərin rahat şəkildə səs vermələri üçün hər cür şəraitin yaradıldığını gördük. Bu da sözsüz ki, seçkiyə hazırlığın yüksək səviyyədə təşkilindən qaynaqlanır. Təşkilatçılığın yüksək səviyyədə olması səs verən hər bir seçicinin ürəyindəndir.

Məntəqədə Azərbaycan Sosial Demokrat Partiyasının müşahidəçisi Xəyal Əliyevlə söhbətləşdik. Müsahibimiz ümumilikdə seçkinin tam normal şəkildə keçdiyini və məntəqədə onlara lazımi şərait yaradılmasını qeyd etdi, seçicilərə heç bir təsir göstərilmədiyini, hər kəsin sərbəst səs verdiyini vurğuladı.

87 saylı Ağsu-İsmayıllı dairə seçki komissiyasının sədri Azad Dursunəliyev də seçici fəallığından söz açdı. Bildirdi ki, səhər tezdən fəallıq var. Bunun təsdiqi kimi seçkiyə start verildiyi vaxtdan keçən iki saat ərzində 8733 nəfərin səs verməsi göstərilə bilər.

Qeyd edək ki, dairə seçki komissiyasının tərkibində 63 məntəqə seçki komissiyası fəaliyyət göstərirdi. Bunlardan da 56-sı Ağsu, 7-si İsmayıllı rayonu ərazisində idi. 9 məntəqədə veb-kamera quraşdırılmışdı.

## Şabran

54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə seçicilərin sayı 50761 nəfər idi. 70 məntəqənin 46-sı Şabranın, 24-ü isə Siyəzənin payına düşürdü. Dairədə müşahidəçilərin sayı 720 nəfər idi. 71 nəfər məşvərətçi isə seçkilərin gedişatına nəzarət edirdi. Dairə üzrə ilk dəfə səs verənlərin sayı 1830, yaşı 80-100 arası olanlar 620 nəfər idi.

DSK sədri Saleh Təhməzov bildirdi ki, əvvəlki seçkilərdə məntəqələrimizin çox az hissəsində veb-kameralar vardı. Bu seçkilərdə isə 10 məntəqə üzrə kameralar quraşdırılıb. Şabran 1, 2, 3, 4, 7 və Siyəzəndə 46, 47, 49, 50, 53 saylı və digər məntəqələrdə quraşdırılan kameralar vasitəsilə seçkinin gedişatını birbaşa izləmək mümkündür.

## Siyəzən

54 saylı Şabran-Siyəzən seçki dairəsinin 46 saylı seçki məntəqəsi də bayram libasında idi. Siyəzən rayon 1 saylı tam orta məktəbin binasında təşkil olunan məntəqə seçki komissiyasının sədri Nəcməddin Mürvətov bildirdi ki, bu ərazidə 1467 nəfər seçici var. Bu seçkilərdə məntəqə üzrə ilk dəfə səs verənlərin sayı 6 nəfərdir. Gənclərin çoxu elə bu məktəbin məzunlarıdır. Nəriman Quliyev, Asim Quliyev, Ülkər Məmmədova, Kamran Mütəllibov səhər məntəqə açılan kimi oraya gələrək səslərini layiq bildikləri namizədə vermişlər. Ümumiyyətlə, məntəqədə gənclərin seçkilərə marağının çox olduğu açıq-aydın görünürdü.

Məntəqədə yaşlı əhali də nəzərə alınıb. 6 nəfər yaşlı seçici üçün xüsusi səsvermə qutusu və maşın da ayrılıb. Çünki onlar xəstə olduqları üçün məntəqəyə gələ bilməyiblər.

Onu da bildirək ki, 46 saylı seçki məntəqəsi veb-kamera ilə təmin edilib. Burada seçkinin gedişatını 12 müşahidəçi izləyirdi. Onlar seçkinin şəffaf keçdiyini, heç kimə təzyiq göstərilmədiyini bildirdilər.

54 saylı Şabran-Siyəzən seçki dairəsinin Siyəzəndə yerləşən 48 saylı məntəqəsində də böyük canlanma var idi. Siyəzən rayon 3 saylı məktəbin binasında təşkil olunan məntəqə seçki komissiyasının sədri Rafiq Yarıyev bildirdi ki, səhər seçkiyə start verəndən bəri əhali gəlib öz səslərini istədikləri namizədə verirlər. Məntəqə seçki komissiyasının sədri onu da bildirdi ki, səs verəcək 1433 nəfərin 12 nəfəri ilk dəfə səs verənlərdir. Onlardan Nihat Tarıverdiyev, Elvin Sədrəddinov və Ədilə Rüstəmova məntəqəyə hamıdan tez gəlmişdilər. R.Yarıyev səsverməyə gələn gənclərlə girişdə mehribancasına görüşərək onları təbrik etdi.

Seçicilərin 42 nəfəri 80-100 yaş arası olanlardır. Badam Abbasova 1920-ci ildə anadan olub. O, səsverməyə nəvəsi ilə gəlmişdi. Balabibi Cəfərova, İmran Əhmədov, Xanım Qəribova, İsmayıl Tarıyevdə seçkinin gedişatından razı qaldıqlarını bildirdilər. Onlar əmin olduqlarını vurğuladılar ki, ölkəmizdə əmin-amanlıq olacaq, uzun illərin uğurlu siyasəti daim pöhrələnəcəkdir.

Məntəqə seçki komissiyasının üzvləri Səmayə Hüseynova, Nailə Cəbrayılova, Həmzə Əhmədov, Amil Həşimov və Rüfət Məmmədov seçici siyahılarında seçicilərə adlarını tapmaqda kömək edirdi. Məntəqədəki canlanma insana xoş duyğular bağışlayırdı. Onu da bildirək ki, içəri başdan-başa gül-çiçəklə dolu idi. Məntəqə seçki komissiyasının sədri R.Yarıyev qeyd etdi ki, sevincimizi bir-birimizlə səmimi bölüşməyi xoşlayırıq. Gördüyünüz çiçəkləri səsverməyə gələn insanlara bağışlayırıq. Bu işdə bizə hətta 12 nəfər müşahidəçi də kömək edir. Çünki gələcəyimizi müəyyənləşdirəcək bu seçkidə hamının payı var. Məsuliyyətli, ləyaqətli namizədi seçmək isə xalqın öz seçimidir. Belə bir mühiti bizə müstəqilliyimiz yaradıb.

## Xaçmaz

Xaçmaz rayonunda 2 seçki dairəsi fəaliyyət göstərirdi. 55 saylı Xaçmaz şəhər seçki dairəsi rayon mərkəzində yerləşir. DSK-nın sədri Bəhram Ömərov bizimlə söhbətində bildirdi ki, prezident seçkilərində qeydə alınan hər bir namizədə dairədə normal seçkiqabağı təbliğat kampaniyasını keçirmək üçün lazımi şərait yaradılmışdır.

Dünənki seçkidə dairə üzrə 455 yerli müşahidəçinin izlədiyi səsvermə yüksək fəallıqla keçdi. Ümumiyyətlə, bu seçki dairəsində seçicilərin sayı 43980 nəfər, məntəqələrin sayı 42 idi. 12 məntəqədə veb-kamera quraşdırılmışdı.

Səhər məntəqələr açılandan seçicilər bir-bir, iki-iki öz vətəndaşlıq borclarını yerinə yetirməyə gəlirdilər. Öncə Xaçmaz rayon Z. Əliyeva adına məktəb-liseydə fəaliyyət göstərən 1 saylı seçki məntəqəsinə baş çəkdik. Seçici siyahısında 1233 nəfər sakinin adı qeyd olunub. Məntəqə üzrə 2 xəstə qeydiyyata götürülüb. Onların da səsverməsini təmin etmək üçün xüsusi maşın və daşınan qutu ayrılıb. Məntəqədə seçkinin gedişatı veb-kamera ilə izlənirdi.

İlk dəfə səs verən Kamal Poladov və Rəna Babayeva seçkidən razı qaldıqlarını bildirdilər. Seçicilər Sudabə Qoçubəyova, Vəsiyyət Seyidəliyeva, Kəmalə Niftəliyeva və digərləri bildirdilər ki, hər bir xaçmazlı layiqli namizədə səs verdilər.

Ardı 14-15-ci səh.

# Bölgələrdə seçkilər azad, ədalətli

*Əvvəli 12-13-cü səh.*

## Ağdaş

Prezident seçkilərinə start verildikdən üzü bu yana Ağdaşda da ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən bu kampaniyaya ciddi hazırlıq görülmüşdü. Odur ki, dünən hər bir ağdaşlı böyük ruh yüksəkliyi ilə seçkilərdə iştirak edirdi. Onlar rayonun 57 seçki məntəqəsində səs veriblər.

90 saylı Ağdaş dairə seçki komissiyasının (DSK) sədri Nurəddin Nəsibov bildirdi ki, dairə üzrə 40 min 400 nəfər seçici qeydə alınıb. Bütün məntəqələr yüksək səviyyədə hazırlanıb. 10 seçki məntəqəsi veb-kamera ilə təmin olunub. Bütün məntəqələr zəruri avadanlıq və texniki vasitələrlə təchiz olunub. Seçki siyahıları uyğunlaşdırılmış formada olan lövhələrdə yerləşdirilib. Seçicilər heç bir çətinlik çəkmədən rahat şəkildə öz səsvermə hüquqlarından istifadə edirlər. 17 seçki məntəqəsi isə Göyçay-Ağdaş DSK-nın tərkibindədir. Bu məntəqələrdə səs verən seçicilərin sayı 17 min 753 nəfərdir. Onlar da istədikləri namizədə burada olduğu kimi rahat şəkildə səs verirlər.

## Qobustan

Respublikamızın gənc rayonlarından sayılan və demək olar ki, dövlət müstəqilliyimizlə həmyaşıd olan Qobustanda da seçkilərə ciddi hazırlıq görülmüşdü. Dünən bu rayonda da insanların tələsdikləri ünvan Qobustan şəhərində və ayrı-ayrı kəndlərdə təşkil edilmiş seçki məntəqələri idi.

Burada 50 saylı Abşeron-Qobustan dairə seçki komissiyasinin tərkibinə daxil olmaqla 28 məntəqə seçki komissiyası fəaliyyət göstərirdi. Həmin seçki məntəqələrinin normal fəaliyyəti, seçicilərin rahatlığının təmin olunması üçün hər cür şərait yaradılmışdı. Onların əksəriyyəti də yeni tikilmiş və ya əsaslı təmir edilmiş binalarda, uyğunlaşdırılmış məktəblərdə təşkil olunmuşdu.

Qeyd edək ki, şəffaflığın təmin edilməsi məqsədilə rayonun 3 seçki məntəqəsində, o cümlədən 22 saylı şəhər, 44 saylı Sündü, 46 saylı Təklə seçki məntəqələrində veb-kameralar quraşdırılmışdı.

## Xızı

44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 32 saylı seçki məntəqəsi Sitalçay kəndindəki məktəbdə fəaliyyət göstərir. Məntəqə seçki komissiyasının sədri Xanımzadə Hətəmova bizimlə söhbətində bildirdi ki, səhər seçkiyə start veriləndən seçicilər məntəqəyə gəlir və istədikləri namizədə səs verirlər. Məntəqədə seçicilərin sayı 1483 nəfərdir. 32 saylı məntəqə seçki komissiyasının katibləri Səidə Məmmədova, Mübariz Ələkbərov, üzvləri İradə Əliyeva və Gülnar Əbilova seçicilərə adlarını seçici siyahılarında tapmaqda kömək edir, sərbəst şəkildə səs vermələri təmin olunurdu. X.Hətəmova bildirdi ki, məntəqədə ilk dəfə səs verənlər 6 nəfərdir.

Biz məntəqədə olan zaman "N" saylı hərbi hissənin zabit və əsgərləri də səs verirdilər. Vətənin müdafiəçiləri inkişafa, sabitliyə, torpaqlarımızın tezliklə azad ediləcəyinə səs verdiklərini bildirdilər.

## Gədəbəy

Gədəbəydə iki dairə-103 saylı Gədəbəy və 104 saylı Gədəbəy-Tovuz seçki dairəsini əhatə edən 43 seçki məntəqəsi fəaliyyət göstərir. Prezident seçkilərinə aparılan ciddi hazırlıq işləri seçki günü özünü göstərdi. Belə ki, seçicilərin sərbəst şəkildə öz iradələrini ifadə edə bilmələri üçün məntəqələrdə bütün şərait yaradılmışdı. Onlar azad, şəffaf və demokratik bir şəraitdə öz siyasi iradələrini ifadə etməklə yaşadıqları ölkənin sabahına səs verməyə tələsirdilər.

103 saylı Gədəbəy seçki dairəsinin şəhər 3 nömrəli orta məktəbdə yerləşən 2 saylı məntəqəsindəyik. Məntəqə seçki komissiyasının sədri Esmira Şirinova söhbət zamanı dedi:

- Prezident seçkiləri ölkəmizin həyatında mühüm və əlamətdar hadisədir. Biz də seçkilərə böyük məsuliyyətlə hazırlaşdıq. Məhz bunun nəticəsidir ki, səhər tezdən məntəqənin qarşısı adamla doludur.

Öyrəndik ki, məntəqədə 1358 nəfər səs verməlidir. Saat 12 radələri olmasına baxmayaraq, seçicilərin 45 faizi öz namizədinə münasibətini bildirmişdi.

104 saylı Gədəbəy-Tovuz dairə seçki komissiyasının 18 saylı məntəqəsində də səsvermənin mütəşəkkil keçdiyinin şahidi olduq. Məntəqədə əsl bayram əhvali-ruhiyyəsi hökm sürürdü. Hər yerdə olduğu kimi, burada da məntəqənin tərkibi müxtəlif partiyaların fəalları hesabına formalaşdırılıb. Siyasi əqidəsindən asılı olmayaraq burada hamının sərbəst fəaliyyətinə eyni şərait yaradılıb. Səs verənlərin birinə yaxınlaşıb, söhbət edirik. Bu, el ağsaqqalı Vilayət Məmmədovdur. O, öz fikrini belə ifadə edir.

- Mən sabitliyə, əmin-amanlığa, xoş güzəranımıza səs verdim. İstəyirəm ki, müstəqillik qazandıqdan sonra başlanan inkişaf bundan sonra da davam etsin. Çünki son 15 ildə bütün ölkəmiz, o cümlədən yaşadığım Gədəbəy rayonunun siması başdan-başa dəyişib. Kəndlilərə, fermerlərə yaradılan şərait bu gün hər kəsdə ruh yüksəkliyi yaradıb.

## Salyan

Salyanlılar da ölkəmizin ictimai-siyasi həyatında həmişə yaxından iştirak edirlər. Onlar ənənəyə sadiq qalaraq 11 aprel günü seçki məntəqələrinə gələrək Azərbaycan Respublikasına rəhbərlik edəcək namizədə səs verdilər.

59 saylı Salyan dairə seçki komissiyasının bir neçə məntəqəsində bunun şahidi olduq. 7 saylı seçki məntəqəsi Salyan şəhərindəki internat məktəbdə yerləşir. Burada seçicilərin səs verməsindən ötrü hər bir şərait yaradılmışdı. Seçici Gülzar Hüseynova dedi: "Seçkilər sərbəst, azad, demokratik şəraitdə keçir. Seçkiyə heç kəs tərəfindən müdaxlə olunmur. Hamı kimi mən də istədiyim namizədə səs verdim. Özüm müəlliməm. Ölkəmizdə və dünyada baş verən hadisələri də, ölkəmizdəki inkişafı da görürəm. Müstəqil dövlətin vətəndaşı olmaqdan qürur duyuram. Bunları görmək, bunlara dəyər vermək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Respublikamız müstəqil dövlət kimi cəmi 27 ildir fəaliyyət göstərir. Bu illər ərzindəki uğurlar isə göz qabağındadır. Nə qədər məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilib, yollar çəkilib. Bunları sadalamaqla qurtarmaz. Elə bunlara görə də inkişafa, sabitliyə, əmin-amanlığa səs verdim".

Qeyd edək ki, 59 saylı Salyan seçki dairəsi üzrə 40 məntəqə vardır. Seçicilərin ümumi sayı 38 min 738 nəfərdir. Bunlardan 2 nəfərin yaşı 100-dən yuxarıdır, 119 nəfər isə seçkidə ilk dəfə iştirak edən gənclərdir.

Dairənin bir neçə digər məntəqəsinə də baş çəkirik. 5 saylı məntəqə Salyan şəhər 2 saylı tam orta məktəbin binasında təşkil olunmuşdur. Məntəqə seçki komissiyasının katibi Ofelya Quliyeva bildirir ki, Vəhdət Partiyasının təmsilçisidir. Seçkilər sərbəst, azad, demkratik qaydada keçirilir.

## Göyçay

Aprelin 11-də göyçaylılar da bayram əhvali-ruhiyyəsində idilər. Onlar sübh tezdən seçki məntəqələrinə tələsirdilər. Hər kəs öz vətəndaşlıq borcunu yerinə yetirir, səsini layiq bildiyi namizədə verirdi.

62 seçki məntəqəsində budəfəki prezident seçkilərində ümumilikdə 63 min 568 göyçaylı seçici səs verib. Onlar 88 saylı Göyçay və 89 saylı Göyçay-Ağdaş dairə seçki komissiyasının seçki məntəqələrində səs veriblər. 88 saylı Göyçay DSK-nın sədri Eldəniz Həmidov dedi ki, DSK-nın tərkibində 43 seçki məntəqəsi fəaliyyət göstərir və 41 min 260 nəfər seçici qeydiyyata alınıb. DSK üzrə 478 nəfər müşahidəçi qeydiyyata alınmış və vəsiqələrlə təmin olunmuşdular.

89 saylı Göyçay-Ağdaş dairə seçki komissiyasının sədri Nizam Məhərrəmov bildirdi ki, DSK 36 məntəqə seçki komissiyasından ibarətdir. Bundan da 19-u Göyçay, 17-si isə Ağdaş rayonu ərazisindədir. 12 məntəqədə veb-kamera quraşdırılıb. Onun 7-si Göyçay, 5-i isə Ağdaş rayonundadır. Bütün məntəqələrdə seçicilər layiq bildikləri namizədə səs veriblər.

## Astara

Dünən səhər saat 8:00-da respublikamızın hər yerində olduğu kimi, Astara rayonunda da prezident seçkilərinə start verildi. Rayonun bütün seçki məntəqələrində bayram əhvali-ruhiyyəsi hiss olunurdu. Seçicilər seçki məntəqələrinə ruh yüksəkliyi, gələcəyə inam və böyük sevinclə gəlir, layiq bildikləri namizədə səs verməyi özlərinin vətəndaşlıq borcu hesab edirdilər. Şəhər 2 saylı seçki məntəqəsinə gələn 89 yaşlı ağsaqqal Heydər Dadaşovla səmimi görüşdük. Heydər kişi prezident seçkilərində iştirak etdiyinə görə özünü xoşbəxt hiss etdiyini bildirdi.

Seçki məntəqəsində MDB ölkələrini təmsil edən müşahidəçilər qrupunun rusiyalı nümayəndələri buradakı seçici fəallığından razı qaldıqlarını diqqətə çatdırdılar. Burada bütün müşahidəçilər onlar üçün yaradılmış şəraitdən razılıqlarını bildirirdilər. "Cəbhəçilərin təşəbbüs qrupu"nu təmsil edən müşahidəçi Rauf Abdullayev söhbət zamanı məntəqədə seçicilərin rahat və sərbəst şəkildə səs vermələri üçün hər cür şəraitin olduğunu dedi.

Şəhər 1 saylı seçki məntəqəsində də fəallıq uzaqdan diqqəti cəlb edirdi. Müasir Müsavat Partiyasını təmsil edən Sahib Bağırov müşahidəçilərin ümumi fikrini ifadə edərək bildirdi ki, burada bütün partiyaların nümayəndələri üçün yaradılan şəraitdən tamamilə razıyıq. Seçicilər səsvermədə fəallıq göstərir, sərbəst şəkildə seçimlərini edirlər.

















## Oğuz

Dağlar qoynunda qərar tutmuş Oğuz rayonu da seçki ab-havasında idi. Burada da əvvəlki illərlə müqayisədə daha fərqli və arzulanan bir seçkinin keçirilməsi müşahidə olunurdu.

117 saylı Oğuz-Qəbələ dairə seçki komissiyasının sədri Rəsul Cəfərov məlumat verdi ki, dairə 61 məntəqə seçki komissiyasından ibarətdir. Onlardan 37-si Oğuz, 24-ü isə Qəbələ rayonunda fəaliyyət göstərir. Seçicilərin ümumi sayı 46 min 803 nəfərdir. 26 min 376 nəfəri Oğuz rayonuna, 20 min 427 nəfəri isə Qəbələ rayonuna aiddir. İlk dəfə səs verən seçicilərin sayı 1364 nəfərdir ki, bunlardan da 189-u 18 yaşına çatmış gənclərdir. 100 yaşdan yuxarı seçicilərin sayı isə 4 nəfərdir.

Prezident seçkilərinin tam şəffaf və aşkarlıq şəraitində keçirilməsi məqsədilə 7 məntəqəyə veb-kamera quraşdırılıb. Seçkilərin gedişatını 687 yerli müşahidəçi izləyib.

Müxtəlif səbəblərdən məntəqələrdə səs vermək imkanı olmayan 434 nəfər qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi ilə təmin olunublar.

Əlil arabalarından istifadə edən seçicilər üçün 12 məntəqədə panduslar quraşdırılıb.

Görülən işlər, yaradılan şərait isə şübhəsiz ki, son nəticədə sözünü deyib. Seçicilərlə yanaşı, müşahidəçilərin də məntəqələrdə yaradılan şəraitdən məmnunluğu deyilənlərin təsdiqidir.

## Lerik

Aprelin 11-də Lerik şəhərində gediş-gəliş adi günlərdən tez başlayıb. Bayramsayağı geyinmiş ağsaqqallar, gənc oğlan və qızlar ulu öndərin adını daşıyan meydana axışırdılar. Keçən prezident seçkilərindən sonra burada Kənd Təsərrüfatı İdarəsinin üçmərtəbəli binası, Heydər Əliyev Fondunun dəstəyi ilə uşaq bağçası istifadəyə verilib, Bayraq Muzeyinin təməli qoyulub, fəvvarələr quraşdırılıb, xidmət obyektləri qapılarını açıb.

Şəhərdəki 3 seçki məntəqəsindən biri mədəniyyət sarayında yerləşir. Səhər saat 8-də məntəqədə səsvermə başladı. Ağsaqqallar qabağa buraxıldı. Komissiya üzvləri əyləşən stola birinci Prezident təqaüdçüsü 86 yaşlı Musa Bədəlov yaxınlaşıb şəxsiyyət vəsiqəsini təqdim etdi. Bülleteni alıb öz adının qarşısında imza atdı. Səsvermə kabinəsinə keçdi, sonra qayıdıb bülleteni qutuya atdı. Şəhərin ağsaqqallarından Hidayət Bəşirov, Aslan Mirzəyev, Qəhrəman Əliyev, Baba Malıyev, Musarıza Məmmədov da birincilər sırasında səs verdilər. İlk dəfə səsverməyə gələn gənclər məntəqədə gül-çiçəklə qarşılanır.

Məntəqədə veb-kamera quraşdırılıb. Burada siyasi partiyaların və təşəbbüs qruplarının müşahidəçiləri seçkinin gedişini izləyirdilər. Azərbaycan Sosial-Demokrat Partiyasını təmsil edən müşahidəçi Fikrət Ağayev dedi ki, məntəqədə səsvermə tam demokratik və şəffaf keçir. Bu, seçicilərin dövlətimizə və dövlətçiliyimizə sədaqətindən irəli gəlir.

78 saylı Lerik seçki dairəsi üzrə 108 məntəqədə 32 min 500 seçici qeydə alınmışdır. Səsvermə günü leriklilər ənənəyə sadiq qalaraq yüksək fəallıq nümayiş etdirirlər, heç bir qanun pozuntusu müşahidə edilmədi.

## Biləsuvar

Ölkəmizin hər yerində olduğu kimi, Biləsuvar rayonunda da prezident seçkiləri yüksək əhvali-ruhiyyədə keçirildi. 66 saylı Biləsuvar dairə seçki komissiyasının sədri Əzizağa Hətəmov bildirdi ki, dairə üzrə 48 min 670 nəfər seçici qeydə alınmışdır. İlk saatlardan 44 məntəqənin hamısında fəallıq yüksək səviyyədə olmuşdur. İlk dəfə səs verən seçicilər 1140 nəfər, 100 yaşdan yuxarı seçicilər isə 4 nəfərdir.

Səsverməni müşahidə etmək üçün rayon mərkəzində yerləşən 3 saylı seçki məntəqəsində olduq. Məntəqə seçki komissiyasının sədri Həmdulla Mənsimov dedi ki, seçkilərlə bağlı hazırlıq işlərinin yüksək səviyyədə həyata keçirilməsinin nəticəsi olaraq indi səsvermə öz qaydasında gedir. Məntəqəmizdə 1198 nəfər, o cümlədən 577 kişi və 621 qadın seçici qeydə alınmışdır. 80-100 yaş arasında olan seçicilərin sayı 48 nəfər, ilk dəfə səs verən seçicilərin sayı 16 nəfərdir. 6 seçiciyə xəstə olduqları üçün daşınan qutular göndərmişik.

Sözügedən seçki məntəqəsində 17 müşahidəçi qeydə alınmışdı. Müşahidəçilərdən BAXCP-nin təşəbbüs qrupunun üzvü Azər Rəhimli, Müasir Müsavat Partiyasından Pərviz Rufullayev və ASDP-dən Anar Məmmədovla söhbət etdik. Onlar bildirdilər ki, burada müşahidəçilərə hər cür şərait yaradılmışdır, seçkilər isə azad və demokratik şəraitdə keçirilir.

## Şirvan

Respublikamızın hər yerində olduğu kimi, Şirvan şəhərində də prezident seçkilərinə ciddi hazırlıq işləri aparılmışdır.

46 saylı Şirvan seçki dairəsi üzrə qeydə alınan seçicilərin sayı 41 min 845 nəfərdir.

Şəhid Bəhruz Aslanovun adını daşıyan Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə yerləşən 27 saylı seçki məntəqəsində saat 8-ə bir neçə dəqiqə qalmış məntəqə seçki komissiyasının sədri Çingiz Şirəliyev seçiciləri salamladı. Sonra seçkilərə start verildi. Valeh Quluzadə, Malik Şirəliyev, Əlibala Quliyev bülleten götürərək kabinəyə keçdilər.

Vətəndaşlıq borcunu yerinə yetirənlərdən biri Şirvan şəhər Ağsaqqallar Şurasının sədrı Fəxrəddin Rəhimov dedi: "Allahın mənə bəxş etdiyi bu ömürdə çox seçkilərdə iştirak etmişəm. Bu seçki əvvəlkilərdən xeyli fərqlənir. Aydın görünür ki, dairə və məntəqə seçki komissiyasının üzvləri maarifləndirmə işlərini yüksək səviyyədə təşkil etmişlər. Mən konstitusiya hüququmdan istifadə edərək növbəti illərdə də prezident görmək istədiyim insana səs verdim".

Məntəqədə 10-a yaxın yerli müşahidəçi vardı. Müasir Müsavat Partiyasının nümayəndəsi Kəmalə Həmidova dedi ki, məntəqədə bizim üçün əlverişli şərait yaradılmışdır, müşahidələrimizi sərbəst, maneəsiz davam etdiririk.

24 saylı məntəqədə də seçki şəffaf, ədalətli keçirilirdi, fəallıq hökm sürürdü. Seçicilərdən biri - Orxan Əliyev özü bizə yaxınlaşıb dedi ki, ilk dəfə səs verdiyim üçün qürur duydum.

# və şəffaf şəraitdə keçirildi


















## Yardımlı

Aprelin 11-də Yardımlı rayonunda da prezident seçkiləri azad, demokratik keçirildi.

72 saylı Yardımlı-Masallı DSK-nın sədri Qabil Canaliyev dedi ki, bu dairə Yardımlıda 30 min 31 nəfər, Masallıda isə 10 min 799 nəfər seçicini əhatə edir. Məntəqələr lazım olan bütün inventar və avadanlıqlarla təmin olub. 1, 2, 39, 45 və 66 saylı məntəqələrdə veb-kamera quraşdırılıb. 36, 43 və 51 saylı məntəqələrdə əlil arabaları ilə hərəkət edən seçicilər üçün pandusIar qoyulub. Dairə üzrə ilk dəfə səs verəcək 1100 nəfər, yaşı 100-dən yuxarı olan 5 seçici var. Seçkiləri müşahidə etmək üçün 915 müşahidəçi qeydə alınıb. YAP-dan 581 nəfər, öz təşəbbüsü ilə 166 nəfər, namizədin təşəbbüsü ilə 83 nəfər, secicilərin təşəbbüs qrupundan 83 nəfər və QHT-dən 2 nəfər müşahidəçi seçkilərin gedişini izləyirdi.

45 saylı Şəfəqli seçki məntəqəsində ilk səs verənlər kənd ağsaqqalları oldular.

91 yaşlı Hacı Bəhmən Qənbərov və 90 yaşlı Hacı Tarverdi Nəzərov məntəqədə birinci səs vermələrini belə izah etdilər:

- Biz həm səs, həm də xeyir-dua verdik. Çox gözəl ab-hava yaradılıb məntəqədə. İnsanların öz iradələrini sərbəst ifadə etmələrinə hər cür şərait var. Allah Azərbaycanı qorusun, Allah bu inkişafı, bu firavanlığı bizdən əsirgəməsin.

Şəfəqli kənd sakini Raisə Şıxəliyeva isə belə dedi:

- Mən balalarımın gələcəyinə səs verdim. Qardaş, seçki belə olar da, daha sovet dövründəki kimi yox. Özüm gəldim, şəxsiyyət vəsiqəmi təqdim edib bülleten aldım, səsimi də istədiyim namizədə verdim.

## Hacıqabul

58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi 48 seçki məntəqəsini əhatə edir. Seçki prosesinin şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün məntəqələr lazımi texniki avadanlıqlar və metodiki vəsaitlərlə, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunmuş, 8 məntəqədə veb-kamera quraşdırılmışdı.

Prezident seçkilərində hacıqabullular öz aktivliklərini nümayiş etdirdilər. Səhər tezdən insanların dəstə-dəstə ruh yüksəkliyi ilə məntəqələrə gəldiyinin şahidi olduq. Şəhər 5 saylı tam orta məktəbdə yerləşən 11 saylı məntəqədə qələbəlik idi. Bu seçki məntəqəsi rayonda ən çox seçicisi olan məntəqələrdən biridir. Məntəqənin 1370 nəfər seçicisi var ki, onlardan 20-si ilk dəfə səs verənlərdir. Azərbaycan Demokratik Partiyasını təmsil edən müşahidəçi Sevil Vəliyeva dedi ki, məntəqədə insanların azad, demokratik seçim etmələri və öz istədiyi namizədə səs verməsi üçün hər bir şərait var. İnanırıq ki, onlar öz seçki hüququndan istifadə edərək istədikləri namizədə səs verəcəklər.

10 saylı məntəqədə də qələbəliyin şahidi olduq. Ən yaşlı seçici, 84 yaşlı Əlipənah Həmidovla söhbət etdik. Uzun illər neftçi işləyib. Təqaüddədir. Dedi ki, arzum budur ki, ölkəmizdəki bugünkü əmin-amanlıq daimi olsun. Mən bunun naminə seçim edib səs verdim.

## Masallı

Xalqımız prezident seçkiləri gününü yüksək əhval-ruhiyyə ilə qarşıladı. Bu, Masallıda seçkilərə gələnlərin üz-gözlərində də aydın görünürdü.

Məntəqələrdə beynəlxalq və yerli müşahidəçilər səsvermənin gedişini izləyirdilər.

Rayonda 2 dairə üzrə 85 məntəqə fəaliyyət göstərir. 19 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı.

70 saylı Masallı şəhər seçki dairəsi üzrə 43 məntəqədə 39 min 651 seçici səs verəcəkdi. Dairənin 36 saylı Qasımlı kənd məntəqəsinə böyük seçici axını var idi. İlk seçki bülletenlərini qutuya Güloğlan Alışanov, Rəzzaq, Salman, Zöhrə Məmmədovlar, Azad Rzayev atdılar.

Dairənin 38 saylı İkinci Yeddioymaq məntəqəsində səs verən veteran müəllim Eyvaz Məcidov və 71 yaşlı Abduləli Abuşovla görüşdük. Eyvaz Məcidov dedi:

- Çox seçkilər görmüşəm. Parlament, prezident, bələdiyyə seçkilərində iştirak etmiş və istədiyim namizədə səs vermişəm. Bu gün daha böyük fəallıq hiss edirəm. Seçkilərin obyektiv keçirilməsi üçün ideal şərait yaradılıb. Seçkilər demokratik şəraitdə keçir. Mən xalqımızın xoş rifahına səs verdim.

71 saylı Masallı kənd seçki dairəsində 748 nəfər ilk dəfə səs verənlərdir. Ərkivan 4 saylı və Qızılavar 8 saylı seçki məntəqələrində ilk dəfə səs verən Sevinc Fitatzadə və Mənsumə Fətullayeva üçün ikiqat bayram idi. 11 aprel həm də onların doğum günüdür. Bu münasibətlə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov təbrik məktubu göndərmişdi.

Dairənin bütün məntəqələrində seçici fəallığı səhər saatlarından başlayıb. 38 saylı seçki məntəqəsində də seçicilərin ovqatı yüksək idi. 85 yaşlı Şərbət Əzimov səsvermədən razı qaldığını söyləyib bildirdi ki, o insana səs verdi ki, həmişə qayğısını görüb.

## Qazax

Respublikamızın qərb qapısı adlandırılan Qazaxda prezident seçkiləri xüsusi fəallıq şəraitində keçmişdir. Ermənistanla 168 kilometr həmsərhəd olan rayonun bütün kənd və qəsəbələrində böyük mütəşəkkillik hökm sürmüşdür. Xüsusilə, təmas xəttində olan yaşayış məntəqələrində insanlar bu siyasi kampaniyada fəallıq göstərmiş, seçkilərdə iştirak etməklə öz vətəndaşlıq borclarını yerinə yetirmişlər. Səhər tezdən seçki məntəqələrinə üz tutan hər bir rayon sakini yaradılan şəraitdən istifadə edərək istədikləri namizədə səs vermişdir.

Qazaxda fəaliyyət göstərən 107 saylı seçki dairəsini əhatə edən 36 məntəqə fəaliyyət göstərir. Son dəqiqləşdirmədən sonra dairə üzrə 43 min 539 nəfər seçicinin iştirakı qeydə alınmışdır. Dairə seçki komissiyasından aldığımız məlumata görə, sərhəd kəndləri olan Quşçu Ayrım kəndində 15 saylı, Kəmərlidə isə 32 və 33 saylı seçki məntəqələri fəaliyyət göstərir. Erməni mövqeləri ilə üzbəüz dayanmış bu kəndlərdə seçkilərin demokratik şəraitdə keçməsi üçün hər bir şərait yaradılmışdır. Azərbaycan Ordusunun gücünə inanan kənd sakinləri məntəqələrə gələrək təhlükəsiz şəraitdə səs vermişlər. Quşçu Ayrım kəndinin qocaman sakini Abbas Mirzəyevlə söhbət edirik. O deyir:

-Dövlətimizin bayrağı həmişə belə uca olsun. Əvvəllər qorxu içində yaşayırdıqsa, indi bu qorxuya son qoyulub. Nəinki sahələrə çıxıb əkin-biçinlə məşğul oluruq, hətta kənddə belə siyasi kampaniyalar da keçiririk.

Abbas Mirzəyev onu da əlavə etdi ki, oğlu Yavər Qarabağ müharibəsində şəhid olub. Dövlətimiz digər şəhidlər kimi onun da xatirəsinə ehtiram göstərir. Təhsil aldığı və indi 15 saylı seçki məntəqəsinin yerləşdiyi kənd orta məktəbi onun adını daşıyır. Bütün bunlar müstəqil respublikamızda Vətən yolunda həlak olanlara göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bu sözləri Kəmərli kəndində fəaliyyət göstərən 32 və 33 saylı seçki məntəqələrində də eşitdik. Kəmərli kəndinin sakini Qəzənfər Həsənov dedi ki, Azərbaycan Ordusu güclənəndən, ermənilərin səsi batıb. Odur ki, əvvəlki kimi atəş səsləri eşidilmir. Bu onu deməyə əsas verir ki, ordumuz istənilən vaxt işğal olunmuş torpaqlarımızı azad etməyə hazırdır.

Onu da qeyd edək ki, 107 saylı Qazax seçki dairəsini əhatə edən bütün məntəqələrdə prezident seçkiləri şəffaf və demokratik şəraitdə keçmişdir. İnsanlar seçki məntəqələrinə gələrək istədikləri namizədə sərbəst şəkildə səs vermişlər.

## Ağstafa

Prezident seçkilərində Ağstafa rayonunun sakinləri də ruh yüksəkliyi ilə iştirak etmişlər. Seçki məntəqələrində bunun bir daha şahidi olduq. Hiss olunurdu ki, 108 saylı Ağstafa seçki dairəsində də seçkilərə ciddi hazırlıq işləri görülmüşdür. 34 seçki məntəqəsini əhatə edən ərazilərdə seçicilər arasında aparılan təbliğat və təşviqat işləri seçki günü özünü göstərmiş, nəticədə seçicilərin fəallığı təmin edilmişdir.

İlk baş çəkdiyimiz məntəqə şəhərdəki 4 saylı seçki məntəqəsi oldu. Sədr Xanoğlan Vəliyevdən öyrəndik ki, burada 1382 nəfər seçici var və günortayadək onlardan 957 nəfəri səs vemişdir.

Qacaq Kərəm kənd orta məktəbində yerləşən 9 saylı seçki məntəqəsində səsverməni izlədik. Seçki demokratik şəraitdə davam edirdi. Seçici Natiq Eyyubov öz ailəsi ilə birlikdə gəlmişdi. Fürsətdən istifadə edib onunla söhbət etdik. Dedi ki, biz öz seçimimizi etmişik və indi onu təsdiqləməyə gəlmişik. Elə bir namizədə səs verdik ki, o şəxs ölkəmizdə sabitliyi təmin etməklə iqtisadiyyatımızı yüksəltməyi bacarır.

Məntəqədə olan digər seçicilər də bu fikri təsdiqlədilər.

Daş Kəsəmən kəndi rayonun ən iri yaşayış məntəqələrindən biridir. Burada 7 min əhali yaşayır. Onlardan 4389 nəfəri səsvermə hüququna malikdir. Kənddə 4 seçki məntəqəsi fəaliyyət göstərir. 5 saylı məntəqə seçki komissiyasının sədri Təranə Abdullayeva deyir ki, seçki çox mütəşəkkil keçir. Heç kim deyə bilməz ki, seçkilərə müdaxilə olunur. Hər bir kənd sakini sərbəst şəkildə məntəqəyə daxil olub, şəxsiyyət vəsiqəsini təqdim edir, baş barmağına mürəkkəb vurulduqdan sonra seçki bülletenini alaraq istədiyi namizədə səs verir.

Məntəqədə olarkən öyrəndik ki, seçicilərin 59 faizi öz səsvermə hüququndan istifadə edib.

## Göygöl

101 saylı Göygöl-Daşkəsən seçki dairəsindən aldığımız məlumata görə, hər iki rayonda 45 min 200 nəfər seçici 81 məntəqədə səs verməli idi. Seçkilərin şəffaf keçməsi məqsədilə 9 məntəqədə veb-kamera quraşdırılmışdır.

Dairəni əhatə edən seçki məntəqələrinin bir neçəsində olduq. Rayon mədəniyyət evində yerləşən 1 saylı məntəqədə böyük qələbəlik var idi. İnsanlar səhər tezdən məntəqəyə gələrək ölkənin həyatında mühüm hadisə olan prezident seçkilərinə münasibətlərini bildirir, müstəqil respublikamızın bundan sonrakı taleyinin kimə etibar edilməsi üçün səs verirdilər. Axı, illərlə qazanılan uğurları təsadüfi adamlara etibar etmək olmaz. Gərək yaxşı düşünəsən, götür-qoy edəsən ki, uğurlar bundan sonra da davam etsin.

Dairə seçki komissiyasının sədri Abbas Zalov bildirdi ki, bütün məntəqələrdə yüksək seçici fəallığı var. Ən ucqar kəndlərdə də insanlar prezident seçkilərinə biganə deyillər. Məsələn Sarısu kəndi Göygöl rayonunun ən uzaq kəndlərindəndir. Burada 460 nəfər sakin yaşayır ki, onun da 332 nəfəri seçki hüququna malikdir. Kənddə fəaliyyət göstərən 19 saylı seçki məntəqəsinin komissiya sədri Şamo Pənahov dedi ki, bu kəndin sakinləri bütün seçkilərdə fəallıq göstəriblər. İndi də belədir. Artıq günorta olmasına baxmayaraq 250 nəfərdən çox seçici səs verib. Bu işdə kənd ağsaqqalları həmişə nümunə göstərirlər.

Fürsətdən istifadə edib, yenicə səs vermiş 88 yaşlı Mədət Hüseynovla görüşdük. Dedi ki, indi yaşamağa nə var ki... Dövlət hər bir vətəndaşının sahibidir. Yeni iş yerləri açır. Bizim kənd camaatı əsasən heyvandarlıq və əkinçiliklə məşğul olur. Hər bir kəndli özü üçün məhsul yetişdirib, satır. Hələ bir dövlətdən güzəştli yardımlar da alır. Seçkiqabağı söhbətlərimizdə bu məsələlərlə bağlı cavanlarımıza çoxlu məsləhətlər vermişəm. Demişəm ki, prezident seçərkən diqqətli olmalıdırlar.

## Şəmkir

Şəmkirdə 3 dairə - 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd və 100 saylı Şəmkir-Daşkəsən dairə seçki komissiyaları fəaliyyət göstərir.

Seçki dairələrinin və məntəqələrinin böyük əksəriyyəti yeni və hər cür şəraiti olan binalarda yerləşir. Yüksək səviyyədə hazırlıq işlərinin görülməsi nəticəsində seçkilər mütəşəkkilliklə keçmişdir. Səhər tezdən seçki məntəqələrinə gələn rayon sakinləri prosedur qaydalarına əməl etməklə arzu və istəklərinə uyğun olaraq öz seçimlərini etmişlər. Hətta ucqar kəndlərdə də əhali arasında fəallıq hiss olunurdu. Belə kəndlərdən biri də Tatarlı kəndidir ki, burada 99 saylı Şəmkir kənd seçki dairəsinin 18 saylı məntəqəsi yerləşir və 844 nəfər seçici qeydiyyata alınmışdır. Məntəqədə olarkən gördük ki, insanlar səs vermək üçün növbəyə dayanıblar. Müəyyən olunmuş qaydalarla qeydiyyatdan keçir, səsvermə bülleteni alaraq ayrılmış kabinələrdə seçimlərini edir və səsvermə qutusuna salırdılar. Demək olar ki, məntəqəyə daxil olandan səs verənə kimi seçicilərə heç bir təzyiq və ya müdaxilə olunmurdu.

Tatarlı kəndinin 84 yaşlı sakini İsmayıl Alıyevlə söhbət edirik. Üzündən nur yağan bu el ağsaqqalının sanki ürəyi doludur. Deyir ki, ötən əsrin 90-cı illərin əvvəlləri yaxşı yadımdadır. Başımız nə müsibətlər çəkdi. Torpaqlarımızın bir hissəsi ermənilər tərəfindən işğal olundu. Bir milyon soydaşımz didərgin düşdü. Var olsun dövlətimizi. Qısa vaxtda onların problemlərini həll etdi. Bircə işğal olunmuş torpaqlarımız qalıb. İnanıram ki, o məsələ də öz həllini tapacaq. Odur ki, gərək xalqımız ağ ilə qaranı seçə bilsin. Düzgün seçim etsin ki, sonradan peşman olmasın. Mən əminəm ki, ən layiqli namizəd daha çox səs toplayacaq.

Prezident seçkilərində Şəmkirdə fəaliyyət göstərən 3 dairəni əhatə edən seçki məntəqələrinin heç birində qanun pozuntusu qeydə alınmamışdır. Seçkilər insanların yüksək fəallığı ilə müşayiət olunmuşdur. İnsanlar bu seçkilərdə mütəşəkkillik nümayiş etdirməklə inandıqları şəxsə - işıqlı sabahlarına səs vermişlər.

## Samux

Azərbaycan xalqının taleyüklü məsələlərindən biri də növbəti müddətə öz prezidentini seçməsi idi. 27 illik müstəqilik həyatını yaşayan xalqımız Azərbaycanın gələcəyini məhz bu seçkilərin nəticələrində görürdü.

102 saylı Samux-Şəmkir seçki dairəsinin Alıuşağı kəndində yerləşən 18 saylı məntəqəsindəyik. Məntəqəyə gələn seçicilərin əhval-ruhiyyəsinin yüksək olduğu diqqətimizi cəlb edir. Məntəqə komissiya sədri Mobil Hüseynov deyir ki, burada seçici fəallığı çox yüksəkdir. Qeydiyyata alınmış seçicilərdən 57 faizi səs vermişdir. Gördüyünüz kimi, seçki prosesi mütəşəkkilliklə davam edir.

Müşahidəçilərlə apardığımız söhbət zamanı məlum oldu ki, seçki prosesi zamanı heç bir qanun pozuntusuna yol verilməyib. Məntəqədə yenicə səs vermiş 100 yaşlı Yamən Mehdiyeva ilə söhbət edirik. Deyir ki, sağ olsunlar, sərbəst şəkildə istədiyimiz namizədə səs verdik. Heç bir təzyiqlə üzləşmədik. Bax, buna deyərlər demokratiya. Mən həyatım boyu çoxlu sayda seçkilərdə iştirak etmişəm. Sevinirəm ki, artıq bizim ölkədə də seçkilər şəffaf keçir. Qaldı ki, kimi prezident görməyimizə, bax, bu məsələdə xalq özü bilir ki, kimə səs verməlidir. Necə deyərlər, görünən dağa nə bələdçi?!

***"Azərbaycan"***

# İstanbulda XXI Avrasiya İqtisadi Zirvəsi işə başlayıb



Aprelin 11-də İstanbul şəhərində Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə XXI Avrasiya İqtisadi Zirvəsi işə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə bir sıra ölkələrdən hazırkı və keçmiş dövlət və hökumət başçıları, eləcə də Azərbaycan və Türkiyədən rəsmi şəxslər, həmçinin nazirlər, səfirlər, tanınmış alimlər, QHT və KİV rəhbərləri iştirakı edirlər.

Rəsmi açılışda Türkiyənin Baş naziri Binəli Yıldırım, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Makedoniya Respublikasının Prezidenti George İvanov, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver və başqaları çıxış ediblər. İki gün ərzində toplantıda müasir dünyanın aktual problemləri müzakirə olunacaq.

# Prokurorluq orqanlarına seçki qanunvericiliyinin pozulması ilə əlaqədar müraciət daxil olmayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu aprelin 11-də ölkəmizdə keçirilən prezident seçkiləri ilə bağlı məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, seçkilər zamanı seçki qanunvericiliyinin pozulması ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğu orqanlarına hər hansı müraciət daxil olmayıb.

# Prezident seçkiləri ilə bağlı məhkəmələrə müraciətlər daxil olmayıb

Məhkəmələrdən əldə olunmuş məlumatlara əsasən bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin aprelin 11-də keçirilən seçkiləri zamanı seçki qanunvericiliyinin tələblərinin pozulmasına dair bu işlərə baxmaq səlahiyyəti olan apelyasiya instansiyası məhkəmələrinə heç bir şikayət daxil olmayıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda, seçki prosesinin gedişatında hər hansı insidentlə bağlı rayon (şəhər) məhkəmələrinə də müraciət edilməyib.

*Təkrar*

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti Gədəbəydə alternativ su mənbəyinin tikintisi işlərinin satın alınması məqsədilə açıq tender elan edir

**Tender 1 (bir) lot üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxslər - tenderlərin təşkili şöbəsinin rəisi Murad Abışev, tel: (012) 431 47 67, daxili 1087 və satınalmalar üzrə mühəndis Məmmədyar Musayev, tel: (012) 431 47 67, daxili 2288) ala bilərlər.

İştirak haqqı 500 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son beş ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son beş ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 may 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 14 may 2018-ci il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 may 2018-ci il saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti istehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı məhəllədaxili, binadaxili su təchizatı sistemlərinin yenidən qurulması və məişət su sayğaclarının quraşdırılması işlərinin satın alınması məqsədilə açıq tender elan edir

**Tender 1 (bir) lot üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxslər - tenderlərin təşkili şöbəsinin rəisi Murad Abışev, tel: (012) 431 47 67, daxili 1087 və satınalmalar üzrə mühəndis Məmmədyar Musayev, tel: (012) 431 47 67, daxili 2288) ala bilərlər.

İştirak haqqı 1000 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son beş ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son beş ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 may 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 14 may 2018-ci il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 may 2018-ci il saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Bakı Şəhər Fəvvarələrin İstismarı İdarəsi tenderə dəvət edir

**Tender 1 lot üzrə keçirilir:**

**LOT 1** - Mal-materialların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, S.Əsgərova küç, 105 (telefon (012) 597-07-56) ünvanından ala bilərlər .

**İştirak haqqı**
**LOT 1 - 100 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ54BBTB38060944003204000104** |
| **VÖEN** | **1700216081** |
| **Bank:** | **“BTB” ASC-nin “Ticarət” filialı** |
| **Kodu:** | **501413** |
| **VÖEN:** | **1302164881** |
| **M/H:** | **AZ13NABZ01350100000000093944** |
| **S.W.İ.F.T:** | **BBTBAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair borcun olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08.05.2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **17.05.2018-ci il saat 18:00-a** qədər Bakı şəhəri, S.Əsgərova küç, 105 (FİI-nin tender komissiyasına) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18.05.2018 tarixində saat 16:00-da Bakı şəhəri, S.Əsgərova küç, 105 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti regionların su təminatı zəif olan kəndlərində su təchizatı sisteminin yaradılması işlərinin satın alınması məqsədilə açıq tender elan edir

**Tender 1 (bir) lot üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxslər - tenderlərin təşkili şöbəsinin rəisi Murad Abışev, tel: (012) 431 47 67, daxili 1087 və satınalmalar üzrə mühəndis Məmmədyar Musayev, tel: (012) 431 47 67, daxili 2288) ala bilərlər.

İştirak haqqı 500 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son beş ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son beş ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 may 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 14 may 2018-ci il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 may 2018-ci il saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Parisdə azərbaycanlıların həmrəylik aksiyası keçirilib

Paris Azərbaycan Evinin təşkilatçılığı ilə aprelin 11-də Fransanın paytaxtında bu ölkədə yaşayan soydaşlarımızın birlik və həmrəylik aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiyada “Hər zaman, hər yerdə səninləyik, Azərbaycan!”, “Vətəndən kənarda Vətənin adını uca tutun!”, “Azərbaycan Suriya deyil, olmayacaq da!”, “Bizim gücümüz birliyimizdədir!” və digər şüarlar səsləndirilib.

Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva aksiyada çıxış edərək bildirib ki, xaricdə yaşayıb ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlı müstəqil ölkəmizin uğurları ilə qürur duymalıdır.

Fransada yaşayan soydaşlarımız adından çıxış edən diaspor rəhbəri həmyerlilərimizi Azərbaycan dövlətinin maraqları uğrunda sıx birləşərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin yayılmasında daha fəal olmağa çağırıb.

M.Fətəliyeva eyni zamanda, xaricdəki soydaşlarımızı informasiya əsrində daha diqqətli və operativ şəkildə tarixi vətənin mənafeləri uğrunda həmrəylik göstərməyə səsləyib. Aksiyada həmçinin bu gün Azərbaycanın inkişafına qısqanclıqla yanaşan, ölkəmizin imicinə xələl gətirmək istəyən bəzi qüvvələrin apardıqları çirkin kampaniyaya etiraz səsləndirilib, bu dairələrin öz məqsədlərinə nail ola bilməyəcəkləri bəyan edilib.

Azərbaycan diasporunun üzvü Zakir Məmmədov AZƏRTAC-a müsahibəsində bildirib: “Bu gün Azərbaycan dövləti və xalqı ilə həmrəyliyimizi bildirmək üçün bir tədbirdə toplaşmışıq. Bu gün xalqımız üçün həlledici gündür. Məhz bu gün həmrəy və bir-birimizə dayaq olmalıyıq. Təəssüf ki, bu gün ölkəmizin sabitliyinə xələl gətirməyə cəhd edən bəzi insanlar var. Üzümü buradan bütün azərbaycanlılara tutaraq, onları harada olmalarından asılı olmayaraq birlik nümayiş etdirməyə səsləyirəm. Birliyimiz qələbəmizdir. Bütün Azərbaycan xalqını salamlayıram”.

Azərbaycan diasporunun başqa bir üzvü Rza Zeyni isə diqqətə çatdırıb: “Fransada yaşayan azərbaycanlılar olaraq bir araya gələrək xalqımızla, dövlətimizlə həmrəyliyimizi bildiririk. Biz bu gün xalqımızın yanında olduğumuzu göstərmək istəyirik. Avropada müəyyən qruplar var ki, ölkəmizin nüfuzuna, imicinə xələl gətirmək istəyir, yalan və böhtan dolu xəbərlər, fikirlər yaymağa çalışırlar. Biz onlara etirazımızı bildiririk. Arzumuz Azərbaycanı daha da güclü görmək, daim onun nailiyyətləri ilə sevinməkdir. Azərbaycan dövlətini dəstəkləyirik. Hər an ölkəmiz, xalqımız üçün səfərbər olmağa hazırıq”.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

“Aqrarkredit” Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi “Kapital Bank” ASC-nin İdarə Heyəti sədrinin müavini Yaşar Məmmədova anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan “ qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan “ nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8809
Sifariş 1030